

# MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASI ÜZVLƏRİNİN DƏRSLİK TƏLİMATI

**26 oktyabr 2024-cü ildə Gürcüstan parlamentinə növbəti seçkilər üçün**

Səsvermənin elektron vasitələrlə aparıldığı seçki məntəqələri üçün nəzərdə tutulub

MSK-nın 16 avqust 2024-cü il tarixli  35/2024 saylı qərarı ilə təsdiq edilmişdir.

Köməkçi dərslik 2024-cü il oktyabrın 26-da keçiriləcək Gürcüstan parlamentinə növbəti seçkilər üçün İHHŞ Seçki Sistemlərinin İnkişafı, İslahatları və Təlim Mərkəzi tərəfindən hazırlanıb. O, səsvermənin elektron vasitələrlə aparıldığı seçki məntəqələri üçün nəzərdə tutulub.

Resurs Gürcüstanın üzvi qanunu “Gürcüstanın Seçki Məcəlləsi” və MSK-nın 6 fevral 2023-cü il tarixli 7/2023 saylı qərarı ilə “Elektron vasitələrdən istifadə etməklə səsvermənin keçirilməsi qaydaları və şərtlərinin müəyyən edilməsi” əsasında hazırlanıb.

Məntəqə seçki komissiyasının səlahiyyətləri və fəaliyyəti ilə bağlı qanunvericiliyin tənzimləmələri ilə tam tanış olmaq üçün Gürcüstanın Üzvi Qanununa “Gürcüstanın Seçki Məcəlləsi” və MSK-nın müvafiq hüquqi aktlarına baxın.

İnklüziv seçki mühitinin təşviq edilməsi üçün, Seçki Sistemləri üzrə Beynəlxalq Fondunun (IFES) Gürcüstan nümayəndəliyinin dəstəyi ilə MSK-nın 16 avqust 2024-cü il tarixli 35/2024 saylı qərarı ilə təsdiq edilmiş Məntəqə Seçki Komissiyasının üzvləri üçün dərslik təlimatı Azərbaycan dilinə tərcümə edilib.

MSK-nın qərarı ilə təsdiq edilmiş dərslik təlimatın mətni ilə tərcümə edilmiş nəşr arasında fərq yarandıqda, gürcü dilində tərtib edilmiş nəşrə üstünlük verilir

26 oktyabr 2024-cü ildə
Gürcüstan vətəndaşları Gürcüstan parlamentini seçəcəklə.
Məntəqə Seçki Komissiyası demokratik seçkilərin vacibliyini nəzərə alaraq,
qanunçuluq, siyasi neytrallıq və peşəkarlıq prinsiplərini rəhbər tutur, fəaliyyətini
yüksək etik davranış standartları ilə həyata keçirir və eləbir şərait yaradır, harada ki,

- seçicinin iradəsinin sərbəst ifadəsi və seçim sirri qorunur
- bərabər və əlçatan seçki xidmətləri təmin edilir

müşahidəçilərin və seçki subyektlərinin nümayəndələrinin qanuni hüquqlarından istifadəsinə təminat verilir

Yeni yaradılmış məntəqə seçki komissiyasının fəaliyyəti və üzvlərinin səlahiyyət müddəti səsvermə gününə qədər 30-cu gündən (26 sentyabr) başlayır və müvafiq dairə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinin yekun protokolu tərtib edildikdən dərhal sonra başa çatır.

Məntəqə seçki komissiyasının üzvü onu təyin etmiş/seçmiş subyektin nümayəndəsi deyildir. Məntəqə seçki komissiyasının üzvünə seçkiqabağı təşviqat aparmaq və təşviqatda iştirak etmək qadağandır, qərarların qəbul edilməsinə təsir göstərmək məqsədilə seçki komissiyasının üzvünə təsir etmək və ya onun fəaliyyətinə müdaxilə etmək qadağandır və qanunla cəzalandırılır.

# Tematik mündəricat

**I fəsil. Məntəqə seçki komissiyasının səsvermə günündək olan müddətdə fəaliyyəti** **5**

01 Məntəqə seçki komissiyası səsvermə günündək olan müddətdə seçicilərə hansı xidmətləri göstərir 6

02 Məntəqə seçki komissiyası səsvermə gününə necə hazırlaşır 11

**II fəsil. Məntəqə seçki komissiyasının səsvermə günü fəaliyyəti** **15**

03 Məntəqə seçki komissiyası səsvermə günü səsvermə prosesini başlamaq üçün necə hazırlaşır 16

04 Məntəqə seçki komissiyası səsvermə prosesində seçiciyə necə xidmət göstərir 27

05 Məntəqə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinin yekunlaşdırılması prosesi necə aparılır 42

06 Məntəqə seçki komissiyası səsvermə günü ərizə və şikayətlərə necə cavab verir 61

**Əlavə N1** - Elektron aparatların yığılması haqqında məlumat sənədi 64

**Əlavə N2** - Səsvermə prosesinin elektron vasitələrdən istifadə olunmadan davam etdirilməsi 67

**Əlavə N3** - Məntəqə seçki komissiyasının həyata keçirəcəyi əsas tədbirlərin təqvimi 77

# I fəsil

## Məntəqə seçki komissiyasının səsvermə gününədək olan müddətdə fəaliyyəti

# 01
# Məntəqə seçki komissiyası səsvermə gününədək olan müddətdə seçicilərə hansı xidmətləri göstərir

Seçicilərin səsvermədə iştirakını təmin etmək məqsədilə, məntəqə seçki komissiyası fəaliyyətə başlayan kimi seçicilərə müvafiq xidmət göstərir.

Seçicilərin vahid siyahısında məlumatların yoxlanılması xidmətinin həyata keçirilməsi üçün məntəqə seçki komissiyası təmin edir

- seçicilərin vahid siyahısının ictimailəşdirilməsini
- seçici kartlarının paylanılmasını

## Seçicilərin vahid siyahısının ictimailəşdirilməsi

Məntəqə seçki komissiyasına səsvermə gününə qədər 30-cu gündən (26 sentyabr) MSK tərəfindən təsdiq edilmiş seçicilərin vahid siyahısının ictimai məlumat üçün mövcud variantı (divar siyahısı - seçicilərin fotoşəkili və şəxsi nömrələri olmadan) təqdim ediləcək. Məntəqə seçki komissiyası qeyd olunan siyahını və onunla bağlı şikayətin verilməsi qaydasını dərhal məntəqə seçki komissiyasının binasında görünən yerə asır, bununla da seçicilərin, müşahidəçi təşkilatların və seçkidə qeydə alınmış partiyaların (seçki subyektləri) nümayəndələrinin informasiyanı əldə etmələrini təmin edir.

Məntəqə seçki komissiyasına səsvermə gününə ən geci iki gün (oktyabrın 24-ü) qalmış yekun, dəqiqləşdirilmiş siyahının ictimai məlumat üçün mövcud variantı verilir. İlkin versiyası çıxarılır və komissiya siyahının dəqiqləşdirilmiş versiyasını eyni yerdə asır.

## Seçici kartlarının paylanılması

Məntəqə seçki komissiyası seçici siyahısındakı məlumatların yoxlanılmasını asanlaşdırmaq məqsədilə səsvermə gününə qədər ən tezi 30-cu gün (26 sentyabr) və ən geci 20-ci gün (6 oktyabr) seçicilərə ünvanlarına məlumat kartları paylayır, burada seçicilərin vahid siyahısında əks olunmuş seçicinin şəxsi məlumatları və qeyri-dəqiqlik aşkar olduqda siyahıya dəyişiklik tələb edilməsi qaydası göstərilib.

Seçici kartında daşınan seçki qutusu ilə səsvermə xidmətinin tələb edilməsi qaydası haqqında da məlumatlar var.

Məntəqə seçki komissiyası seçicilərin yekun siyahısına əsasən seçicilərin məlumatlandırılması məqsədi ilə növbəti mərhələdə aşağıdakılar göstərilməklə kartlar paylayır: səsvermənin tarixi və vaxtı; səsvermə binasının ünvanı, mərtəbəsi və otaq nömrələri; seçki məntəqəsinin nömrəsi; seçici siyahısındakı seçicinin nömrəsi və digər şəxsi məlumatlar. Kartlar səsvermə gününə qədər ən geci ikinci günü (24 oktyabr) paylanılır. Seçici kartının alınmaması səsvermədə iştirak hüququnun məhdudlaşdırılması üçün əsas deyil. Seçici kartları məntəqə seçki komissiyasının sədrinin hazırladığı qrafikə uyğun olaraq, paylanmaya məsul olan qrupda/qruplarda məntəqə seçki komissiyasının/xüsusi qrupun azı 2 üzvünün iştirakı ilə paylanılır.

Məntəqə seçki komissiyası seçicilərin vahid siyahısına dəyişikliklərin daxil edilmə xidmətini təşviq etmək üçün təmin edir

- ərizələrin qəbulu və cavablandırılması üçün dairə seçki komissiyasına göndərilməsini
- siyahıya dəyişiklik edilməsi barədə qəbul olunan qərarın ictimailəşdirməsini

Seçicinin, müşahidəçi təşkilatın və seçkidə qeydə alınmış partiyanın seçicinin vahid siyahısında qeyri-dəqiqlik aşkar edildikdə, seçki gününə qədər 18-ci gündən (8 oktyabr) gec olmayaraq, müvafiq dəyişiklikləri daxil etmə tələbi ilə ərizə ilə birbaşa dairə seçki komissiyasına müraciət etmək və ya məntəqə seçki komissiyasının xidmətindən istifadə etmək hüququ vardır.

Məntəqə seçki komissiyası daxil olmuş ərizələri (əlavə edilmiş sənədlər – mövcud olduğu halda) dərhal cavablandırılması üçün dairə seçki komissiyasına təhvil verir.

Dairə seçki komissiyasının seçicilərin vahid siyahısında dəyişiklik daxil edilməsi haqqında fərmanı məntəqə seçki komissiyasına göndərilir və o, ictimailəşdirmək məqsədi ilə həmin fərmanı komissiyanın binasında görünən yerə asır.

Məntəqə seçki komissiyası daşınan seçki qutusu ilə səsvermə xidmətini həyata keçirilməsi üçün təmin edir

- ərizələr əsasında seçicilərin daşınan seçki qutusu siyahısına daxil edilməsini
- daşınan seçki qutusunun siyahısına daxil edilməsi barədə qəbul olunan qərarın ictimailəşdirilməsi

Sağlamlıq vəziyyətinə görə seçki məntəqəsinə gedə bilməyən və ya seçki məntəqəsinin ərazisində yerləşir, lakin çətin gedilən yerdə olan seçicinin daşınan seçki qutusu ilə səsvermə xidmətindən istifadə etmək hüququ vardır.

Daşınan seçki qutusu ilə səsvermə xidmətindən istifadə etmək tələbi ilə seçici səsvermə gününə qədər 11-ci gündən (15 oktyabr) gec olmayaraq saat 18:00-a qədər yazılı ərizə və ya telefonla şifahi ərizə formasında məntəqə seçki komissiyasına müraciət etməlidir.

Yazılı müraciətin qeydə alınması üçün ərizədə seçicinin adı, soyadı, şəxsi nömrəsi və daşınan seçki qutusunun çatdırılmasını xahiş etdiyi ünvan göstərilməlidir, məntəqə seçki komissiyasının katibi zəruri hallarda ərizəçiyə məlumatı dəqiqləşdirir.

Məntəqə seçki komissiyasının katibi telefonla şifahi müraciətin qeydə alınması üçün seçicinin adını, soyadını, şəxsi nömrəsini, telefon bildirişinin alınmasının dəqiq vaxtını, telefon nömrəsini və seçicinin daşınan seçki qutusunun çatdırılmasını tələb etdiyi ünvanı qeydiyyat jurnalında göstərməlidir.

Əgər seçici daşınan seçki qutusunu adresatın seçki məntəqəsinin ərazisinin sərhədlərinə daxil olmadığı ünvana aparılmasını tələb edir, komissiyanın katibi ərizəni qeydə alarkən seçiciyə onun seçki məntəqəsinin daşınan seçki qutusunun siyahısına daxil edilməyəcəyini izah edir.

Məntəqə seçki komissiyasının katibi seçicinin yazılı ərizəsini/telefonla şifahi ərizəsini qeydiyyat jurnalında qeyd edir və onun alındığını imza ilə təsdiq edir.

Qeydə alınmış ərizələr əsasında seçicilərin daşınan seçki qutusunun siyahısına daxil edilməsi üçün məntəqə seçki komissiyası müvafiq dairə seçki komissiyası ilə əlaqə saxlamaqla (zəruri hallarda) seçicinin seçki məntəqəsinin vahid siyahısında qeydə alınması faktını yoxlayır.

Məntəqə seçki komissiyasının katibi yoxlamanın nəticələrini nəzərə alaraq, məntəqə seçki komissiyasının binasında ictimailəşdirmək üçün asır:

- daşınan seçki qutusu siyahısına daxil ediləcək seçicilər haqqında məlumatlar (şəxsi nömrələr olmadan, vahid siyahıda seçicinin sıra nömrəsi göstərilməklə);
- daşınan seçki qutusu siyahısına daxil edilməkdən imtina edilmiş seçicilər haqqında məlumat.

Komissiyanın binasında ictimailəşdirilmiş seçicilərin vahid siyahısında müvafiq seçicinin məlumatları boyunca “faktiki vəziyyət” qrafasında mövcud olan “daşınan qutu” qeydini komissiyanın katibi və komissiyanın sədri imza ilə (sənədin sonunda imza üçün nəzərdə tutulmuş yerdə) təsdiqləyirlər.

Məntəqə seçki komissiyasının üzvləri, seçki subyektlərinin nümayəndələri və müşahidəçilər daşınan seçki qutularının siyahısına daxil edilәsi seçicilərin müraciətinin əsaslılığını yoxlamaq və seçki gününə qədər ən geci 10-cu gün (16 oktyabr) həmin seçicilərin siyahıya daxil edilməsinin məqsədəuyğunluğu məsələsini məntəqə seçki komissiyası qarşısında qaldırmağa hüquqları var. Məntəqə seçki komissiyası ən azı 9 üzvün iştirakı ilə məsələni müzakirə etmək səlahiyyətinə malikdir, qərar iclasda iştirak edənlərin çoxluğu ilə qəbul edilir.

Sağlamlıq vəziyyətinə görə məntəqə seçki komissiyası tərəfindən daşınan seçki qutusu siyahisına daxil edilәsi seçicilərin sayı seçki məntəqəsi üzrə seçicilərin vahid siyahısında olan seçicilərin 3 faizindən çox olmamalıdır. Göstərilən sayı doldurulduqdan sonra məntəqə seçki komissiyasının sədri daxil olmuş ərizələri dairə seçki komissiyasına göndərməlidir, komissiya seçicilərin daşınan seçki qutularının siyahısına daxil edilməsinin məqsədəuyğunluğu barədə qərar qəbul edir. Məntəqə seçki komissiyası əldə edilmiş nəticələr haqqında məlumatın ictimailəşdirilməsini təmin edir.

Dairə seçki komissiyası daşınan seçki qutusu siyahısının yekun, dəqiqləşdirilmiş çap variantını (divar siyahısı) məntəqə seçki komissiyasına təhvil verir. Qeyd olunan siyahıda seçicilərin məlumatları göstərilibdir, hansılar ki:

- ✔ məntəqə seçki komissiyası tərəfindən daşınan seçki qutusu siyahısına daxil edilmişdir;
- ✔ dairə seçki komissiyası tərəfindən məqsədəuyğunluq məsələsinə baxılması nəticəsində daşınan seçki qutusu siyahısına daxil edilmişdir;
- ✔ dairə seçki komissiyası tərəfindən təsdiq edilmiş seçicilərin xüsusi siyahısından daşınan seçki qutusu siyahısına keçirilibdirlər.

Məntəqə seçki komissiyası daşınan seçki qutusunun siyahısının yekun, dəqiqləşdirilmiş versiyasını komissiyanın binasında görünən yerə asır. Bundan əlavə, komissiyanın katibi və komissiyanın sədri öz imzaları ilə (sənədin sonunda imza üçün nəzərdə tutulmuş yerdə) seçicilərin vahid siyahısında/xüsusi siyahıda seçicinin məlumatları boyunca mövcud olan "daşınan qutusu" qeydini təsdiqləyirlər.

Məntəqə seçki komissiyası təkərli kürsüdən istifadə edən seçicilərin səsvermədə iştirakının təşviqi xidmətinin həyata keçirilməsi üçün təmin edir

- uyğunlaşdırılmış seçki məntəqəsinin xüsusi siyahıya daxil edilməsini tələb etmək ilə bağlı seçicilərdən ərizələrin qəbulu və cavablandırılması üçün dairə seçki komissiyasına göndərilməsini
- xüsusi siyahıya daxil edilməsi haqqında qəbul olunan qərarın ictimailəşdirilməsini

Təkərli kürsüdən istifadə edən seçici uyğunlaşdırılmış seçki məntəqəsinin seçicilərinin xüsusi siyahısına daxil olmaq üçün birbaşa dairə seçki komissiyasına müraciət etmək və ya məntəqə seçki komissiyasının xidmətindən istifadə etmək hüququna malikdir.

Seçici səsvermə gününə qədər 11-ci (15 oktyabr) gündən gec olmayaraq saat 18:00-a dək yazılı ərizə və ya telefonla şifahi ərizə forması ilə məntəqə seçki komissiyasına müraciət etməlidir.

Yazılı ərizənin qeydə alınması üçün ərizədə seçicinin adı, soyadı, şəxsi nömrəsi və seçicinin seçkilərdə iştirak etmək üçün müraciət etdiyi uyğunlaşdırılmış məntəqənin nömrəsi göstərilməlidir. Məntəqə seçki komissiyasının katibi zəruri hallarda məlumatı ərizəçiyə dəqiqləşdirir.

Telefonla şifahi ərizəni qeydə alınması üçün məntəqə seçki komissiyasının katibi seçicinin adını, soyadını, şəxsi nömrəsini, telefon bildirişinin alınmasının dəqiq vaxtını, telefon nömrəsini və seçicinin seçkilərdə iştirak etmək üçün müraciət etdiyi uyğunlaşdırılmış məntəqənin nömrəsini qeydiyyat jurnalında göstərməlidir.

Məntəqə seçki komissiyasının katibi seçicinin yazılı ərizəsini/telefonla şifahi ərizəsini qeydiyyat jurnalında qeyd edir və onun alındığını imza ilə təsdiqləyir.

Məntəqə seçki komissiyasının katibi uyğunlaşdırılmış seçki məntəqəsinin xüsusi siyahısına daxil edilməsi üçün komissiyaya ərizə vermiş seçicilər haqqında məlumatı dərhal komissiyanın binasında ictimailəşdirmək üçün asır. Bundan əlavə, komissiya daxil olmuş ərizələri (əlavə edilmiş sənədlərlə birlikdə - mövcud olduğu halda) cavablandırmaq üçün dərhal dairə seçki komissiyasına təhvil verir.

Məntəqə seçki komissiyasının üzvləri, seçki subyektlərinin nümayəndələri və müşahidəçilər seçicinin uyğunlaşdırılmış seçki məntəqəsində səs verməklə bağlı müraciətinin əsaslılığını yoxlamaq və bu seçicilərin müvafiq xüsusi siyahıya daxil edilməsinin məqsədəuyğunluğu barədə dairə seçki komissiyası qarşısında məsələ qaldırmaq hüququna malikdirlər.

Dairə seçki komissiyası seçicinin uyğunlaşdırılmış seçki məntəqəsinin xüsusi siyahısına daxil edilməsi barədə qərarı səsvermə gününə qədər 10-cu gündən (16 oktyabr) gec olmayaraq məntəqə seçki komissiyasına bildirir. Komissiyanın binasında ictimailəşdirilmiş seçicilərin vahid siyahısında müvafiq seçicinin məlumatları boyunca “faktiki vəziyyət” qrafasında mövcud olan “təkərli kürsüdən istifadə edən” qeydini komissiyanın katibi və komissiyanın sədri imza ilə (sənədin sonunda imza üçün nəzərdə tutulmuş yerdə) təsdiqləyirlər.

## Biliyin özünüqiymətləndirməsi üçün suallar

1. Məntəqə seçki komissiyası seçicilərin vahid siyahısında məlumatların yoxlanılması xidmətinin həyata keçirilməsini necə təmin edir?
2. Məntəqə seçki komissiyası hansı prosedura riayət etməklə seçicini daşınan seçki qutusu siyahısına daxil edir?
3. Daşınan seçki qutusu ilə səsvermənin tələb edilməsi ilə bağlı verilən yazılı ərizədə hansı məlumatlar olmalıdır və seçicinin telefonla şifahi ərizəsini qəbul edərkən komissiyanın katibi hansı məlumatları qeyd etməlidir?
4. Daşınan seçki qutusu vasitəsilə səs vermək üçün seçicilərin ərizələri seçki məntəqəsi üzrə vahid seçici siyahısında olan seçicilərin 3 faizindən çox olarsa, məntəqə seçki komissiyası necə hərəkət etməlidir?
5. Məntəqə seçki komissiyası təkərli kürsüdən istifadə edən seçicilərin səsvermədə iştirakının təşviqi xidmətinin həyata keçirilməsini necə təmin edir?

# 02
# Məntəqə seçki komissiyası səsvermə gününə necə hazırlaşır

## Məntəqə seçki komissiyasının üzvləri arasında funksiyaların bölüşdürülməsi

Məntəqə seçki komissiyasının sədri seçicilərin səsvermə prosesində iştirakını təmin etmək, habelə daşınan seçki qutusu ilə səsvermə xidmətini həyata keçirmək məqsədi ilə səsvermə gününə qədər ən geci 7-ci (oktyabrın 19-u) günü komissiya üzvləri arasında aşağıdakı funksiyaları bölüşdürür:

- seçici axının tənzimləyicisi;
- seçicilərin qeydiyyatçısı;
- daşınan seçki qutusunu götürən.

Komissiyanın rəhbər şəxsləri (komissiyanın sədri, komissiya sədrinin müavini, komissiyanın katibi) komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsi prosesində iştirak etmirlər.

Məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında funksiyaları mərhələli şəkildə bölüşdürür. İlk növbədə, partiyalar tərəfindən təyin edilmiş üzvlər arasından daşınan seçki qutusunu götürən komissiya üzvləri, növbəti mərhələdə dairə seşki komissiyası tərəfindən seçilmiş üzvləri arasından seçicilərin qeydiyyatçısı funksiyasını yerinə yetirən komissiyanın üzvləri (seçicilərin qeydiyyatçılarının sayı komissiyaya təhvil verilmiş seçicilərin verifikasiya aparatlarının sayına uyğun olmalıdır) və nəhayət, funksiyasız qalan komissiya üzvləri arasından seçici axının tənzimləyicisi funksiyasını yerinə yetirən komissiyanın üzvü müəyyən edilir.

Daşınan seçki qutusunu götürən komissiyanın üzvlərinin müəyyən edilməsi prosesi:

- Seçki məntəqəsində bir daşınan seçki qutusundan istifadə edildikdə, komissiyanın sədri püşkatma yolu ilə daşınan seçki qutusunu götürən komissiyanın iki üzvünü seçir.
- Seçki məntəqəsində birdən çox daşınan seçki qutusundan istifadə edildikdə, komissiyanın sədri püşkatma yolu ilə №1 daşınan seçki qutusunu götürən komissiyanın 2 üzvünü, sonra isə №2 və №3 (əgər varsa) daşınan seçki qutusunu götürən komissiyanın bir üzvünü seçir, hansılar ki, xüsusi qrupun 2-2 üzvü ilə birlikdə seçicilərə müvafiq xidməti həyata keçirəcəklər.

Qeydiyyata alınmış seçicilərin sayı 800-dən çox olan və həmin məntəqənin sərhədləri sonuncu ümumi seçkilər üçün yaradılmış iki və ya daha çox seçki məntəqəsinin sərhədlərini birləşdirdiyi seçki məntəqəsində birdən çox daşınan seçki qutusundan istifadə edilə bilər.

Seçicilərin qeydiyyatçısı funksiyasını yerinə yetirən komissiya üzvlərinin müəyyən edilməsi prosesi:

- Dairə seçki komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyası üzvlərinin sayı müəyyən edilməli olan seçicilərin qeydiyyatçısı komissiyasının üzvlərinin sayından çox olarsa, komissiyanın sədri seçicilərin qeydiyyatçılarını püşkatma yolu ilə müəyyən edir.
- Dairə seçki komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyası üzvlərinin sayı müəyyən edilməli olan seçicilərin qeydiyyatçısı komissiyasının üzvlərinin sayına bərabər və ya ondan az olarsa, komissiyanın sədri seçicilərin qeydiyyatçısı funksiyasını püşkatmada, avtomatik olaraq dairə seçki komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyasının üzvlərinə həvalə edir.

Axının tənzimləyicisi funksiyasını yerinə yetirən komissiya üzvünün müəyyən edilməsi prosesi:

- Komissiyanın birdən çox üzvü funksiyasız qalarsa, komissiya sədri püşkatma yolu ilə üzvlər arasında axının tənzimləyicisi funksiyasını bölüşdürür.
- Komissiyanın yalnız bir üzvü funksiyasız qalarsa, komissiyanın sədri püşkatmasız, avtomatik olaraq axının tənzimləyicisi funksiyasını komissiya üzvünə həvalə edir.

Püşkatma yolu ilə komissiya üzvləri arasında müvafiq funksiyaların bölüşdürülməsi prosesi:

- Komissiyanın sədri püşkatmada iştirak edən komissiya üzvlərinin sayını nəzərə alaraq eyni vərəqlər hazırlayır. Püşkatmada iştirak edən komissiyanın hər bir üzvünün adı və soyadını hər vərəqdə eyni yazı vasitəsi ilə qeyd edir.
- Komissiyanın sədri bütün püşkatma vərəqini öz imzası ilə təsdiqləyir, mətni oxumaq mümkün olmayacaq şəkildə qatlayır və stolun üzərinə qoyur;
- Komissiyanın sədri püşkatma vərəqlərini bir-bir götürür və müvafiq funksiyanı yerinə yetirən komissiyanın üzvünü/üzvlərini açıqlayır.

Püşkatma məntəqə seçki komissiyası üzvlərinin iştirakı ilə keçirilir, onların gəlməməsi püşkatmanın keçirilməsinə və püşkatmada iştiraka maneə yaratmır.

Püşkatma başa çatdıqdan sonra məntəqə seçki komissiyasının katibi funksiyaların bölüşdürülməsinin nəticələrini özündə əks etdirən akt tərtib edir. Aktı məntəqə seçki komissiyasının sədri və katibi imzalayır. Komissiyanın katibi səsvermə günü aktda göstərilən məlumatları seçki gününün qeydlər kitabına daxil edir.

Daşınan seçki qutusunu götürən komissiya üzvü funksiyasını yerinə yetirməkdən imtina edən komissiya üzvü axının tənzimləyicisi komissiya üzvünün funksiyasını bölüşdürən püşkatmada iştirak etmək hüququnu itirir.

## Səsvermə binasının təşkili

Məntəqə seçki komissiyası səsvermə günü seçicilərə səsvermə xidmətinin həyata keçirilməsi üçün dairə seçki komissiyasından qəbul edilmiş seçki sənədlər, inventar və müvafiq sayda elektron aparatlar ilə səsvermə binasını səsvermədən ən geci bir gün (25 oktyabr) qalmış  təşkil edir.

Səsvermə binasında:

- ☐ Gizli səsvermə kabinələri elə qurulmalıdır ki, seçici tərəfindən səsvermə bülleteni doldurmasının gizliliyi təmin edilsin. Kabinənin açıq tərəfi/girişi binanın divarına tərəf olmalıdır. Kabinədə seçki bülleteni doldurulması üçün xüsusi marker olmalıdır. Uyğunlaşdırılmış məntəqədə təkərli kürsüdən istifadə edən seçicilər üçün uyğunlaşdırılmış gizli səsvermə kabinəsi də qurulur.



- ☐ Seçicilərin qeydiyyatçıları üçün ayrılmış masaların üzərində seçicilərin verifikasiya aparatları yerləşdirilməli və aparatların internet olmadan bir-birinə qoşulması üçün (sinxronizasiya) daxili şəbəkə təşkil edilməlidir.



- ☐ Seçicilərin qeydiyyatçılarının masalarında verifikasiya aparatlarından çap edilmiş seçicilərin verifikasiyasını təsdiq edən qəbzləri saxlamaq üçün qeyri-şəffaf qutular da yerləşdirilməlidir.



- ☐ Əsas seçki qutuları (onlarda xüsusi elektron səs sayma aparatları quraşdırılmadan/möhürlənmədən) görünən yerdə yerləşdirilməlidir ki, seçici onlara yubanmadan çata bilsin. Əsas seçki qutularının yanında seçicinin səsvermə prosedurunu bitirdikdən sonra xüsusi çərçivə zərfi qoyacağı yer ayrılmalıdır.



Səsvermə binasında seçicilərin verifikasiyası və səslərin sayilması üzrə aparatlarının texniki yığılmasını (aparatlar işə salınmadan) ali seçki komissiyasının nümayəndəsi - elektron aparatların texniki mütəxəssisi təmin edir. Göstərilən prosesə nəzarəti məntəqə seçki komissiyasının sədri həyata keçirir (Elektron aparatların yığılması haqqında məlumat üçün bu təlimatın N1 əlavəsinə baxın).




Səsvermə binasının görünən yerində aşağıdakılar asılmalıdır:

- ☐ seçicilərin vahid siyahısının ictimai məlumata aid olan versiyası;
- ☐ seçicilərin xüsusi siyahısının ictimai məlumata aid olan versiyası (mövcud olduqda);
- ☐ daşınan seçki qutuları siyahısının ictimai məlumata aid olan versiyası (mövcud olduqda);
- ☐ seçkilərdə iştirak edən partiyaların təqdim etdiyi partiya siyahıları;
- ☐ seçki bülleteninə daxil edilmiş və artıq seçkilərdə iştirak etməyən seçki subyekti haqqında ərizə (mövcud olduqda, ərizı həm səsvermə binasında, həm də gizli səsvermə kabinələrində asılır);
- ☐ MSK tərəfindən müəyyən edilmiş seçki bülleteninin doldurulma qaydası;
- ☐ seçki bülleteninin batil sayılması üçün əsasları müəyyən edən “Gürcüstanın Seçki Məcəlləsi” Gürcüstanın Üzvi Qanunundan çıxarış;
- ☐ məntəqə seçki komissiyasının səsvermənin nəticələrinin nümayişi protokolu.

Həmçinin, məntəqə seçki komissiyasına, səsvermə günü müvafiq funksiyaları yerinə yetirmək üçün dairə seçki komissiyasından aşağıdakıları veriləcək:

- ☐ seçki bülletenləri (50-50 ədəd qablaşdırılmış);
- ☐ xüsusi çərçivə zərfləri;
- ☐ metal bərkidicilər (daşınan seçki qutusu ilə səsvermə prosesində istifadə olunur. Seçici bülleteni yerləşdirdikdən sonra xüsusi çərçivə-zərf metal bərkidici ilə bərkidilir. Bu üsulla zərf daşınan seçki qutusuna qoyulur);
- ☐ seçki bülleteninin doldurulması üçün xüsusi markerlər;
- ☐ işarələnmə mayeləri;
- ☐ işarələnməni yoxlamaq üçün xüsusi alət (ultrabənövşəyi lampa);
- ☐ zəif görən seçicilər üçün böyüdücü linza;
- ☐ görmə qabiliyyətindən məhrum olan seçicilər üçün xüsusi çərçivə forması;
- ☐ seçicinin verifikasiyasını təsdiq edən aktlar (seçicinin verifikasiyasını təsdiq edən qəbzi verifikasiya aparatından çap edilmədikdə və ya texniki xəta ilə çap edildikdə istifadə olunur);
- ☐ əsas/daşınan seçki qutularının möhürləri;
- ☐ seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf qutuların möhürləri;
- ☐ daşınan seçki qutusunun yarığının möhürü;
- ☐ aparatlarda yaddaş kartının yerləşdirilməsi üçün xüsusi yerin möhürləri;

- ☐ seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf qutuların yarığının möhürü;
- ☐ əsas seçki qutularının yarığının möhürləri (səsvermə prosesinin xüsusi elektron səs sayma aparatlarının olmadan davam etdirilməsi zamanı istifadə olunur);
- ☐ səsvermə günün qeydlər kitabçası;
- ☐ məntəqə seçki komissiyasının xüsusi möhürün möhürlənmiş paketi və mürəkkəb üçün yastıq (möhürdən istifadə olunur: komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsi üçün keçiriləcək püşkatma vərəqlərini təsdiq etmək üçün; məntəqə seçki komissiyasının səsvermənin nəticələrinin yekun protokolunu/düzəliş protokolunu və veriləcək surətləri təsdiq etmək üçün; səsvermə gününün qeydlər kitabının və qeydiyyat jurnalının bağlanmasını təsdiq etmək üçün);
- ☐ daşınan seçki qutuları siyahısının (mövcud olduqda) komissiyaya aid olan versiyası;
- ☐ komissiyaya aid olan seçicilərin vahid siyahısının, seçicilərin xüsusi siyahısının (mövcud olduqda) versiyalarının möhürlənmiş bağlamaları (səsvermə prosesi verifikasiya aparatları olmadan davam etdirildikdə istifadə olunur);
- ☐ səsvermə başa çatdıqdan sonra seçki sənədlərinin/inventarların qablaşdırılması üçün zərflər/polietilen torbalar;
- ☐ surəti çəkən aparat (səsvermənin nəticələrinin icmal protokolunun/düzəliş protokolunun və digər zəruri sənədlərin fotosurətlərini çıxarmaq üçün);
- ☐ planşet (səsvermə günü müvafiq məlumatların, o cümlədən səsvermənin nəticələri haqqında ilkin məlumatların və yekun protokolun surətinin elektron formada MSK-ya ötürülməsi üçün istifadə edilir).

Dairə seçki komissiyasından elektron aparatların, seçki sənədlərinin və inventarların qəbuluna məsul şəxs məntəqə seçki komissiyasının sədridir. Qəbul-təslim prosesi aktla (iki nüsxədə) tərtib edilir və bunu məntəqə seçki komissiyasının katibi qeydiyyat jurnalında qeyd edir.

> Məntəqə seçki komissiyasının sədri səsvermə binasının təşkili başa çatdıqdan sonra təhvil-təslim aktı əsasında seçki elektron aparatlarını, seçki sənədlərini və inventarı mühafizə polisinə təhvil verir.

## Biliyin özünüqiymətləndirməsi üçün suallar

1. Məntəqə seçki komissiyası üzvləri arasında səsvermə günü yerinə yetiriləcək funksiyalar hansı ardıcıllıqla və hansı qaydada bölüşdürülür?
2. Məntəqə seçki komissiyasının sədri seçicilərin qeydiyyatçısı funksiyasını hansı qaydada bölüşdürəcək, əgər məntəqə seçki komissiyasının dairə seçki komissiyası tərəfindən seçilmiş üzvlərinin sayı:
   - ✔ müəyyən ediləcək seçicilərin qeydiyyatçısı komissiyasının üzvlərinin sayından çoxdursa?
   - ✔ müəyyən ediləcək seçicilərin qeydiyyatçısı komissiyasının üzvlərinin sayından artıq deyilsə?
3. Məntəqə seçki komissiyasının sədri daşınan seçki qutusunu götürən komissiya üzvlərinin müəyyən edilməsi üçün nə vaxt püşkatma keçirir?
4. Seçki məntəqəsində birdən çox daşınan seçki qutusundan istifadə edildikdə, məntəqə seçki komissiyasının sədri daşınan seçki qutularını götürən komissiya üzvlərinin müəyyən edilməsi üçün hansı qaydada püşkatma keçirir?
5. Seçki məntəqəsi nə vaxt və necə təşkil olunur?
6. Dairə seçki komissiyası səsvermə günü müvafiq funksiyaları yerinə yetirmək üçün hansı seçki sənədlərini/inventarını məntəqə seçki komissiyasına təhvil verir?
7. Səsvermə binasında seçicilərin verifikasiyası və səslərin sayılması üçün xüsusi elektron aparatların texniki yığılmasına (aparatları işə salmadan) kim cavabdehdir?

# II fəsil

## Məntəqə seçki komissiyasının səsvermə günü fəaliyyəti

# 03
# Məntəqə seçki komissiyası səsvermə günü səsvermə prosesini başlamaq üçün necə hazırlaşır

Məntəqə seçki komissiyasının sədri, seçki məntəqəsi açılmazdan əvvəl mühafizə polisindən təhvil-təslim aktı əsasında  səsvermə otağında saxlanılan elektron aparatlarını, seçki sənədlərini və inventarları qəbul edir.

Seçki məntəqəsi açıldıqdan sonra səsvermə prosesi başlamazdan əvvəl məntəqə seçki komissiyası müvafiq prosedurları ardıcıl olaraq həyata keçirir:



Saat 06:45
Seçki məntəqəsinin açılması
Qeydlər kitabının açılması

Seçki məntəqəsində olmaq hüququ olan şəxslərin qeydiyyatı

Komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsi nəticələrinin qeydlər kitabında əks etdirilməsi



Kəmiyyət məlumatlarının elanı: seçki bülletenlərinin və xüsusi çərçivə zərflərinin sayı, siyahılardakı seçicilərin sayı

Seçici verifikasiya aparatlarında verifikasiya prosesinin açılması

Seçki qutularının möhürlənməsi, xüsusi səs sayma aparatlarının quraşdırılması



Səsvermə prosesinin xüsusi səs sayma aparatlarında açılması

Seçki sənədlərinin və inventarların komissiya üzvlərinə funksiyalarına uyğun olaraq verilməsi

Saat 8:00
Səsvermənin başlanması

## Seçki məntəqəsinin açılışı

Seçki məntəqəsi saat 06:45-də açılır. Məntəqə seçki komissiyasının üzvləri seçki məntəqəsinə vaxtında gəlməyə borcludurlar. Komissiya ən azı 9 üzvü iştirak edərsə, səsvermə üçün hazırlıq prosedurlarına başlamaq səlahiyyətinə malikdir.

> Məntəqə seçki komissiyasının üzvlərinin sayı doqquz nəfərdən az olduqda, bu barədə məlumat dərhal Dairə Seçki Komissiyasına verilir. Məntəqə seçki komissiyası yuxarı seçki komissiyasının qərarına əsasən hərəkət edir.

Məntəqə seçki komissiyasının katibi qeydlər kitabını açır və birinci səhifəyə seçki məntəqəsi açılan zaman seçki binasında olan komissiyanın bütün üzvlərinin adlarını və soyadlarını (onları seçən/təyin edən subyektləri göstərməklə) daxil edir. Komissiya üzvləri qeydlər kitabında qeydiyyata alındıqlarını imzalamaqla təsdiq edirlər.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

**№ 112 საარჩევნო ოლქი** **№112.07** **საარჩევნო უბანი**

**საარჩევნო უბნის გახსნისას კენჭისყრის შენობაში ყოფნის უფლების მქონე პირები**

| № | სახელი, გვარი | სტატუსი | წარმდგენის დასახელება | ხელმოწერა |
|---|---|---|---|---|
| 1 | ნინო ნინოშვილი | თავმჯდომარე | საოლქო საარჩევნო კომისია | ნ. ნინოშვილი |
| 2 | გიორგი გიორგაძე | მოადგილე | საოლქო საარჩევნო კომისია | გ. გიორგაძე |
| 3 | დავით დავითულიანი | მდივანი | საოლქო საარჩევნო კომისია | დ. დავითულიანი |
| 4 | ანა ანაშვილი | კომისიის წევრი | საოლქო საარჩევნო კომისია | ა. ანაშვილი |
| 5 | სალომე სოლომონიძე | კომისიის წევრი | პოლიტიკური პარტია 111 | ს. სოლომონიძე |
| 6 | ლიონ ლიონიშვილი | კომისიის წევრი | პოლიტიკური პარტია 112 | ლ. ლიონიშვილი |
| 7 | მელა მელაშვილი | კომისიის წევრი | პოლიტიკური პარტია 113 | მ. მელაშვილი |
| 8 | სვენ ფასტერდინგი | საერთ. დამკვირვებელი | საერთაშორისო ორგანიზაცია | s. fasterding |
| 9 | ცოცნე დეკლარიანი | მედია | ტელევიზია „ნათელი მზერა" | ც. დეკლარიანი |
| 10 | გიორგი ჭერიძე | ადგილ. დამკვირვებელი | ააიპ „მომავლის იმედი" | გ. ჭერიძე |
| 11 | ნუცა ყორცაძე | სუბიექტის წარმომადგენელი | პოლიტიკური პარტია 119 | ნ. ყორცაძე |

Səsvermə günü ərzində komissiyanın bütün üzvü xüsusi forma ilə təchiz edilməli, şəxsiyyətini və statusunu göstərən döş nişanı taxmalıdırlar.

## Səsvermə binasında olmaq hüququ olan şəxslərin səsvermə binasına buraxılması və onların hüquqi vəziyyəti

Seçki məntəqəsi açıldıqdan dərhal sonra səsvermə binasında məntəqə seçki komissiyasının üzvlərindən başqa aşağıdakılar ola bilər:

- ✔ MSK və müvafiq dairə seçki komissiyasının üzvləri/nümayəndələri;
- ✔ Qeydiyyatdan keçmiş yerli müşahidə təşkilatlarının müşahidəçiləri (bir təşkilatın eyni vaxtda seçki məntəqəsində birdən çox olmayan müşahidəçisinin olma hüququ vardır);
- ✔ Seçki subyektlərinin nümayəndələri (bir seçki subyektinin eyni vaxtda seçki məntəqəsində birdən çox olmayan nümayəndəsinin olmaı hüququ vardır).

> Müşahidəçinin, seçki subyektinin nümayəndəsinin, habelə kütləvi informasiya vasitələrinin nümayəndəsinin səsvermə günü istənilən vaxt təqdim edən təşkilatın qeydə alınmış başqa nümayəndəsi ilə əvəz edilməsi hüququ vardır.

Səsvermə binasında olmaq hüququ olan şəxslər səsvermə günü səsvermə binasında yalnız şəxsiyyət vəsiqəsi ilə birlikdə etibarlı olan şəxsiyyətini və statusunu göstərən döş nişanı ilə olmalıdırlar.

Müşahidə təşkilatlarının müşahidəçiləri, akkreditə olunmuş mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndələri aşağıdakı hallarda səsvermə binasına buraxılırlar, əgər:

- ✔ döş nişanda statusa bütün səviyyəli seçki komissiyasına buraxılması göstərilibdir;
- ✔ döş nişanda statusa müvafiq dairə seçki komissiyasına və seçki dairəsinin ərazisindəki bütün seçki məntəqələrinə buraxılması göstərilibdir.

Seçki subyektlərinin nümayəndələrinin döş nişanındakı statusu müvafiq məntəqə seçki komissiyasına qəbul olunduğunu göstərdikdə, səsvermə binasına buraxılır.

Komissiyanın katibi döş nişanının verilmə tarixini və üzərində göstərilən statusu yoxlayır. Yoxlamanın nəticələrini nəzərə alaraq, komissiyanın katibi seçki məntəqəsində olmaq hüququ olan şəxslərin adını və soyadını qeydlər kitabının birinci səhifəsində, zəruri hallarda 2-ci və 10-cu səhifələrdə (onları təqdim edən təşkilat/seçki subyektlərini göstərməklə) qeyd edir. Qeyd olunan şəxslər qeydlər kitabında qeydiyyata alındıqlarını imzalamaqla təsdiq edirlər.

Seçki məntəqəsinə buraxılma şərtlərinə əməl edilmədikdə, komissiyanın katibi həmin şəxsə seçki məntəqəsini tərk etməsini bildirir.

*Döş nişanların nümunələri*



Seçki günü müşahidəçi və seçki subyektinin nümayəndəsi Gürcüstan Seçki Məcəlləsinin 41-ci maddəsi ilə müəyyən edilmiş səlahiyyətlərlə istifadə edir, o cümlədən səsvermə prosesinə müdaxilə etməməklə aşağıdakı hüquqa malikdirlər:

- səsvermə günü istənilən vaxt səsvermə binasında olmaq, seçki məntəqəsinin ərazisində məhdudluq olmadan hərəkət etmək və istənilən yerdən səsvermənin bütün mərhələlərini sərbəst müşahidə etmək;
- seçicidən əlində neçə seçki bülleteni və xüsusi çərçivə zərfin olduğunu göstərməsini xahiş etmək;
- daşınan seçki qutusu vasitəsilə səsvermə prosesini müşahidə etmək;
- seçki bülleteninin görünməsini təmin edən şəraitdə seçicilərin səslərinin hesablanmasını müşahidə etmək;
- məntəqə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsini müşahidə etmək.

> Məntəqə seçki komissiyası səsvermə binasında olmaq hüququ olan şəxslərin öz səlahiyyətlərini maneəsiz həyata keçirmələri üçün müvafiq şərait yaratmağa borcludur.

Müşahidəçi, seçki subyektinin nümayəndəsi, mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi “Gürcüstanın Seçki Məcəlləsi” Gürcüstanın Üzvi Qanunu ilə müəyyən edilmiş tələblərə əməl etməyə borcludurlar. Onların hüququ yoxdur:

- məntəqə seçki komissiyasının fəaliyyətinə müdaxilə etmək;
- seçicilərin iradəsini azad ifadə etməsinə təsir göstərmək;
- hər hansı seçki subyektinin rəmz və işarəsini daşımaq, seçiciləri hər hansı seçki subyektinin lehinə və ya əleyhinə təşviq etmək.

## Məntəqə seçki komissiyasının üzvləri arasında bölüşdürülmüş funksiyalar haqqında məlumatların qeydlər kitabında əks etdirilməsi

Seçicilərin səsvermə prosesində iştirakını təmin etmək üçün məntəqə seçki komissiyasının üzvləri səsvermə günü aşağıdakı funksiyaları yerinə yetirirlər:

- Seçicilərin axınının tənzimləyicisi;
- Seçicilərin qeydiyyatçısı;
- Seçki qutusunun və xüsusi elektron səs sayma aparatının nəzarətçisi;
- Daşınası seçki qutusunu götürən.

> Məntəqə seçki komissiyası sədrinin müavini seçki qutusuna və xüsusi elektron səs sayma aparatına nəzarət edən komissiyanın üzvü funksiyasını yerinə yetirir (funksiya komissiyanın digər üzvünə də həvalə edilə bilər).

Komissiyanın katibi funksiyaların bölüşdürülməsi üçün səsvermə gününə qədər keçirilmiş püşkatmanın nəticələrinə dair aktda öz əksini tapmış komissiya üzvləri arasında funksiyaların bölgüsünün nəticələrini qeydlər kitabının 3-cü səhifəsinə daxil edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

| № | კომისიის/სპეცჯგუფის წევრის ფუნქცია | კომისიის/სპეცჯგუფის წევრის სახელი, გვარი | კომისიის/სპეცჯგუფის წევრის ხელმოწერა |
|---|---|---|---|
| 1. | I გადასატანი საარჩევნო ყუთის წამღები | დოდო დოლიძე | დ. დოლიძე |
| 2. | I გადასატანი საარჩევნო ყუთის წამღები | თამარ თათულაშვილი | თ. თათულაშვილი |
| 3. | II გადასატანი საარჩევნო ყუთის წამღები | ცაცო ცაცურაშვილი | ც. ცაცურაშვილი |
| 4. | II გადასატანი საარჩევნო ყუთის წამღები *(სპეცჯგუფი)* | ჯილდა გაბაიძე | ჯ. გაბაიძე |
| 5. | II გადასატანი საარჩევნო ყუთის წამღები *(სპეცჯგუფი)* | ვიოლა აბაშიძე | ვ. აბაშიძე |
| 6. | ამომრჩეველთა ნაკადის მომწესრიგებელი | ნიკოლოზ აბაშიძე | ნ. აბაშიძე |
| 7. | I რეგისტრატორი | ინა ინაშვილი | ი. ინაშვილი |
| 8. | II რეგისტრატორი | ლალი ლალიაშვილი | ლ. ლალიაშვილი |
| 9. | III რეგისტრატორი | დავით დავითაძე | დ. დავითაძე |
| 10. | IV რეგისტრატორი | ნიკოლოზ ნიკვაშვილი | ნ. ნიკვაშვილი |

Komissiya üzvünə həvalə edilmiş funksiya yalnız məntəqə seçki komissiyası sədrinin icazəsi ilə müvəqqəti olaraq başqa üzvə verilə bilər. Komissiyanın katibi qeydlər kitabının 5-ci səhifəsində vaxtı göstərməklə funksiyanın ötürülməsini qeyd edir. Komissiya üzvü funksiyanın ötürülməsi faktını imzası ilə təsdiq edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი № 112.07 საარჩევნო უბანი

საუბნო საარჩევნო კომისიის წევრთა შორის წილისყრით დადგენილ ფუნქციათა დროებით სხვა წევრზე გადაცემის შესახებ ინფორმაცია

| № | კომისიის წევრის სახელი, გვარი | კომისიის წევრის ფუნქცია | ფუნქციის დროებითი შემსრულებელი კომისიის წევრის სახელი, გვარი | ფუნქციის დროებით გადაცემის დრო (სთ. წთ.) | ფუნქციის დაბრუნე-ბის დრო (სთ. წთ.) | ხელმოწერა |
|---|---|---|---|---|---|---|
| 1 | ლალი ლალიაშვილი | რეგისტრატორი | ნანა ნანიაშვილი | 19:45 | 20:00 | ლ. ლალიაშვილი |

## Risklərin qarşısının alınması:

- ✔ Seçicilərin qeydiyyatçısı komissiyasının üzvü səsvermə günü gəlmədikdə, məntəqə seçki komissiyasının sədri bu funksiyanı yerinə yetirmək üçün komissiyanın digər üzvünə tapşırır. Zəruri hallarda o, bu funksiyanı axının tənzimləyicisi funksiyası həvalə edilmiş komissiya üzvünə həvalə etmək səlahiyyətinə malikdir. Belə halda məntəqə seçki komissiyasının sədri seçicilərin axınını tənzimləyicisi komissiya üzvünün funksiyasını özü yerinə yetirəcək. Qeydiyyatçı funksiyasını komissiyanın digər üzvünə həvalə etmək mümkün olmadıqda, komissiyanın sədri seçicilərin qeydiyyatçısının sayını azaldır.
- ✔ Daşınan seçki qutusunu götürən komissiyanın üzvü səsvermə gününə gəlmədikdə və ya daşınan seçki qutusunu götürən komissiyanın üzvü ona həvalə edilmiş funksiyanı yerinə yetirməkdən imtina etdikdə, bu halda məntəqə seçki komissiyasının sədri daşınan seçki qutusunu götürən komissiyas üzvünün funksiyasını komissiyanın digər üzvünə həvalə edir.
- ✔ Seçicilərin axınını tənzimləyicisi komissiya üzvü səsvermə gününə gəlmədikdə, bu halda məntəqə seçki komissiyasının sədri funksiyanı yerinə yetirmək üçün komissiyanın digər üzvünə həvalə edir. Bu mümkün olmadıqda, komissiyanın sədri seçicilərin axınını tənzimləyicisi komissiya üzvü funksiyasını özü həyata keçirir.

Seçki məntəqəsinə gec gələn komissiya üzvünə funksiyanın həvalə edilməsi məsələsini məntəqə seçki komissiyasının sədri həll edir.

## Kəmiyyət məlumatlarının elanı

Məntəqə seçki komissiyasının üzvləri arasında funksiyaların bölüşdürülməsinin nəticələri qeydlər kitabına daxil edildikdən sonra komissiyanın sədri komissiyanın xüsusi möhürü ilə möhürlənmiş paketi açır. Komissiyanın katibi qeydlər kitabının 9-cu səhifəsində komissiyanın xüsusi möhürünün nömrəsini göstərir. Komissiyanın sədri qəbul edilmiş seçki bülletenlərin və xüsusi çərçivə zərflərin sayını, habelə seçicilərin sayını vahid siyahı, xüsusi siyahı və daşınan seçki qutusunun siyahısı (əgər varsa) üzrə elan edir.

Komissiyanın katibi xüsusi çərçivə zərflərinin sayı istisna olmaqla, qeyd olunan məlumatları səsvermənin nəticələrinin nümayişi protokoluna və qeydlər kitabına daxil edir.

| |
|---|
| Xüsusi siyahıda seçicilərin sayı səsvermə başa çatdıqdan sonra səsvermənin nəticələrinin nümayişi protokoluna və qeydlər kitabına daxil edilir. |

## Seçici verifikasiya aparatlarında verifikasiya prosesinin açılması

Komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququ olan şəxslərin iştirakı ilə məntəqə seçki komissiyasının sədri:

- ✔ seçicilərin verifikasiya aparatlarında yüklənmiş proqramı aktivləşdirir;
- ✔ fərdi kod/paroldan istifadə edərək aparatlarda verifikasiya prosesini açır;
- ✔ aktivləşdirilmiş aparatlar arasında əlaqənin (sinxronizasiya) mövcudluğunu yoxlayır

| |
|---|
| Aparatlarda verifikasiya prosesinin açılış mərhələlərinin təsviri N1 sxemdə təqdim olunur |

Aparatlarda verifikasiya prosesini açdıqdan sonra:

- ✔ ilkin hesabat avtomatik olaraq aparatlardan çap olunur və bununla da heç bir seçicinin aparatlar vasitəsilə verifikasiya olmaması təsdiqlənir (qəbizləri məntəqə seçki komissiyasının katibi saxlayır);
- ✔ məntəqə seçki komissiyası sədrinin tapşırığına əsasən seçici qeydiyyatçılarından biri verifikasiya aparatından seçicilərin siyahısını çap edir (komissiyanın katibi siyahını nümayiş protokolu ilə birlikdə seçki binasında görünən yerə asır).

| |
|---|
| Məntəqə seçki komissiyasının sədr müavini prosesə paralel olaraq elektron vasitələrdən istifadə etməklə keçirilən səsvermənin auditinin təsdiqi formasında müvafiq qeydlər aparır. |

*Sxem N1. Aparatlarda verifikasiya prosesinin açılış mərhələlərinin təsviri*




{I}

Komissiya sədri düyməni basmaqla aparatlara yüklənmiş proqramı aktivləşdirir.




{II}

Proqram aparata yüklənməyə başlayır və bu bir neçə saniyə davam edir.




{III}

Komissiya sədri verifikasiya prosesini açmaq üçün aparatlara fərdi kod/parol daxil edir.
Aparatlar arasında sinxronizasiya olması nişanların yaşıl rəngi ilə təsdiqlənir. Rəqəm simvolu qoşulmuş aparatların sayını göstərir.




{IV}

"Verifikasiyanı aç" düyməsini basmaqla komissiya sədri aparatlarda verifikasiya prosesini açır.
Açılışı təsdiqləmək üçün komissiyanın sədri fərdi kodu/parolu təkrar daxil edir.




{V}

Verifikasiya prosesi açılan kimi ilkin hesabat avtomatik olaraq aparatlardan çap olunur.




{VI}

Komissiyanın sədri "yaxşı" düyməsini basmaqla səsvermə prosesinin açılmasını təsdiq edir.

*Sxem N2. Seçicilərin siyahısının aparatdan çap olma prosesinin təsviri*




{I}

Seçici siyahısının çap etmə menyusuna daxil olmaq üçün qeydiyyatçı "Menyuya qayıt" düyməsini basır.




{II}

Menyuda qeydiyyatçı "Seçicilərin siyahısı" düyməsini basır.

**ამომრჩეველთა სია**




{III}

Qeydiyyatçı "Çap et" düyməsini basır və nəticədə seçicilərin siyahısı çap olunur.

**ბეჭდვა**

## Seçki qutularının möhürlənməsi və xüsusi səs sayma aparatlarında səsvermə prosesinin açılması

Səsvermə binasında olmaq hüququ olan şəxslərin iştirakı ilə məntəqə seçki komissiyasının sədri:

- ✔ əsas/daşınan seçki qutularını yoxlayır və seçki qutularının boş olduğunu təsdiq etdikdən sonra əsas seçki qutularında xüsusi elektron səs sayma aparatlarını quraşdırır;
- ✔ əsas/daşınan seçki qutularını fərdi nömrəsi olan möhürlərlə möhürləyir (əsas seçki qutuları elə möhürlənir ki, möhürü zədələmədən onların üzərində quraşdırılmış xüsusi səs sayma aparatlarını çıxarmaq, seçki qutularında seçki bülletenləri əl ilə yerləşdirmək və/və ya çıxarmaq mümkün olmasın);
- ✔ möhürləndikdən sonra xüsusi açardan istifadə edərək, xüsusi səs sayma aparatlarında yüklənmiş proqramı aktivləşdirir;
- ✔ fərdi kod/paroldan istifadə edərək aparatlarda səsvermə prosesini açır.

Aparatlarda səsvermə prosesi açıldıqdan sonra avtomatik olaraq aparatlardan "sıfır çıxarış" çap olunur ki, bu da heç bir seçicinin aparatlarla səs vermədiyini sübut edir (komissiyanın sədri və komissiyanın katibi çap edilmiş qəbzləri imzalayır, onları komissiyanın katibi saxlayır).

*Sxem N3. Xüsusi səs sayma aparatlarında səsvermə prosesinin açılması və aparatlardan "sıfır çıxarışların" çapı prosesinin təsviri*




{I}

Komissiya sədri aparatların gövdəsindəki yarığa xüsusi açar qoyaraq aparatlara yüklənmiş proqramı aktivləşdirir.




{II}

Proqram aparatlarda yüklənməyə başlayır, bir neçə saniyə davam edir.




{III}

Komissiya sədri səsvermə prosesini açmaq üçün aparatların ekranında "Sədr" düyməsini seçir.

**თავმჯდომარე**




{IV}

Komissiya sədri aparatlara fərdi kod/parol daxil edir.




{V}

Komissiya sədri aparatların ekranında "səsvermənin açılışı" seçir, açılışı təsdiqləmək üçün fərdi kodu/parolu təkrar daxil edir.

**კენჭისყრის გახსნა**




{VI}

Səsvermə açılan kimi aparatlardan avtomatik olaraq “sıfır çıxarış” çap olunur.




{VII}

Komissiyanın sədri “Səsverməyə başla” düyməsini basmaqla səsvermə prosesinin açılışını təsdiq edir.

**კენჭისყრის დაწყება**

Məntəqə seçki komissiyasının sədri “sıfır çıxarış” çap etdikdən sonra, səslərin sayma aparatları naməlum nümunəli seçki bülletenini qəbul edib-etməsini yoxlamaq üçün xüsusi ştrix-kod və fərdi QR-kodu olmayan seçki bülleteni formatında olan kağızı səslərin sayma aparatlarına yerləşdirir.

Komissiyanın katibi seçki qutularının fərdi möhürlərinin nömrələrini və möhürlənmənin dəqiq vaxtını qeydlər kitabının 4-cü səhifəsində qeyd edir. Həmin səhifədə komissiyanın sədri və komissiyanın katibi boş seçki qutularının möhürlənməsini və heç bir seçicinin xüsusi səs sayma aparatları vasitəsilə səs verməməsi barədə məlumatı öz imzaları ilə təsdiq edirlər.

*Qeydlər kitabını müvafiq səhifəsinin nümunəsi*

| საარჩევნო ყუთების დალუქვის მონაცემები | | |
|---|---|---|
| საარჩევნო ყუთების დალუქვის დრო | 07 სთ. 30 წთ. | |
| I ძირითადი საარჩევნო ყუთის ლუქების ნომრები | 1234567 1234569<br>1234568 1234562 | 1234560 |
| II ძირითადი საარჩევნო ყუთის ლუქების ნომრები | 1244567 6234569<br>1434568 4234562 | 1254460 |
| I გადასატანი საარჩევნო ყუთის ლუქების ნომრები | 123456 153456 | |
| II გადასატანი საარჩევნო ყუთის ლუქების ნომრები | 123476 153476 | |
| *დალუქული ყუთები ცარიელია და დალუქვის მომენტისათვის ხმის მიცემის აპარატის საშუალებით არცერთ ამომრჩეველს არ მიუცია ხმა* | | |
| კომისიის თავმჯდომარე [signature] ხელმოწერა | კომისიის მდივანი [signature] ხელმოწერა | |

Məntəqə seçki komissiyasının sədr müavini proseslə paralel olaraq auditin təsdiqi formasında müvafiq qeydlər aparır.

## Seçki sənədlərinin və seçki materiallarının məntəqə seçki komissiyasının üzvlərinə verilməsi

Məntəqə seçki komissiyasının sədri səsvermə prosesində yerinə yetiriləcək funksiyalara uyğun olaraq seçki sənədlərini və materiallarını komissiya üzvlərinə təhvil verir.

Axının tənzimləyicisi komissiya üzvünə işarələnməni yoxlamaq üçün ultrabənövşəyi lampa, seçici qeydiyyatçısı komissiyasının hər bir üzvünə isə verilir:

- ✔ 50 seçki bülleteni (qeydiyyatçı qablaşdırmada olan seçki bülletenlərinin sayının düzgünlüyünü yoxlayır və komissiyanın sədri ilə birlikdə qəbul və təhvil-təslim aktını imzalamaqla təsdiq edir);
- ✔ seçki bülleteni doldurulması üçün xüsusi marker (seçiciyə seçki bülleteninin doldurulması qaydasının izah edilməsi prosesində seçici tərəfindən seçki bülletenindəki yoxlama dairəsini rəngləmək üçün);
- ✔ səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfləri;
- ✔ işarələnmə mayesi;
- ✔ yazı qələmi (verifikasiya aparatından çap edilmiş seçicinin verifikasiya qəbzinə seçici tərəfindən imzasını təsdiq etməsi üçün);
- ✔ seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf qutu (qutunu təhvil verməzdən əvvəl komissiyanın sədri qeyd olunan qutunun üzərinə fərdi nömrəli möhürlə möhürləyir, komissiyanın katibi isə möhürlərin fərdi nömrələrini, qutular verilmiş qeydiyyatçıların məlumatlarını (adı, soyadı) qeydlər kitabına daxil edir. Qutuların alınmasını müvafiq qeydiyyatçı imzası ilə təsdiq edir).

*Qeydlər kitabını müvafiq səhifəsinin nümunəsi*

| ვერიფიკაციის აპარატიდან ამობეჭდილი ამომრჩევლების ვერიფიკაციის დამადასტურებელი ქვითრების მოსათავსებლად განკუთვნილი ყუთის/ყუთების დალუქვის მონაცემები/ყუთის მიღების დადასტურება | | | |
|---|---|---|---|
| კომისიის წევრის ფუნქცია | ლუქების ნომრები | სახელი და გვარი | ხელმოწერა |
| I რეგისტრატორი | 121212 121215 | ნიკოლოზ ნიკვაშვილი | ნ. ნიკვაშვილი |
| II რეგისტრატორი | 121113 121116 | ზვიად ზვიადაძე | ზ. ზვიადაძე |
| III რეგისტრატორი | 111214 111217 | სალომე სოლომონიძე | ს. სოლომონიძე |
| IV რეგისტრატორი | 721215 221215 | თიინ თოინიშვილი | თ. თოინიშვილი |
| V რეგისტრატორი | | | |

## Biliyin özünüqiymətləndirməsi üçün suallar

1. Seçki məntəqəsi saat neçədə açılır?
2. Səsvermə günü qeydlər kitabının aparılmasına kim cavabdehdir?
3. Seçki məntəqəsində olmaq hüququ olan şəxsləri sadalayın, onlar seçki məntəqəsinə buraxılmaq üçün hansı tələblərə cavab verməlidirlər?
4. Səsvermə günü səsvermə binasında olmaq hüququ olan şəxslərin hansı hüquqları var və nəyə hüquqları yoxdur?
5. Seçki qutusunun və xüsusi elektron səs sayma aparatının nəzarətçisi funksiyasını kim həyata keçirir?
6. Məntəqə seçki komissiyasının katibi seçki qutuları möhürləndikdən sonra səsvermə gününün qeydlər kitabına hansı məlumatları daxil edir?
7. Seçicilərin verifikasiyası və səslərin sayılması üçün xüsusi elektron aparatların aktivləşdirilməsinə kim cavabdehdir və hansı prosedurlara riayət etməklə davam edir:
   - ✔ verifikasiya aparatlarında seçicinin verifikasiya prosesini açılışı?
   - ✔ xüsusi elektron səs sayma aparatlarında səsvermə prosesinin açılışı?
8. Seçiciləri verifikasiya aparatlarından çap edilmiş ilkin hesabat hansı məlumatları təsdiq edir?
9. Xüsusi elektron səs sayma aparatlarından çap edilmiş “sıfır çıxarış” hansı məlumatı təsdiq edir?

# 04
# Məntəqə seçki komissiyası səsvermə prosesində seçiciyə necə xidmət göstərir

Məntəqə seçki komissiyasının bütün üzvləri səsvermə günü hər bir seçiciyə kvalifikasiyalı xidmət göstərməyə cavabdehdirlər, buda aşağıdakını nəzərdə tutur

- funksiyaların hərtərəfli icrası
- seçicilərlə etik ünsiyyət
- seçicilərə səsvermə prosedurunun izahı
- seçicinin səsvermə prosesində maneəsiz iştirakının təşviqi
- seçicilərin səsvermə gizliliyinin qorunması

## Səsvermə prosesi

Səsvermə səsvermə günü (26 oktyabr) saat 08:00-dan 20:00-dək keçirilir. Səsvermə proseduru müəyyən edilmiş ardıcıllığa riayət etməklə həyata keçirilir.

**I. Səsvermə otağına daxil olarkən seçici axının tənzimləyicisinin yanında işarələnmə prosedurundan keçir.**



Axının tənzimləyicisi komissiyasının üzvü:
✔ səsvermə binasına daxil olan seçicilərin axınını tənzimləyir;
✔ seçicidən şəxsiyyəti təsdiq edən sənədi (Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsi, Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi və ya Gürcüstan vətəndaşının pasportu) təqdim etməyi xahiş edir;
✔ ultrabənövşəyi lampa ilə seçicinin əlində işarənin olub-olmamasını yoxlayır.

Yoxlamanın nəticələrini nəzərə alaraq:

✔ işarələnmənin yoxlanılması üçün xüsusi alət seçicidə artıq işarələnmənin olduğunu aşkar edərsə, onun səsvermədə iştirakı qadağan edilir. Axının tənzimləyicisi seçicinin səsvermə otağına daxil olmaqdan imtina etməsini izah edir və seçici haqqında məlumatı qeydlər kitabına daxil edilməsi üçün komissiyanın katibinə bildirir.

✔ əgər seçici səsvermədə iştirak tələblərinə cavab verirsə, axının tənzimləyicisi seçicini ikidən çox seçici olmayan hər hansı bir qeydiyyatçı komissiyasının masasına yaxınlaşmasını istiqamətləndirir.

**II. Seçicilərin qeydiyyatçısı komissiyasının üzvü seçiciyə verifikasiya aparatından istifadə etməklə qeydiyyat və sonra seçki bülletenini verilməsi xidmətini göstərir.**

Qeydiyyatçı tərəfindən seçicilərin qeydiyyatı prosesinə aşağıdakı komponentlər daxildir:

✔ verifikasiya aparatında seçicinin məlumatlarının axtarışı və aparatda yüklənmiş seçicilərin siyahısındakı mövcud olan məlumatların uyğunluğunun təsdiqlənməsi;

✔ seçicinin işarələnməsi;

✔ verifikasiya aparatından seçicinin verifikasiyasını təsdiq edən qəbzin çapı və qəbzdə seçicinin imzası.

**Seçicinin qeydiyyatı prosedurunun təsviri.** Qeydiyyatçı seçicidən şəxsiyyətini təsdiq edən sənədi təqdim etməyi xahiş edir. Qeydiyyatçı şəxsiyyəti təsdiq edən sənədin etibarlılıq müddətini, Gürcüstan vətəndaşının elektron olmayan şəxsiyyət vəsiqəsi olduqda isə sənədin verilmə tarixini yoxlayır.

> Seçici müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının etibarsız hesab edilən qeyri-elektron qerşəxsiyyət vəsiqəsini təqdim etdikdə (27 iyul 2011-ci il tarixinədək verilmiş qeyri-elektron şəxsiyyət vəsiqəsi etibarsızdır) ona səsvermədə iştirak etmək qadağan olunur. Qeydiyyatçı seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edir və onun şəxsiyyəti təsdiq edən etibarlı sənəd təqdim etdiyi halda səsvermədə iştirakına icazə veriləcəyini bildirir.

Sənədin etibarlılıq müddətini yoxladıqdan sonar qeydiyyatçı təqdim edilmiş sənəddə seçicinin siması ilə fotoşəkil arasındakı uyğunluğu yoxlayır.

Qeydiyyatçı seçicinin təqdim etdiyi Gürcüstan vətəndaşının electron şəxsiyyət vəsiqəsini verifikasiya aparatının oxuyucusuna yerləşdirir. Seçici Gürcüstan vətəndaşının pasportunu və ya Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim edərsə, qeydiyyatçı seçicinin məlumatlarını aparatda əl ilə yoxlayır.



*Verifikasiya aparatının oxuyucusu ilə seçici məlumatlarının axtarışının təsviri*

*Verifikasiya aparatında seçicinin məlumatlarının əl ilə axtarışının təsviri*




Verifikasiya aparatı şəxsiyyət vəsiqəsindəki qeydiyyat məlumatlarını aparatda yüklənmiş seçicilərin siyahısında mövcud olan məlumatlarla müqayisə edir və uyğunluq olduqda, aparat seçicinin məlumatlarını ekranda göstərir.




*Qeydiyyat məlumatlarının uyğunluğu təsdiq edildikdə, siyahıda qeydə alınmış seçici haqqında məlumatın verifikasiya aparatının ekranında əks olunmasının təsviri*

Əgər verifikasiya aparatı tərəfindən seçici məlumatlarının uyğunluğu yoxlanılarkən, təqdim edilmiş sənəddəki (şəkildən başqa) seçicinin qeydiyyatı məlumatlarının seçicinin verifikasiya aparatına yüklənmiş seçicilərin siyahısındakı məlumatlara uyğundursa, lakin qeydiyyatçı seçicinin üzünü və təqdim edilmiş sənəddəki fotoşəklin bir-biri ilə uyğun gəlmədiyi aşkar edərsə, o məntəqə seçki komissiyasının sədrinə müraciət edir, hansı ki, aşağıda göstərilən prosedura əməl etdikdən sonra seçiciyə səsvermədə iştirak etmək hüququ verir.

Əgər komissiyanın sədri uyğunsuzluğu təsdiq edərsə, komissiyanın katibi qeydlər kitabında qeydlər aparır və orada uyğunsuzluq faktını, seçicinin adı və soyadını, onun seçicilər siyahısındakı sıra nömrəsini qeyd edir. Qeyd komissiyanın sədrinin və komissiyanın katibinin imzaları ilə təsdiq edilir.

Əgər komissiyanın sədri uyğunsuzluğu təsdiq etmədikdə, qeydiyyatçı öz xüsusi rəyini qeydlər kitabına daxil etmək hüququna malikdir.

Göstərilən hallarda komissiyanın katibi seçicinin təqdim etdiyi sənədin surətini öz imzası ilə təsdiqləyərək qeydlər kitabına əlavə edir.



Verifikasiya aparatı tərəfindən seçici məlumatlarının uyğunluğu təsdiq olunarsa, qeydiyyatçı seçicinin sağ əlinin baş barmağının və ya şəhadət barmağının dırnağında (göstərilən hərəkət mümkün olmadıqda - sağ əlin digər barmaqlarında, əgər bu da mümkün deyilsə eyni şəkildə sol tərəfdə) işarələndirmə edir.

İşarələnmə prosedurundan keçməkdən imtina edildikdə, seçicinin səsvermədə iştirak etmək hüququ yoxdur və qeydiyyatçı ona seçki məntəqəsini tərk etməyi izah edir.

Seçicinin işarələnməsi prosedurundan sonra qeydiyyatçı verifikasiya aparatından seçicinin verifikasiyasını təsdiq edən qəbzi çap edir, hansını ki, seçiçi imzalayır. Qeydiyyatçı qəbzi qeydiyyat masasının üzərindəki qeyri-şəffaf möhürlənmiş qutuya qoyur.



*Seçicinin verifikasiyasını təsdiq edən qəbzin çapı*



*Qəbzdə seçici tərəfindən atılan imza*



*Qəbzin qeyri-şəffaf möhürlənmiş qutuya qoyulması*

Seçicinin verifikasiya qəbzi verifikasiya aparatından çap edilmədikdə və ya texniki xəta ilə çap olunduqda seçici verifikasiya qəbzinin əvəzinə seçicinin verifikasiyasını təsdiq edən aktı imzalayır, onun forması komissiyanın katibi doldurur. Qeydiyyatçı seçicinin imzaladığı aktı verifikasiyanı təsdiq edən qəbzləri üçün nəzərdə tutulmuş qutuya qoyur. Komissiyanın katibi müvafiq seçicinin şəxsiyyətini təsdiq edən sənədin surətini qeydlər kitabına əlavə edir.

Verifikasiya aparatında seçici haqqında məlumat tapılmadıqda, komissiya imkan daxilində seçiciyə qeydiyyatda olduğu seçki məntəqəsi haqqında məlumat tapmağa kömək edir.

**Seçicilərin qeydiyyatı prosesində risklərin qarşısının alınması.**

{I} Verifikasiya aparatı səsvermə binasında səs vermək üçün gələn seçicinin daşınan seçki qutularının siyahısına daxil edildiyini müəyyən etdikdə aparatın ekranında müvafiq məlumat göstərilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Qeydiyyatçı seçiciyə izahat edir ki, müraciətə uyğun olaraq seçici üçün daşınan seçki qutusu ilə səsvermə xidməti göstərilir.




*Daşınan seçki qutusunun siyahısına daxil edilmiş seçici haqqında məlumatın verifikasiya aparatının ekranında əks olunmasının illüstrasiyası*

{II} Verifikasiya aparatı səsvermə binasında səs vermək üçün gələn seçicinin başqa seçki məntəqəsi üzrə xüsusi siyahıya daxil edildiyini aşkar etdikdə, aparatın ekranında müvafiq məlumat əks etdirilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Qeydiyyatçı seçiciyə izah edir ki, səsvermədə iştirak etmək üçün o, müvafiq seçki məntəqəsinə getməlidir. Qeydiyyatçı verifikasiya aparatının ekranında göstərilən məlumat əsasında seçiciyə məntəqənin nömrəsini və ünvanını təqdim edir.




*Digər məntəqə üçün nəzərdə tutulmuş xüsusi siyahıya daxil edilmiş seçici haqqında məlumatın verifikasiya aparatının ekranında əks olunmasının təsviri*

{III} Verifikasiya aparatı seçki məntəqəsində səs vermək üçün gələn seçicinin artıq bu məntəqədə verifikasiya olunduğu müəyyən etdikdə aparatın ekranında müvafiq məlumat göstərilir, eyni zamanda aparat səs siqnalı verir. Seçicinin seçki məntəqəsində səs verməsi qadağan ediləcək. Qeydiyyatçı seçiciyə seçki məntəqəsini tərk etməyi izah edir.




*Verifikasiya aparatının ekranında ikiqat verifikasiya cəhdi haqqında məlumatın təsviri*

**Seçicilərə seçki bülletenlərinin verilməsi qaydası.** Qeydiyyatçı seçicilərin qeydiyyatı prosedurunu başa vurduqdan sonra seçiciyə seçki bülletenini necə doldurmağı və xüsusi çərçivə zərfindən istifadə etməyi izah edir.

*“Səs vermək üçün bülletendə istədiyniz yalnız bir subyektin qarşısındakı dairəni rəngləyin. Seçki bülleteni qatlamayın və seçimi gizlətmək üçün doldurulmuş bülleteni xüsusi çərçivə zərfinə qoyun”.*

Qeydiyyatçı seçki bülleteni doldurduqdan və xüsusi çərçivə zərfindən istifadə qaydalarını izah etdikdən sonra seçki bülletenini seçki subyektlərinin siyahısını tam örtülməsi  üçün xüsusi çərçivə zərfinə yerləşdirir.

Qeydiyyatçı seçiciyə xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülleteninin yuxarı tərəfindəki sınaq dairəsini rəngləməyi tapşırır.



*Xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülleteninin yuxarı tərəfində yerləşən sınaq dairəsi*

Seçki bülleteninin üzərindəki sınaq dairəsini rəngləedikdən sonra qeydiyyatçı seçiciyə xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülleteni verir və ona izah edir ki, seçki bülleteni xüsusi çərçivə zərfində səslərin sayılması üçün xüsusi elektron aparatına elə yerləşdirilməlidir ki, seçki bülleteninin tərəfi,harda ki, sınaq dairəsi yerləşdirilib aşağıda olsun. Bundan sonra qeydiyyatçı seçiciyə gizli səsvermə kabinəsinə keçməyi tapşırır.

**III.Seçici seçki bülleteni və səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfini aldıqdan sonra gizli səsvermə kabinəsinə daxil olur.**
Seçici xüsusi işarələnməni istifadə edərək seçki bülleteni doldurur və onu xüsusi çərçivə zərfinə qoyur.

Gizli səsvermə kabinəsində seçki bülleteni doldurularkən başqa şəxsin olması, foto və video çəkilişi qadağandır.

Seçki bülletenini təkbaşına doldura bilməyən seçici aşağıdakılar istisna olmaqla, seçki məntəqəsində olan istənilən şəxsi gizli səsvermə kabinəsində ona kömək etmək üçün dəvət etmək hüququna malikdir:
a) seçki komissiyasının üzvü;
b) namizədin;
c) seçki subyektinin nümayəndəsi;
d) müşahidəçi;
e) mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi.

Seçici seçki bülleteni və ya xüsusi çərçivə zərfini korlayıbsa, bu barədə komissiyanın sədrinə məlumat verməlidir. Komissiya sədrinin tapşırığı ilə qeydiyyatçı korlanmış seçki bülleteni/xüsusi çərçivə zərfini seçici üçün yenisi ilə əvəz etməyə borcludur.

Komissiyanın sədri seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə qatlayır ki, seçki subyektlərini görmək mümkün olmasın, bükülmüş seçki bülleteni metal bərkidici ilə bağlayır, küncünü kəsir, “korlanmış” yazır” və imzalayır. Komissiyanın sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

**IV. Seçici xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülleteni ilə əsas seçki qutusunun yanına gedir.**
Seçki qutusunun və xüsusi elektron səs sayma aparatının müşahidə komissiyasının üzvü seçiciyə bülletenin aparata qoyulması qaydasını izah edir:

*“Xüsusi çərçivə zərfin vasitəsilə seçki bülleteni aparata elə qoyun ki, bülletenin sınaq dairəsi olan tərəfi aşağı olsun.*
*Çərçivə zərfini yüngülcə saxlayın ki, aparat səs bülleteni asanlıqla qəbul edə bilsin. Aparatın ekranında “Səsiniz qəbul edildi” bildiriş görünənə qədər gözləyin və yalnız bundan sonra seçki məntəqəsini tərk edin”.*

Seçici seçki bülleteni xüsusi çərçivə zərfi vasitəsilə əsas seçki qutusunda quraşdırılmış aparata yerləşdirir. Seçici seçki bülleteni xüsusi çərçivə-zərf vasitəsilə aparata yerləşdirə bilmədikdə, ona seçki qutusunun və xüsusi elektron səs sayma aparatının müşahidə komissiyasının üzvü kömək edə bilər.



*Seçki bülleteninin xüsusi elektron səs sayma aparatında yerləşdirilməsi*




*Seçki bülletenin əsas seçki qutusuna qoyulmasını təsdiq edən bildiriş*

Xüsusi elektron səs sayma aparatı seçki bülleteni qəbul etmiyib geri qaytararsa, onu yenidən xüsusi elektron səs sayma aparatına yerləşdirmək mümkündür. Seçki bülleteni yenidən geri qaytarılarsa, o korlanmış hesab olunacaq. Komissiya sədrinin tapşırığı ilə qeydiyyatçı korlanmış seçki bülleteni yenisi ilə əvəz etməyə borcludur.

Komissiyanın sədri seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə qatlayır ki, seçki subyektlərini görmək mümkün olmasın, bükülmüş seçki bülleteni metal bağlayıcı ilə bərkidir, küncünü kəsir, “korlanmış” yazır. “ və imzalayır. Komissiyanın sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

Seçici seçki bülletenini əsas seçki qutusuna qoyduqdan sonra xüsusi çərçivə zərfi onun üçün nəzərdə tutulmuş masanın üzərinə qoyur və seçki məntəqəsini tərk edir. Seçicilərin qeydiyyatçısı komissiyasının üzvlərinə xüsusi çərçivə zərfləri verilir.

## Daşınan seçki qutusu ilə səsvermə prosesi

Daşınan seçki qutusu ilə səsvermə proseduru səsvermə günü saat 09:00-da başlayır və saat 19:00-da başa çatır. Daşınan seçki qutusu vasitəsilə səsvermə proseduru başa çatdıqdan sonra bülletenlərin seçki qutusuna salınması üçün yarığ dərhal möhürlənir. Daşınan seçki qutusu saat 20:00-dan gec olmayaraq seçki məntəqəsinə qaytarılmalıdır.

Səsvermə binasında olmaq hüququ olan şəxslər istədikləri təqdirdə daşınan seçki qutusu vasitəsilə səsvermənin gedişini müşahidə etmək hüququna malikdirlər. Daşınan seçki qutusu ilə səsvermə zamanı nəqliyyat vasitəsindən istifadə edildikdə, məntəqə seçki komissiyası səsvermə binasında olmaq hüququ olan şəxslər arasından püşkatma ilə müəyyən edilmiş 2 nəzarətçi üçün nəqliyyat vasitəsində yer ayırmağa borcludur.

Komissiyanın sədri daşınan seçki qutusunu götürən komissiya üzvlərinə (əgər varsa, xüsusi qrupun üzvlərinə) təhvil verəcək:

- ☐ möhürlənmiş daşınan seçki qutusunu;
- ☐ komissiya üçün nəzərdə tutulmuş daşınan seçki qutusu siyahısının versiyasını;
- ☐ tələb olunan sayda seçki bülletenlərini;
- ☐ seçki bülleteninin doldurulması üçün xüsusi markerlər;
- ☐ tələb olunan sayda xüsusi çərçivə zərfləri;
- ☐ metal bağlayıcılar (seçici seçki bülleteni xüsusi çərçivə zərfinə yerləşdirdikdən sonra çərçivə zərfi metal bağlayıcı ilə bərkidilir və daşınan seçki qutusuna yerləşdirilir);
- ☐ metal bərkidici (seçki bülleteni korlandıqda səsvermənin gizliliyini təmin etmək üçün istifadə olunur);
- ☐ işarələnməni yoxlamaq üçün ultrabənövşəyi lampa;
- ☐ işarələnmə mayesini;
- ☐ yazı qələmi (daşınan seçki qutusunun siyahısında seçicinin imzasının qeyd edilməsi məqsədilə);
- ☐ daşınan seçki qutusunun yarığının möhürü.

Komissiyanın katibi daşınan seçki qutusunu müşayiət edən komissiya üzvlərinə/xüsusi qrup üzvlərinə təhvil verilmiş seçki bülletenlərinin və xüsusi çərçivə zərflərinin sayını, habelə daşınan seçki qutunun seçki məntəqəsindən götürülmə vaxtını qeydlər kitabının 4-cü səhifəsində qeyd edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი
გადასატანი საარჩევნო ყუთის თანმხლები კომისიისა და სპეცჯგუფის წევრთათვის
გადაცემული საარჩევნო დოკუმენტაციის აღრიცხვა

| | დასახელება | რაოდენობა | | |
|---|---|---|---|---|
| | | I ყუთი | II ყუთი | III ყუთი |
| 1 | ამომრჩეველთა რაოდენობა გადასატანი საარჩევნო ყუთის სიაში | 35 | 15 | |
| 2 | გადაცემული ბიულეტენების რაოდენობა | 34 | 14 | |
| 3 | გადაცემული სპეციალური ჩარჩო-კონვერტების რაოდენობა | 35 | 15 | |
| 4 | გამოუყენებელი ბიულეტენების რაოდენობა | | | |
| 5 | *გადასატანი საარჩევნო ყუთის სიაში ხელმოწერების რაოდენობა* | | | |
| 6 | უბნიდან წაღების დრო | 09 სთ. 30 წთ. | 09 სთ. 30 წთ. | ___სთ. ___ წთ. |
| | უბანში დაბრუნების დრო | ___სთ. ___ წთ. | ___სთ. ___ წთ. | ___სთ. ___ წთ. |

Daşınan seçki qutusu ilə səsvermə proseduru müəyyən edilmiş ardıcıllıqla həyata keçirilir.

**I. Daşınan seçki qutusunu götürən komissiyanın üzvü/xüsusi qrupun üzvü seçicinin səsvermədə iştirakının əsasını yoxlayır.**

Daşınan seçki qutusunu götürən komissiyanın üzvü/xüsusi qrupun üzvü:

- seçicidən şəxsiyyəti təsdiq edən sənədi (Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsi,

Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi və ya Gürcüstan vətəndaşının pasportu) təqdim etməyi xahiş edir;

- şəxsiyyəti təsdiq edən sənədin qüvvədə olma müddətini yoxlayır;
- Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi təqdim edildikdə, sənədin verilmə tarix-ini yoxlayır;
- ultrabənövşəyi lampa ilə seçicinin əlində işarənin olub-olmamasını yoxlayır.

Yoxlamanın nəticələrini nəzərə alaraq:

- İşarələnmənin yoxlanılması üçün xüsusi cihaz seçicidə artıq işarənin olduğunu aşkar edərsə, ona səsvermədə iştirak etmək qadağan edilir. Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçiciyə səsvermədə iştirakdan imtinasının səbəbini izah edir. Faktla bağlı komissiya üzvü/xüsusi qrupun üzvü izahat (daşınan seçki qutusunun siyahısında seçicinin sıra nömrəsini, adı və soyadını göstərməklə) yazmalıdır. Sənədi daşınan seçki qutusunu götürən komissiya üzvləri/xüsusi qrupun üzvləri müşayiət edən şəxslər (mövcud olduqda) imzalayır.
- Seçici etibarlılıq müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının etibarsız hesab edilən qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim etdikdə (27 iyul 2011-ci il tarixinədək verilmiş qeyri-elektron vəsiqə etibarsızdır), ona səsvermədə iştirak etməsinə qadağan edilir. Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçiciyə səsvermədə iştirakdan imtina etməsinin səbəbini izah edir və onun şəxsiyyətini təsdiq edən etibarlı sənəd təqdim etdikdə səsvermədə iştirakına icazə veriləcəyini bildirir.
- Seçici müəyyən edilmiş tələblərə cavab verdikdə, daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçicinin qeydə alınması və seçki bülleteni verilməsi prosedurunu davam etdirir.

**II. Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçiciyə qeydə alınması və sonradan seçki bülleteninin verilməsi xidmətini göstərir.**

Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçicinin təqdim etdiyi sənədə daxil edilmiş seçici qeydiyyatı məlumatlarının və daşınan seçki qutusunun siyahısındakı məlumatların uyğunluğunu yoxlayır.

Siyahıdakı məlumatların uyğunluğu təsdiq edildikdə, daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçicinin sağ əlinin baş barmağının və ya şəhadət barmağının dırnağına işarələnmə edir (əgər qeyd olunan hərəkəti yerinə yetirmək qeyri-mümkündürsə - sağ əlin digər barmaqlarında və bu da mümkün deyilsə, sol əldə eyni qaydada edilir).

İşarələnmə prosedurundan keçməkdən imtina edildikdə, seçicinin səsvermədə iştirak etmək hüququ yoxdur və komissiya üzvü/xüsusi qrupun üzvü ona səsvermədə iştirakdan imtinanın səbəbini izah edir.

Penitensiar müəssisələrdə, xəstəxanalarda və digər stasionar müalicə müəssisələrində (xəstələrə qarşı) işarələnmə istifadə edilmir.

Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü işarələnmə prosedurunu həyata keçirdikdən sonra daşınan seçki qutusunun siyahısının müvafiq qrafasında imza edir və seçiciyə seçki bülleteni aldığını imzası ilə təsdiq etməsini tapşırır.

Səsvermə zamanı seçicinin daşınan seçki qutuları siyahısında başqa seçicinin soyadının yanındakı qrafada imza atması aşkar edildikdə, bu halda soyadı boyunca imzası olan seçici həmin qrafada imza atmalıdır. Faktla bağlı komissiya üzvü/xüsusi qrupun üzvü izahat (daşınan seçki qutusunun siyahısında seçicinin sıra nömrəsini, adı və soyadını göstərməklə) yazmalıdır. Sənəd daşınan seçki qutusunu götürən komissiya üzvləri/xüsusi qrupun üzvləri, onu müşayiət edən şəxslər (mövcud olduqda) tərəfindən imzalanır.

Seçicilərin qeydiyyatı proseduru başa çatdıqdan sonra daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçiciyə seçki bülleteninin doldurulması və xüsusi çərçivə zərfindən istifadə qaydasını izah edir.

*“Səs vermək üçün seçki bülletenində istədiyiniz yalnız bir subyektin qarşısındakı dairəni rəngləyin. Seçki bülletenini qatlamayın və seçimin gizliliyi üçün doldurulmuş bülleteni xüsusi çərçivə zərfinə qoyun”.*

Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçki bülleteni doldurulduqdan və xüsusi çərçivə zərfindən istifadə qaydalarını izah etdikdən sonra seçki bülleteni seçki subyektinin siyahısını örtməsi üçün xüsusi çərçivə zərfinə qoyur. Seçiciyə xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülleteninin yuxarı tərəfindəki sınaq dairəsini rəngləməni tapşırır.

Bundan sonra daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü xüsusi çərçivə zərfinə qoyulmuş bülleteni seçiciyə verir və ona gizlilik prinsipinə riayət etməklə bülleteni doldurmağı tapşırır.

**III. Seçici seçki bülleteni və səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfini aldıqdan sonra seçki bülletenini gizliliyə riayər etməklə doldurur.**

Seçici doldurulmuş seçki bülletenini xüsusi çərçivə zərfinə qoyur.

Seçici seçki bülleteni müstəqil şəkildə doldura bilmirsə, seçki komissiyasının üzvü, namizəd, seçki subyektinin nümayəndəsi, mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi və müşahidəçisi istisna olmaqla, istənilən şəxsi ona kömək etmək üçün dəvət etmək hüququna malikdir.

Seçicinin seçki bülleteni və ya xüsusi çərçivə zərfi korlandıqda, komissiya üzvü/xüsusi qrupun üzvü korlanmış seçki bülleteni/xüsusi çərçivə zərfini yenisi ilə əvəz etməyə borcludur.

Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü seçicinin iştirakı ilə korlanmış seçki bülletenini seçki subyektlərini görmək mümkün olmayacaq şəkildə qatlayır, bükülmüş seçki bülleteni metal bərkidici ilə bərkidir, küncdən kəsir, “korlanmış” yazır və imzalayır. Daşınan seçki qutusu seçki məntəqəsinə qaytarıldıqdan sonra korlanmış seçki bülleteni məntəqə seçki komissiyasının sədrinə təhvil verilir.

**IV. Seçici xüsusi çərçivə zərfində yerləşən seçki bülletenini daşınan seçki qutusuna qoyur.**

Seçki bülleteninin xüsusi çərçivə zərfindən ayrılması riskinin qarşısını almaq üçün daşınan seçki qutusunu götürən komissiya/xüsusi qrupun üzvü seçicinin doldurulmuş seçki bülletenini xüsusi çərçivə zərfinə qoyduqdan sonra (bu üsulla xüsusi çərçivə zərfi daşınan seçki qutusuna qoyulur) xüsusi çərçivə zərfinə metal bağlayıcıların bərkidilməsini təmin etməyə borcludur.



Daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrupun üzvü daşınan seçki qutusunun yarığını açır və seçiciyə səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfinə qoyulmuş seçki bülletenini ona daxil etməyi tapşırır.

Daşınan seçki qutusunun möhürünün bütövlüyü pozulduqda, daşınan qutusunu götürən komissiya üzvləri/xüsusi qrupun üzvləri dərhal komissiyanın sədrinə məlumat verməli, səbəbi göstərilməklə izahat tərtib etməli və ona müşayiət edən şəxslərlə imza atmalıdırlar.

Daşınan seçki qutusunu götürən komissiya üzvləri/xüsusi qrupun üzvləri səsvermə binasına qayıtdıqdan sonra istifadə olunmamış/korlanmış seçki bülletenlərini, səsvermə üçün xüsusi çərçivə zərflərini və daşınan seçki qutusunun siyahısını məntəqə seçki komissiyasının katibinə təhvil verməlidirlər. Komissiyanın sədri istifadə olunmamış/korlanmış seçki bülletenlərinin küncünü kəsir, korlanmış yazır və imzası ilə təsdiq edir.

Komissiyanın katibi daşınan qutunun siyahısında imzaların, istifadə olunmamış və/və ya korlanmış seçki bülletenlərinin sayının düzgünlüyünü yoxlayır. Qeyri-dəqiqlik aşkar edildikdə, daşınan qutunun müşayiət edən komissiya üzvləri/xüsusi qrup üzvləri səbəbi göstərilməklə izahat yazmalıdırlar. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayının müəyyən edilməsi və səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsi məqsədilə izahatda göstərilən məlumatlar nəzərə alınır.

Komissiyanın katibi qeydlər kitabının 4-cü səhifəsində daşınan qutusunun siyahısına seçici imzalarının sayını, istifadə olunmamış seçki bülletenlərinin sayını, habelə daşınan seçki qutusunun seçki məntəqəsinə qaytarılma vaxtını qeyd edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

გადასატანი საარჩევნო ყუთის თანმხლები კომისიისა და სპეცჯგუფის წევრთათვის
გადაცემული საარჩევნო დოკუმენტაციის აღრიცხვა

| | დასახელება | რაოდენობა | | |
|---|---|---|---|---|
| | | I ყუთი | II ყუთი | III ყუთი |
| 1 | ამომრჩეველთა რაოდენობა გადასატანი საარჩევნო ყუთის სიაში | 35 | 15 | |
| 2 | გადაცემული ბიულეტენების რაოდენობა | 34 | 14 | |
| 3 | გადაცემული სპეციალური ჩარჩო-კონვერტების რაოდენობა | 35 | 15 | |
| 4 | გამოუყენებელი ბიულეტენების რაოდენობა | 2 | 2 | |
| 5 | *გადასატანი საარჩევნო ყუთის სიაში ხელმოწერების რაოდენობა* | 35 | 15 | |
| 6 | უბნიდან **წაღების** დრო | 09 სთ. 30 წთ. | 09 სთ. 30 წთ. | ___სთ. ___ წთ. |
| | უბანში **დაბრუნების** დრო | 14 სთ. 45 წთ. | 16 სთ. 40 წთ. | ___სთ. ___ წთ. |

## Fiziki vəziyyətinə görə seçici tərəfindən səsvermə proseduru

Fiziki vəziyyətinə, xüsusən də yuxarı əzələlərinin olmamasına görə səsvermə prosedurlarını müstəqil həyata keçirə bilməyən seçici aşağıdakı prosedurları nəzərə alaraq səsvermədə iştirak edir:

- Seçici işarələnmə yoxlaması və işarələnmə prosedurlarından keçmir.
- Seçiciyə seçki bülleteni verilməzdən əvvəl seçicinin verifikasiyasını təsdiq edən qəbzi/daşınan qutusunun siyahısında seçicinin imzası olduğu yerdə "Fiziki vəziyyəti" qeydi aparılır və bu, seçicilərin qeydiyyatçısı/daşınan seçki qutusunu götürən komissiya üzvü/xüsusi qrup üzvü imzası ilə təsdiqlənir.
- Seçicinin seçki bülleteninin doldurulmasında ona kömək etmək üçün seçki komissiyasının üzvü, namizəd, seçki subyektinin nümayəndəsi, mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi və müşahidəçi istisna olmaqla, istənilən şəxsi dəvət etmək hüququ vardır.
- Doldurulmuş bülleteni xüsusi çərçivə zərfinə seçici əvəzinə onun iştirakı ilə, seçki bülleteni doldurmağa kömək edən onun seçdiyi şəxs qoyur və sonra onu xüsusi elektron səs sayma aparatına/daşınan seçki qutusuna yerləşdirir.

## Seçicilərin şəxsi məlumatlarının mühafizəsinin təmin edilməsi

Səsvermə binasında olmaq hüququ olan şəxslərə verifikasiya aparatlarına yüklənmiş seçici siyahısında olan şəxsi məlumatların işlənilməsi (o cümlədən fotovideo çəkilməsi, toplanması, qeydə alınması, saxlanması), istifadə edilməsi, açıqlanması, ötürülməsi və/və ya yayılması qadağandır. Sözügedən qadağa, seçicinin şəxsi məlumatları ilə bağlı hərəkətlərin "Gürcüstanın Seçki Məcəlləsi" Gürcüstanın üzvi qanunu və MSK-nın hüquqi aktları ilə nəzərdə tutulmuş məntəqə seçki komissiyasının səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olduğu hallar istisna olmaqla, məntəqə seçki komissiyasının üzvlərinə də şamil edilir.

## Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin qeydiyyatı

Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını (seçicilərin fəallığı) müəyyən etmək üçün məntəqə seçki komissiyası sədrinin göstərişi ilə qeydiyyatçılardan biri saat 10:00, 12:00, 15:00, 17:00-da seçicilərin verifikasiya aparatından seçicilərin fəallığını əks etdirən qəbzi/hesabatı çap edir.

Səsvermədə/seçkidə iştirak edən seçicilərin ümumi sayını göstərən yekun qəbz/hesabat səsvermə prosesi başa çatdıqdan sonra çap olunur.

Səsvermə prosesi saat 20:00-da başa çatır, lakin həmin vaxta qədər səsvermədə iştirak etmək üçün növbədə duran seçicilər olduqda istisna olunur. Növbədə duran sonuncu qeydə alınmış seçici səs verən kimi səsvermə başa çatmış elan edilir və komissiya sədrinin göstərişi ilə qeydiyyatçıdan biri verifikasiya aparatından səsvermədə/seçkilərdə iştirak edən seçicilərin ümumi sayını göstərən yekun qəbz/hesabatı çap edir.

Məntəqə seçki komissiyasının sədr müavini seçicilərin sayını göstərən qəbzlərin/hesabatların çapı prosesi ilə paralel olaraq elektron vasitələrdən istifadə etməklə keçirilmiş səsvermənin auditinin təsdiqi formasında müvafiq qeydlər aparır.

Məntəqə seçki komissiyasının sədri müvafiq dövrlər üzrə (saat 10:00, 12:00, 15:00, 17:00, 20:00) çap olunmuş qəbzdə/hesabatda göstərilən səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayına daşınan seçki qutusunun siyahısına (mövcud olduqda) daxil edilmiş seçicilərin imzalarının cəmini əlavə edir. Komissiyanın sədri planşetlə qeyd olunan məlumatların MSK-yə ötürülməsini (o cümlədən gender baxımından) təmin edir.

Məntəqə seçki komissiyasının katibi saat 12.00-a və 17.00-a olan vəziyyətə görə səsvermədə/seçkilərdə iştirak edən seçicilərin ümumi sayını, habelə səsvermə prosesi başa çatdıqdan sonra müəyyən edilmiş seçicilərin yekun sayını səsvermə nəticələrin nümayişi protokolunda və qeydlər kitabında göstərir.

*Sxem N4. Seçicilərin sayını (fəaliyyəti) əks edən qəbzin/hesabatın çapı prosesinin təsviri*



{I}

Seçici fəaliyyətinin çap menyusuna keçmək üçün qeydiyyatçı ekranın yuxarı sağ küncündəki menyuya basır.





{II}

Menyuda qeydiyyatçı "Seçici fəaliyyəti" düyməsini basır.







{III}

Qeydiyyatçı "Fəaliyyət qəbzini çap et" düyməsini basır və nəticədə seçicinin fəaliyyətini göstərən qəbz çap olunur.

*Sxem N5. Seçicilərin sayı (fəaliyyəti) haqqında məlumatın MSK-yə göndərilməsi prosesinin təsviri*








{I}

Planşetə yüklənmiş proqramı aktivləşdirdikdən sonra komissiya sədri proqram menyusuna daxil olur.

{II}

Proqram menyusunda komissiyanın sədri "Fəaliyyət" düyməsini seçir.

{III}

Komissiyanın sədri "aktiv" sahəsini seçir




{IV}

Komissiyanın sədri qrafaya seçicilərin sayını daxil edir və “göndər” düyməsinə basmaqla məlumatlar göndərilir.




{V}

Göndərilən məlumatlar müvafiq dövr üçün fəaliyyət qrafikində əks olunacaq.

## Səsvermə günü səsvermə binasında və onun ətrafında asayişin qorunması

Seçicilərin səsvermə prosesində maneəsiz iştirakına şərait yaratmaq və səsvermənin gizliliyini təmin etmək məqsədi ilə səsvermə günü səsvermə binasında asayişin təmin edilməsinə məntəqə seçki komissiyasının sədri cavabdehdir.

Komissiya sədrinin qəbul etdiyi qərarların icrası seçki komissiyasının üzvləri, səsvermə binasında olmaq hüququ olan bütün şəxslər və seçicilər üçün məcburidir.

Komissiyanın işinə mane olduqda və asayişi pozduqda, məntəqə seçki komissiyası qaydanı pozan şəxsin məntəqə seçki komissiyasının yerləşdiyi binadan xaric edilməsi haqqında qərar qəbul etmək səlahiyyətinə malikdir. Asayişi pozan şəxs xaric edildikdə, komissiyanın sədri və üzvləri tərəfindən imzalanan müvafiq akt tərtib edilir. Əgər asayişi pozan şəxs məntəqə seçki komissiyasının qəbul etdiyi komissiyanın yerləşdiyi binadan asayişi pozan şəxsi xaric edilməsi haqqında qərarı könüllü surətdə yerinə yetirmədikdə. Məntəqə seçki komissiyası sədrinin tələbi ilə polis əməkdaşları çağırıla bilər. Polis dərhal qərarı icra etməyə borcludur. Qeydlər kitabında faktla bağlı müvafiq qeyd aparılır.

| |
|---|
| Səsvermə binasına silahlı şəxslərin daxil olmasına icazə verilmir. |

Məntəqə seçki komissiyası sədrinin tələbi ilə səsvermə binasında və ya onun yaxınlığındakı ərazidə ictimai qaydaya, səsvermənin keçirilməsinə, seçki sənədlərinin təhlükəsiz yerdəyişməsinə təhlükə yarandıqda polis əməkdaşları çağırıla bilər. İctimai asayişin pozulmasının qarşısı alınan kimi və məntəqə seçki komissiyası sədrinin razılığı ilə polis əməkdaşları səsvermə binasını və onun ətrafını tərk edirlər.

| |
|---|
| Müstəsna hallarda, əgər ictimai asayişin qarşısını almaq və ya qorumaq üçün mütləq lazımdırsa, səsvermə binasının yaxınlığındakı ərazidə, lakin faktiki səsvermə binasında deyil, məntəqə seçki komissiyası sədrinin tələbi və razılığı olmadan da polis əməkdaşları iştirak edə bilərlər. Belə zərurət aradan qalxan kimi polis əməkdaşları səsvermə binasının yaxınlığındakı ərazini tərk edirlər. |

## Səsvermə prosesinin müvəqqəti dayandırılması

Səsvermə zamanı səsvermə binasını bağlamaq, səsverməni xitam etmək və ya dayandırmaq qadağandır. Məntəqə seçki komissiyasının sədri hər hansı hal səsvermə prosesinin gedişinə mane olarsa, bu barədə dərhal dairə seçki komissiyasına məlumat verməyə və müvafiq göstərişi gözləməyə borcludur.

## Biliyin özünüqiymətləndirməsi üçün suallar

1. Məntəqə seçki komissiyasının hansı üzvü seçicilərin işarələnməsini yoxlayır?
2. Məntəqə seçki komissiyasının hansı üzvü seçicilərin işarələnməsini həyata keçirir?
3. Əgər seçici Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim edibsə, hansı hallarda ona səsvermə binasına daxil olmaqdan və səsvermədə iştirakdan imtina ediləcək?
4. Verifikasiyanı təsdiq edən qəbz verifikasiya aparatından çap edilmədikdə və ya texniki xəta ilə çap olunarsa nə baş verir?
5. Nə baş verir, əgər səsvermə binasına səs vermək üçün gələn seçicini verifikasiya aparatı aşkar edər ki, seçici daxil olub:
   - ✔ daşınan seçki qutusunun siyahısına?
   - ✔ digər seçki məntəqəsinin xüsusi siyahısına?
6. Qeydiyyatçı seçiciyə seçki bülletenin doldurulması ilə bağlı hansı göstərişləri verir?
7. Seçici müstəqil şəkildə seçki bülleteni doldura bilmirsə, onun gizli səsvermə kabinəsində ona kömək etmək üçün kimi dəvət etmək hüququ var?
8. Fiziki vəziyyətinə, xüsusən də yuxarı əzələlərinin olmamasına görə müstəqil olaraq səsvermə prosedurlarını həyata keçirə bilməyən seçici hansı prosedurları nəzərə alaraq səsvermədə iştirak edir?
9. Məntəqə seçki komissiyası zəif görən və görmə qabiliyyətindən məhrum olan seçicilərə hansı xidməti təklif edir?
10. Seçicinin seçki bülleteni korlanarsa, ona yeni seçki bülleteni hansı prosedura əsasən verilir?
11. Seçicinin seçiminin gizliliyini qorumaq üçün seçki qutusunun və xüsusi elektron səs sayma aparatının müşahidə komissiyasının üzvü seçiciyə hansı göstərişləri verir?
12. Seçicinin şəxsi məlumatlarının mühafizəsi məqsədilə məntəqə seçki komissiyasının üzvlərinə və səsvermə binasında olmaq hüququ olan şəxslərə nə qadağan edilir?
13. Xüsusi elektron səs sayma aparatı seçki bülleteni geri qaytararsa, nə baş verir?
14. Daşınan seçki qutusu ilə səsvermə prosesi nə vaxt başlayır və nə vaxt başa çatır?
15. Daşınan seçki qutusunu götürən komissiya üzvləri avtomobillə hərəkət edərkən nəqliyyat vasitəsində neçə nəzarətçi oturmalıdır və bu nəzarətçilər necə müəyyən edilir?
16. Daşınan seçki qutusu ilə səsvermə prosesi seçicinin işarələnməsi prosedurunu nəzərə alırmi?
17. Seçici bülleteni doldurduqdan sonra seçki bülleteni daşınan seçki qutusuna hansı formada qoyulur?
18. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını hansı müddətdə və hansı qaydada müəyyən edilir?
19. Məntəqə seçki komissiyası hansı hallarda səsvermə binasında olmaq hüququ olan şəxsin kənarlaşdırılması haqqında qərar qəbul edir və qeyd olunan tədbirin keçirilməsi üçün hansı prosedur nəzərdə tutulub?
20. Hansı hallarda polis əməkdaşlarının səsvermə binasına daxil olmasına icazə verilir?

# 05
# Məntəqə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinin yekunlaşdırılması prosesi necə aparılır

Məntəqə seçki komissiyasının bütün üzvü məntəqə seçki komissiyası sədrinin rəhbərliyi altında aşağıdakılara cavabdehdirlər:

- səsvermənin nəticələrinin yekunlaşdırılması prosesini mütəşəkkil və şəffaf şəkildə aparmaq
- səsvermə binasında olmaq hüququ olan şəxslərin səsvermənin yekunlaşdırılması prosesini maneəsiz müşahidə etməsinə şərait yaratmaq
- elektron aparatlar vasitəsilə hesablanmış səslərin ilkin nəticələrinin yuxarı seçki komissiyasına operativ şəkildə çatdırılmasını və məlumatın seçki məntəqəsində açıqlanmasını təmin etmək;
- seçki bülletenlərinin əl ilə hesablanması prosesində verilmiş funksiyaları sədaqətlə yerinə yetirmək və məlumatların düzgünlüyünü qorumaq
- səsvermənin nəticələrinin yekun protokolunun imzalanmasını, yuxarı seçki komissiyasına vaxtında çatdırılmasını və protokolun seçki məntəqəsində açıqlanmasını təmin etmək;

## Seçki məntəqəsinin bağlanması

Səsvermə proseduru saat 20:00-da başa çatır və seçki məntəqəsi bağlanır. Bu zaman növbədə duran seçicilər səs verə bilər. Komissiya sədrinin tapşırığına əsasən komissiya üzvlərindən biri növbədə duran seçicilərin adlarını və soyadlarını qeydə alır, onların sayı barədə komissiyanın sədrinə məlumat verir, komissiyanın katibi sayı qeydlər kitabına daxil edir. Sonuncu seçici səsini verən kimi səsvermə başa çatmış elan edilir. Komissiya sədrinin tapşırığına əsasən, qeydiyyatçılar seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf qutuların yarığını möhürləyirlər.

Səsvermə başa çatdıqdan dərhal sonra komissiyanın katibi səslərin hesablanması zamanı səsvermə binasında iştirak edən komissiya üzvlərinin adlarını, soyadlarını (seçən/təyin edən subyektlərin telefon nömrəsini göstərilməklə) qeydlər kitabının 26 və 27-ci səhifələrinə daxil edir, habelə səsvermə binasında olmaq hüququ olan digər şəxslərin adı, soyadı (təqdim edən təşkilat və ya seçki subyekti və əlaqə telefon nömrəsini göstərilməklə). Qeyd olunan şəxslərin qeydlər kitabında qeydiyyata alınmasını imzası ilə təsdiq edirlər.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

ხმების დათვლის დროს კენჭისყრის შენობაში
მყოფ პირთა მონაცემები

| № | სახელი, გვარი | სტატუსი | წარმდგენის დასახელება | ტელეფონი | ხელმოწერა |
|---|---|---|---|---|---|
| 1 | ნინო ნინოშვილი | თავმჯდომარე | საოლქო საარჩევნო კომისია | 551526936 | ნ. ნინოშვილი |
| 2 | გიორგი გიორგაძე | მოადგილე | საოლქო საარჩევნო კომისია | 558956321 | გ. გიორგაძე |
| 3 | დავით დავითულია | მდივანი | საოლქო საარჩევნო კომისია | 599896523 | და. დავითულია |
| 4 | სალომე სოლომონიძე | კომისიის წევრი | პოლიტიკური პარტია 111 | 598784631 | ს. სოლომონიძე |
| 5 | გიორგი ბერიძე | ადგილ. დამკვირვებელი | ააიპ „მომავლის იმედი" | 599814523 | გ. ბერიძე |
| 6 | ნუცა ყორცაძე | სუბიექტის წარმომადგენელი | პოლიტიკური პარტია 119 | 571120595 | ნ. ყორცაძე |

Səsvermə binası bağlandıqdan sonra səsvermə binasında olmaq hüququ olan şəxslərin istənilən vaxt səsvermə binasına daxil olmaq və çıxmaq hüququ vardır.

Səsvermə başa çatdıqdan dərhal sonra məntəqə seçki komissiyasının sədri və üzvləri səsvermənin nəticələrinin yekunlaşdırılması üçün hazırlığa başlayırlar. Bu məqsədlə aşağıdakı prosedurları ardıcıl olaraq həyata keçirirlər:



Verifikasiya aparatında verifikasiya prosesinin başa çatması

Daşınan seçki qutusundan seçki bülletenlərinin elektron səs sayma aparatları vasitəsilə əsas seçki qutusuna yerləşdirilməsi

Səsvermənin ilkin nəticələrinin elektron səs sayma aparatları vasitəsilə əldə edilməsi



Seçki məntəqəsinin səslərin hesablanması proseduruna hazırlanmaq Sayıcıları  müəyyən etmək

Əsas seçki qutusu açılmazdan əvvəl seçki sənədlərinin möhürlənməsi

Əsas seçki qutusunun açılması Seçki bülletenlərinin sayılması / möhürlənməsi



Səsvermənin nəticələrinin yekun protokolunun tərtibi və ictimailəşdirilməsi

Qeydiyyat jurnalının bağlanması Qeydlər kitabının bağlanması/möhürlənməsi Komissiyanın xüsusi möhürünün möhürlənməsi

Seçki sənədlərinin, elektron aparatlarının və digər inventarların dairə seçki komissiyasına verilməsi

## Verifikasiya aparatlarında verifikasiya prosesinin başa çatması

Səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyasının sədri:

- ✔ seçicilərin verifikasiya aparatından səsvermədə/seçkilərdə iştirak edən seçicilərin ümumi sayını göstərən yekun qəbzi/hesabatı çap etməyi qeydiyyatçılardan birinə tapşırır;
- ✔ çap olunmuş yekun hesabatı saxlamaq üçün komissiyanın katibinə təhvil verir;
- ✔ fərdi kod/parol istifadə edərək aparatlarda verifikasiya prosesini bağlayır.

Məntəqə seçki komissiyasının sədr müavini proseslə paralel olaraq elektron vasitələrdən istifadə etməklə keçirilən səsvermənin auditinin təsdiqi formasında müvafiq qeydlər aparır.

*N6 sxemində. Aparatlarda verifikasiya prosesinin başa çatma mərhələlərinin təsviri*




{I}

Verifikasiya prosesini bağlamaq üçün komissiya sədri “Menyuya qayıt” düyməsini sıxır.

**მენიუში დაბრუნება**




{II}

Menyuda sədr “Verifikasiyanı bağla” düyməsini sıxır.

**ვერიფიკაციის დახურვა**




{III}

Sədr “verifikasiyanı bağla” düyməsini sıxır.

**ვერიფიკაციის დახურვა**




{IV}

Verifikasiya prosesini bağlamaq üçün komissiya sədri fərdi kod/parolu daxil edir.




{V}

Verifikasiya prosesi başa çatan kimi, yekun hesabatlar avtomatik olaraq aparatlardan çap olunur.




{VI}

Komissiyanın sədri “Cihazı söndür” düyməsini sıxaraq aparatları söndürür.

**გამორთეთ მოწყობილობა**

## Daşınan seçki qutusunun açılması

Seçki məntəqəsi bağlandıqdan sonra əvvəlcə daşınan seçki qutusu açılır. Məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququ olan şəxslərin iştirakı ilə daşınan seçki qutusunun möhürünün bütövlüyünü yoxlayır.

> Seçki məntəqəsində birdən çox daşınan seçki qutusu istifadə edildikdə, onların hər birində möhürlərin bütövlüyü yoxlanılır.
>
> Daşınan seçki qutusunun möhürünün bütövlüyünün pozulduğu aşkar edildikdə, lakin komissiya bunun qanunvericiliyin tələblərinin pozulmasına səbəb olmadığını hesab etdikdə, komissiyanın sərəncamına əsasən səsvermənin nəticələrinin yekunlaşdırılması proseduru davam etdirilir (qeyd olunan faktla bağlı dərhal dairə seçki komissiyasına məlumat verilir). Əks halda daşınan seçki qutusu möhürlənərək komissiyanın sərəncamı ilə birlikdə dərhal Dairə Seçki Komissiyasına təhvil verilir.

Komissiya sədri proseslə paralel olaraq səsvermə binasında olmaq hüququ olan şəxslərə izah edir ki, xüsusi səs sayma aparatlarda səsvermə prosesinin bağlanması və səsvermənin ilkin nəticələri barədə məlumat əldə etmək üçün, komissiya daşınan seçki qutusunda olan seçki bülletenləri, xüsusi elektron səs sayma aparatı vasitəsilə, əsas seçki qutularına yerləşdirmə prosesini başlayır.

Komissiyanın sədri və/və ya onun təyin etdiyi komissiyanın üzvü daşınan seçki qutusunda olan seçki bülletenlərinin çərçivə zərflərindən metal bərkidiciləri çıxarır və seçki bülletenləri müəyyən edilmiş qaydada xüsusi elektron səs sayma aparatına elə bir şəkildə qoyur ki, seçicinin etdiyi seçimi görmək qeyri-mümkün olsun.

Əgər:

- ✔ Daşınan seçki qutusundan çıxarılan xüsusi çərçivə-zərfdə müəyyən edilmiş saydan çox seçki bülletenləri olacaq, belə seçki bülletenləri ayrıca yerləşdiriləcək, batil sayılmasının səbəbi “daha çox bülleten” yazılacaq və əsas seçki qutusunda aşkar olunmuş batil seçki bülletenlərin sayına əlavə olunacaq.
- ✔ Daşınan seçki qutusundan çıxarılan seçki bülleteni xüsusi elektron səs sayma aparatı geri qaytaracaq, belə seçki bülleteni ayrı-ayrılıqda elə yerləşdiriləcək ki, seçicinin seçdiyi seçimi görmək mümkün olmasın və sonra saymaq üçün əsas seçki qutularından çıxarılan seçki bülletenləri ilə qarışdırılacaq.

Göstərilən hallar aşkar edildikdə, komissiyanın katibi faktı göstərən akt tərtib edir, həmin aktı komissiyanın bütün üzvləri və xüsusi qrupun üzvləri (əgər varsa) komissiyanın sədri ilə birlikdə imzalayırlar. Məntəqə seçki komissiyası tərəfindən tərtib edilmiş aktı komissiyanın katibi qeydlər kitabında saxlayır.

## Səsvermənin ilkin nəticələri haqqında məlumat

Daşınan seçki qutusunda olan seçki bülletenlərini əsas seçki qutusuna yerləşdirilməsi prosedurunu başa vurduqdan sonra komissiyanın sədri ardıcıl olaraq həyata keçirir:

- ✔ xüsusi elektron səs sayma aparatlarında səsvermə prosesinin bağlanmasını;
- ✔ ilkin səsvermə nəticələrinin aparatlarda sinxronlaşdırılmasını;
- ✔ nəticələrin aparatların birində konsolidasiyasını, o başa çatdıqdan sonra səsvermənin ilkin nəticələrinin hesabatı aparatdan çap olunur.

Səsvermənin ilkin nəticələri haqqında hesabat çap edildikdən sonra komissiyanın sədri yaddaş kartını həmin hesabatın çap olunduğu xüsusi elektron səs sayma aparatına yerləşdirir, ona konsolidasiya edilmiş məlumatlar ötürülən kimi xüsusi elektron səs sayma aparatını söndürür (digər maşınlar birlikdə).

Aparatlarda səsvermə prosesinin bağlanması, nəticələrin sinxronlaşdırılması və konsolidasiyası mərhələlərinin təsviri N7 sxemdə təqdim olunur.

Xüsusi elektron aparatdan çap edilmiş ilkin nəticələrin konsolidasiya edilmiş çıxarışa komissiyanın sədri komissiyanın katibi ilə birlikdə imzalayır və komissiyanın möhürü ilə təsdiqləyir. Çıxarışın bir nüsxəsi qeydlər kitabında saxlanılacaq, digər nüsxəsi isə ictimai məlumat üçün asılacaq. Bundan əlavə, ilkin nəticələr haqqında çıxarışla birlikdə görünən yerdə məntəqə seçki komissiyası tərəfindən tərtib olunmuş aktın təsdiq edilmiş surəti (əgər varsa) asılmalıdır, hansı ki, seçki bülletenlərin daşınan seçki qutusundan əsas seçki qutusuna yerləşdirilməsi prosesində aşkar edilmiş hallarla əlaqədar tərtib edildi (aparat daşınan seçki qutusundan çıxarılmış seçki bülletenini geri qaytardı; daşınan seçki qutusundan çıxarılan çərçivə zərfdə müəyyən edilmiş saydan çox seçki bülleteni aşkar edildi).

Məntəqə seçki komissiyasının sədr müavini proseslə paralel olaraq elektron vasitələrdən istifadə etməklə keçirilən səsvermənin auditinin təsdiqi formasında müvafiq qeydlər aparır.

Əgər ilkin nəticələr haqqında çıxarış xüsusi elektron sayma aparatından çap olunmadıqda və ya texniki xətası olan çıxarış çap olunarsa, bu halda səslərin hesablanması və səsvermənin nəticələrinin yekun protokolunun tərtibi prosedurları maneəsiz davam edir.

*Sxem N7. Səsvermə prosesinin bağlanması, nəticələrin sinxronlaşdırılması və konsolidasiya mərhələlərinin təsviri*



{I}

Komissiyanın sədri aparatların gövdəsindəki olan yarığa xüsusi açar yerləşdirərək proqramın idarəetmə panelinə daxil olur.





{II}

Aparatlara idarəetmə paneli yüklənməyə başlayır, bir neçə saniyə davam edir.




{III}

Komissiya sədri səsvermə prosesini bağlamaq üçün aparatların ekranında “Sədr” düyməsini seçir.

**თავმჯდომარე**



{IV}

Komissiya sədri aparatlara fərdi kod/parol daxil edir.




{V}

Komissiyanın sədri aparatların ekranında “Səsvermə prosesini bağlamaq” seçir və bağlanmanı təsdiqləmək üçün fərdi kodu/parol təkrarla daxil edir.

**კენჭისყრის პროცესის დახურვა**




{VI}

Səsvermə prosesinin bağlanmasının başa çatmasını komissiyanın sədri “Başa çatdı” düyməsini sıxmaqla təsdiq edir.

**დასრულდა**




{VII}

Aparatlar arasında məlumatların mübadiləsi (məlumatların toplanması - sinxronizasiya üçün) üçün komissiya sədri “Nəticələrin sinxronizasiyası” düyməsini seçir.

**შედეგების სინქრონიზაცია**



{VIII}

Komissiya sədri aparatlarda fərdi kod/parol daxil edir.



{IX}

Aparatlar sinxronizasiya prosesini (məlumat mübadiləsi) avtomatik rejimdə həyata keçirirlər.




{X}

Sinxronizasiya prosesi başa çatdıqdan sonra komissiyanın sədri nəticələrin konsolidasiyasını həyata keçirir.

**შედეგების კონსოლიდაცია**




{XI}

Ekranda neçə aparatın məlumatı konsolidasiya edildiyi barədə bildiriş görünəcək. Sonra iki nüsxədə avtomatik rejimdə səsvermənin ilkin nəticələri haqqında çıxarış çap olunur.



{XII}

İlkin nəticələr haqqında çıxarış çap edildikdən sonra komissiya sədri səslərin sayılması üzrə aparatın müvafiq bölməsində haradan ki, konsolidasiya edilmiş hesabat çap edilib xarici yaddaş kartını birləşdirir, beləliklə nəticələrin konsolidasiya edilmiş məlumatları avtomatik olaraq yazılır.




{XIII}

Nəticələri xarici yaddaş kartına köçürdükdən sonra komissiya sədri “Söndür” düyməsini sıxır.

**გამორთვა**




{XIV}

Komissiya sədri “Bəli” düyməsini sıxaraq aparatları söndürür.

**დიახ**

Məntəqə seçki komissiyasının sədri səsvermənin ilkin nəticələri haqqında məlumatı planşet vasitəsilə MSK-ya göndərir, bu məqsədlə yaddaş kartına ötürülmüş səsvermənin ilkin nəticələri haqqında konsolidasiya edilmiş məlumatları planşetə qoşur.

Planşetin texniki xətası aşkar edilərsə (problem ilkin nəticələrin ötürülməsi aplikasiyasında və ya başqa bir şeydə yarandı) və xətanı düzəltmək mümkün olmadıqda, bu halda ilkin nəticələr haqqında konsolidasiya edilmiş çıxarışlarda göstərilən məlumatlar haqqında məlumat komissiyanın sədrinin müəyyən etdiyi şəxsin əlində olan digər texniki vasitələrlə (məsələn, smartfon) dairə seçki komissiyasının əvvəlcədən müəyyən etdiyi şəxsə və ya MSK-nın müvafiq səlahiyyətli şəxsinə göndərilir.

Səsvermə məntəqəsində kəsilməz mobil rabitə və internet bağlantısı olmadıqda, bu halda ilkin nəticələrin konsolidasiya edilmiş çıxarışında göstərilən məlumatlar barədə məlumat səsvermə binasının kənar perimetrindən MSK-ya verilə bilər.

*Sxem N8. Səsvermənin ilkin nəticələri haqqında məlumatların MSK-ya göndərilməsi prosesinin təsviri*



{I}

Komissiya sədri düyməni basmaqla planşetə yüklənmiş proqramı aktivləşdirir.






{II}

Proqram planşetdə yüklənməyə başlayır, bir neçə saniyə çəkir.




{III}

Komissiyanın sədri xüsusi, fərdi kod/parol daxil edir və bununla da prosesin başlanmasını təsdiq edir.




{IV}

Komissiyanın sədri “Ötürülməyə başlamaq” düyməsini sıxır.

გადაცემის დაწყება




{V}

Komissiya sədri yaddaş kartını planşetə qoşur və “Ötür” düyməsini basaraq məlumatların göndərilməsini başlayır.

გადაცემა




{VI}

İlkin konsolidasiya edilmiş nəticələrin ötürülməsi prosesi bir neçə saniyə çəkir.




{VII}

Komissiya sədri nəticələrin planşetdə ötürülməsi prosesini “Bitir” düyməsini sıxmaqla tamamlayır.

დასრულდა

## Seçki məntəqəsinin səslərin hesablanması proseduruna hazırlanması

Məntəqə seçki komissiyasının sədri səsvermə otağını səslərin hesablanması proseduru üçün hazırlayır. Səsvermə binasında olmaq hüququ olan şəxslərin iştirakı ilə məntəqə seçki komissiyasının sədri püşkatma yolu ilə komissiyanın üzvləri arasından ən azı dörd nəfəri seçir.

Komissiya üzvləri arasında funksiyaların püşkatma yolu ilə bölüşdürülməsi qaydası:

- ✔ Komissiyanın sədri püşkatmada iştirak edən komissiya üzvlərinin sayını nəzərə alaraq eyni vərəqləri hazırlayır. Buradan müvafiq sayda vərəqə, eyni yazı vasitəsilə paylanacaq funksiyanın adını qeyd edin: “Birinci sayıcı”, “İkinci sayıcı”, “Üçüncü sayıcı”, “Dördüncü sayıcı”.
- ✔ Komissiyanın sədri imzası və komissiyanın xüsusi möhürü ilə püşkatmanın bütün vərəqini təsdiq edir, elə qatlayır ki, mətni oxumaq mümkün olmasın və stolun üzərinə yerləşdirir.
- ✔ Püşkatmada iştirak edən komissiya üzvləri püşkatma vərəqlərini bir-bir alırlar.

Komissiyanın katibi komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsinin nəticələrini qeydlər kitabının 3-cü səhifəsinə daxil edir.

Komissiyanın sədri seçki məntəqəsində olan seçki subyektlərinin nümayəndələri arasından püşkatma yolu ilə seçilmiş 2 nəfərdən artıq olmayan nümayəndəsi, komissiya üzvlərindən püşkatma yolu ilə seçilmiş sayıcılarla birlikdə  birlikdə həqiqi və/və ya batil seçki bülletenlərin hesablanması prosesində iştirak edirlər.  Seçki subyektlərinin  təyin etdiyi komissiyanın üzvləri püşkatma yolu ilə müəyyən edilmiş sayaçılardırlarsa, o halda onların nümayəndələri püşkatmada iştirak etmirlər.

Müşahidəçilər öz tərkibi arasından qarşılıqlı razılaşma əsasında ikidən çox olmayan müşahidəçi seçirlər. Müşahidəçilər razılığa gələ bilmədikdə, komissiyanın sədri püşkatma yolu ilə iki müşahidəçi seçəcək.

Komissiyanın katibi, həmçinin qeydlər kitabının 3-cü səhifəsində həqiqi və/və ya batil seçki bülletenlərinin hesablanması prosesində iştirak edən nümayəndələr və müşahidəçilər tərəfindən müəyyən edilmiş müşahidəçilərin məlumatlarını daxil edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

**ხმების დათვლის პროცედურისთვის საუბნო საარჩევნო კომისიის წევრთა შორის წილისყრით ფუნქციათა განაწილების შედეგები**

| № | კომისიის წევრის ფუნქცია | კომისიის წევრის სახელი, გვარი | კომისიის წევრის ხელმოწერა |
|---|---|---|---|
| 1. | I მთვლელი | ინა ინაშვილი | ი. ინაშვილი |
| 2. | II მთვლელი | ლალი ლალიაშვილი | ლ. ლალიაშვილი |
| 3. | III მთვლელი | დავით დავითაძე | დ. დავითაძე |
| 4. | IV მთვლელი | ნიკოლოზ ნიკვაშვილი | ნ. ნიკვაშვილი |

| ფუნქცია | სახელი, გვარი |
|---|---|
| ნამდვილი ან/და ბათილი საარჩევნო ბიულეტენების დათვლის პროცესში მონაწილე **2 წარმომადგენელი** | ნათელი ნანანაძე |
| | დავით დუდლამიანი |
| **2 მეთვალყურე**, რომელიც აკვირდება დათვლის მთელ პროცედურას | გიორგი ბერიძე |
| | ნიკოლოზ ელოაშვილი |

Sayıcılar səslərin hesablanması üçün nəzərdə tutulmuş stolda elə yer tuturlar ki, qarşı tərəfdə iki metr aralıda məntəqə seçki komissiyasının üzvləri və səsvermə binasında olmaq hüququ olan şəxslər (onlar seçki bülletenlərin çeşidlənməsi və sayılması prosesini görə bilməlidirlər) olsunlar.

Sayıcıların yanında müşahidəçilər arasında müəyyən edilmiş nəzarətçilər və seçki subyektlərinin nümayəndələri arasında müəyyən edilmiş şəxslər dayanırlar.

Komissiyanın sədri ele yer tutur ki, bütün sayıcıyı görə bilsin.

Komissiyanın sədri sayıcıların masasına gətirməlidir:
- ✔ daşınan seçki qutularının siyahısını (əgər varsa);
- ✔ korlanmış seçki bülletenlərini;
- ✔ qeydiyyatçıların yanında olan istifadə olunmamış seçki bülletenlərini;
- ✔ əsas seçki qutularını.

Əsas seçki qutusunu açmazdan əvvəl komissiyanın katibi möhürlənmək üçün ayrı-ayrı paketlərə yerləşdirir:

- ✔ daşınan seçki qutusunun siyahısını (əgər varsa);
- ✔ korlanmış seçki bülletenlərini;
- ✔ qeydiyyatçılarda mövcud olan istifadə olunmamış seçki bülletenlərini (paketə yerləşdirməzdən əvvəl komissiyanın katibi qeyd olunan seçki bülletenlərinin küncünü kəsir).

Komissiyanın katibi hər bir paketdə seçki dairəsinin adını və nömrəsini, seçki məntəqəsinin adını və nömrəsini, seçki sənədlərinin növünü göstərir. Möhürlənmiş paketlərə, möhürlənmə zolağında sayıcılar və komissiyanın sədri imzalayırlar.

Daşınan seçki qutusu siyahısı və istifadə olunmamış/korlanmış seçki bülletenləri möhürləndikdən sonra komissiyanın katibi seçicinin üzü və təqdim edilmiş sənəddə/seçici siyahısında olan fotoşəkil arasındakı uyğunsuzluqla bağlı halların sayını, habelə qeydlər kitabına əlavə edilmiş sənədlərin sayını (məlumatlar qeydlər kitabına daxil edilir) qeydə alır. Komissiyanın katibi qeyd olunan sənədləri möhürləyir, möhürlənmiş paketin üzərinə seçki məntəqəsinin adını, nömrəsini, sənədlərin növünü göstərir imzalayır.

## Əsas seçki qutularının açılması, seçki bülletenlərin sayılması/möhürlənməsi

Məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququ olan şəxslərin iştirakı ilə əsas seçki qutularının möhürlərinin bütövlüyünü yoxlayır və əsas seçki qutularını açır.

> Seçki qutusunun möhürünün bütövlüyünün pozulduğu aşkar edildikdə, lakin komissiya bunun qanunvericiliyin tələblərinin pozulmasına səbəb olmadığını hesab edərsə, komissiyanın sərəncamına əsasən səsvermə nəticələrinin yekun proseduru davam edir (qeyd olunan fakt barədə dərhal dairə seçki komissiyasına məlumat verilir). Əks halda seçki qutusu möhürlənir və komissiyanın sərəncamı ilə birlikdə dərhal dairə seçki komissiyasına təhvil verilir.

Sayıcılar əsas qutulardan tökülən bülletenləri qarışdırırlar və seçki bülletenlərin çeşidlənməsi/sayılması prosesini başlayırlar.

Seçki bülletenlərini çeşidləmək və saymaq üçün birinci sayıcı seçki bülletenini alır, səsin kimə verildiyini bildirir, seçki bülletenini seçki subyektləri üzrə ikinci və üçüncü sayıcıya verir, lakin dördüncü sayıcıya korlanmış seçki bülletenlərini (mövcud olduğu halda) verir.

Seçki bülletenində hər hansı bir digər işarənin/yazının olmasından asılı olmayaraq (əgər belə işarə/yazı varsa), yalnız bir seçki subyektinin adının qarşısında müvafiq dairənin rənglənmiş və/və ya işarələnmiş müəyyən edilmiş nümunədə olan seçki bülletenləri həqiqidir.
Müəyyən edilmiş nümunəli seçki bülleteni aşağıdakı hallarda batil sayılır:

- ✔ birdən çox seçki subyektinin adının qarşısındakı müvafiq dairə rənglənib və/və ya işarələnib;
- ✔ heç bir seçki subyektinin adının qarşısındakı müvafiq dairə rənglənməyib və/və ya işarələnməyib.

Komissiya sədri seçki bülletenlərini çeşidlədikdən sonra sayıcılara aşağıdakıları saymağı tapşırır:

- ✔ batil hesab edilən seçki bülletenləri (o cümlədən daşınan seçki qutusundan çıxarılan xüsusi çərçivə zərfində aşkar olunmuş müəyyən edilən sayından artıq olan seçki bülletenlərini);
- ✔ hər bir seçki subyekti üçün verilən səsləri.

Komissiyanın sədri hər bir seçki subyektinin aldığı səslərin sayını elan edir. Komissiyanın sədri komissiyanın katibi ilə birlikdə məlumatların düzgünlüyünü yoxlayır: əgər seçki subyektləri tərəfindən alınmış səslərin və batil seçki bülletenlərin cəmi səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayından çox olarsa, komissiyanın sədri məlumatların yenidən hesablanması üçün sayçılara göstəriş verir.

Komissiyanın katibi seçki bülletenlərin hesablanmasının nəticələrini qeydlər kitabına və səsvermənin nəticələrinin nümayişi protokoluna daxil edir.

Seçki bülletenləri hesablandıqdan sonra komissiyanın sədri sayıcılara aşağıda göstərilənləri ayrı-ayrı paketlərə möhürləməyi tapşırır:

- ✔ batil sayılmış seçki bülletenləri;
- ✔ başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş batil seçki bülletenləri (mövcud olduğu halda). Başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş batil seçki bülletenlərinin sayı yalnız qeydlər kitabında qeyd olunur;
- ✔ seçki subyektlərinə məxsus seçki bülletenlərinin dəstəsi.

Hər zərfdə/bağlamada yalnız bir növ seçki sənədləri möhürlənir.

Hər bir seçk subyektinə məxsus seçki bülletenlərinin paketinə dairə və məntəqə seçki komissiyalarının adı və nömrəsi, subyektin məlumatları (adı) və onun aldığı səslərin sayı, habelə bu paketə qoyulmuş seçki bülletenlərin sayı yazılmalıdır.

Batil hesab edilmiş seçki bülletenlərinin paketinə dairə və məntəqə seçki komissiyalarının adı və nömrəsi, seçki bülletenlərinin növü (batil) və sayı yazılmalıdır.

Möhürlənmiş paketləri sayıcılar və komissiyanın sədri imzalayır. Göstərilən tələblərin yerinə yetirilməməsinə görə məntəqə seçki komissiyasının sədri məsuliyyət daşıyır.

## Səsvermə nəticələrinin yekun protokolunun tərtib edilməsi

Seçki məntəqəsində səsvermənin nəticələri yalnız Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydada tərtib edilmiş məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolu ilə təsdiq edilir.

Məntəqə seçki komissiyasının səsvermə nəticələrini yekunlaşdıran protokol mühafizə nişanları olan kağızda çap olunur, protokola fərdi nömrə verilir. Məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolunda çap olunmuş formada aşağıdakı məlumatlar göstərilir:

- ✔ seçkilərin adı və səsvermə tarixi;
- ✔ seçki dairəsinin nömrəsi və adı;
- ✔ seçki məntəqəsinin nömrəsi;
- ✔ müstəsna hallarda yaradılmış (əgər varsa) əsas seçki məntəqəsinə əlavə edilmiş seçki məntəqəsinin nömrəsi;
- ✔ 1 nömrəli qrafada – vahid siyahı üzrə seçicilərin sayı;
- ✔ 2 nömrəli qrafada – alınmış seçki bülletenlərinin sayı;
- ✔ seçki subyektlərinin adı (sıra nömrələri göstərilməklə);
- ✔ protokolun tərtib olunduğu il və ay.

Səslərin hesablanması prosesi başa çatdıqdan sonra komissiyanın katibi komissiyanın sədri ilə razılaşdırmaqla səsvermə nəticələrinin yekun protokolunu doldurur və aşağıdakı məlumatları daxil edir:

- ✔ 3 nömrəli qrafada – xüsusi siyahıda olan seçicilərin sayını;
- ✔ 4 nömrəli qrafada – saat 12:00 və 17:00-da səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını;
- ✔ 5 nömrəli qrafada – səsvermədə/seçkilərdə iştirak edən seçicilərin ümumi sayını;
- ✔ N6 qrafada – batil hesab edilmiş seçki bülletenlərinin sayını;
- ✔ seçki subyektlərinə verilən səslərin sayını.
- ✔ komissiyanın xüsusi möhürünün nömrəsini.

> 3, 4, 5, 6-cı qrafalarda, habelə subyektlərə verilmiş səslərin sayının qrafalarda olan dörd xanadan dördüncü (axırıncı) xanada katib təkliklər sırasının rəqəmini, üçüncü xanada – onluqlar sırasının rəqəmini, ikinci xanada - yüzlüklər sırasının rəqəmini, birinci xanada - minliklər rəqəmini daxil etməlidir;
>
> əgər müvafiq məlumat qrafasında boş xana/xanalar qalarsa, komissiyanın katibi boş xana/xanalara “X” işarəsi daxil etməlidir.

*Səsvermə nəticələrini yekunlaşdıran protokolun doldurulması nümunəsi*




Məntəqə seçki komissiyasının bütün üzvləri səsvermə nəticələrinin yekun protokolunu imzalamağa, bununla da seçki məntəqəsində olduqlarını təsdiq etməyə borcludurlar. Məntəqə seçki komissiyasının üzvü məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokoluna daxil edilmiş məlumatlarla razılaşmadıqda, protokola yazılı şəkildə başqa rəy əlavə etmək hüququna malikdir (səsvermə nəticələrinin yekun protokolunda xüsusi ayrılmış qrafada, komissiya üzvünün razılaşmadığı məlumatlar qeyd olunur və onu, imzası ilə təsdiqləyir). Hətta fərqli rəy bildirildikdə belə, komissiya üzvü səsvermə nəticələrinin yekun protokolunu komissiya üzvünün imzası üçün müvafiq qrafada imzalamağa borcludur.

> Məntəqə seçki komissiyası tərəfindən tərtib edilmiş səsvermənin nəticələrini yekunlaşdıran protokol məntəqə seçki komissiyası üzvlərinin əksəriyyəti tərəfindən imzalandıqda hüquqi qüvvəyə malikdir.

Səsvermənin nəticələrinin yekun protokolunda onların tərtib olunma tarixi və vaxtı (saat və dəqiqə) da göstərilməlidir.

*Səsvermə nəticələrinin yekun protokolundan nümunə*


შედგენის თარიღი - "26" 10 2024 წ., დრო: 21 საათი 45 წუთი, კომისიის ბეჭდის ნომერი 11207

Səsvermə nəticələrinin yekun protokolu məntəqə seçki komissiyasının xüsusi möhürü ilə təsdiqlənir. Komissiyanın katibi səsvermə nəticələrinin yekun protokolunu qeydiyyat jurnalının keçmiş sənədləşmə hissəsində qeydə alır.

> Səsvermə nəticələrinin yekun protokoluna daxil edilmiş məlumatların düzəlişi qadağandır.

Səsvermə nəticələrinin yekun protokolunun 3, 4, 5, 6 nömrəli qrafalarında, habelə namizədlərə verilmiş səslərin sayı qrafalarında məlumatlar daxil edilərkən səhvə yol verilmişdirsə, səhvi düzəltmək üçün səsvermə nəticələrinin yekun protokolunda müvafiq məlumatların kənarında "Düzəliş edildi" qeydi aparılır və düzəliş protokolu tərtib edilir.

Komissiyanın katibi komissiyanın sədri ilə razılaşdırmaqla aşağıdakı məlumatları özündə əks etdirən düzəliş protokol tərtib edir:

- ✔ seçki dairəsinin nömrəsi və adı;
- ✔ seçki məntəqəsinin nömrəsi;
- ✔ səsvermə nəticələrinin yekun protokolunun düzəlişin daxil olduğu müvafiq qrafanın nömrəsi; bu qrafada düzəliş ediləcək rəqəm və onun yerinə yazılacaq rəqəm;
- ✔ seçki subyektinin adı, hansının ki, kənarında məlumatlara düzəliş daxil edilir;
- ✔ bu qrafada düzəliş edilməli olan rəqəm və onun yerinə yazılmalı olan rəqəm.

*Səsvermənin nəticələrinin xülasəsi və düzəliş protokolunun nümunəsi*






Seçki komissiyasının bütün iştirak edən üzvləri düzəliş protokolunu imzalamağa borcludurlar. Düzəliş protokoluna seçki komissiyasının xüsusi möhürü vurulur. Komissiyanın katibi düzəliş protokolunu qeydiyyat jurnalının keçmiş sənədləşmə hissəsində və səsvermə gününün qeydlər kitabında qeydə alır. Düzəliş protokolu səsvermə nəticələrinin yekun protokoluna əlavə olunur.

Məntəqə seçki komissiyasının xüsusi möhürü möhürləndikdən və komissiyanın bütün üzvləri tərəfindən imzalandıqdan sonra səsvermənin yekun protokolunun dəyişiklik protokolunu tərtib etmək qadağandır.

Səsvermənin nəticələrinin yekun protokolu doldurularkən səhvə yol verildikdə, komissiyanın xüsusi möhürünün nömrəsi, səsvermə nəticələrinin yekun protokolunun tərtib edildiyi tarix/vaxt qeyd edilərkən, və ya səsvermə nəticələrinin yekun protokolu komissiyanın xüsusi möhürü ilə təsdiq edilmədikdə və onun surəti belə formada verildikdə, komissiyanın katibi izahat yazmalıdır.

## Səsvermə nəticələrinin yekun protokolunun açıqlanması

Məntəqə seçki komissiyası səsvermə nəticələrinin yekun protokolunun surətini dərhal, protokolu doldurduqdan sonra texniki vasitələrdən (planşetlərdən) istifadə etməklə MSK göndərməyə borcludur. Bu məqsədlə məntəqə seçki komissiyasının sədri planşetdən istifadə etməklə səsvermə nəticələrinin yekun protokolunun surətini çəkib və MSK-ya göndərir.

Planşetdə texniki xəta aşkar edildikdə (məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolunun göndərildiyi MSK-nın aplikasiyasında problem yaranıb) və xətanı düzəltmək mümkün olmadıqda, səsvermə nəticələrinin yekun protokolu məntəqə seçki komissiyasının səlahiyyətli şəxsləri tərəfindən digər seçki sənədləri ilə birlikdə onun elektron idarəetmə sisteminə yüklənməsini təmin edən dairə seçki komissiyasına verilir.

Seçki məntəqəsində kəsilməz mobil rabitə və internet bağlantısı olmadıqda, bu halda səsvermə nəticələrinin yekun protokolunun surəti səsvermə binasının xarici perimetrindən MSK-ya göndərilə bilər, yaxud səsvermə nəticələrinin yekun protokolu səlahiyyətli şəxslər tərəfindən digər seçki sənədləri ilə birlikdə onun elektron idarəetmə sisteminə yüklənməsini təmin edən dairə seçki komissiyasına verilir.

Planşetdən istifadə etməklə, dəyişiklik protokolunun (əgər varsa) surəti, komissiya üzvlərinin fərqli rəy sənədinin (əgər varsa) surəti, komissiya üzvü/komissiya katibinin yekun protokolla bağlı izahatının (əgər varsa) surəti, daşınan seçki qutusundan seçki bülletenlərinin əsas seçki qutusuna yerləşdirilməsi zamanı aşkar edilmiş hallarla əlaqədar (əgər varsa) komissiya tərəfindən tərtib edilmiş aktın surəti göndərilir.

*Sxem N9. Yekun protokolun fotosurətinin MSK-ya göndərilməsi prosesinin mərhələlərinin təsviri*



{I}

Proqramı aktivləşdirdikdən sonra komissiyanın sədri proqram menyusuna daxil olur.




{II}

Komissiya sədri “Protokol” düyməsini sıxır.




{III}

Komissiya sədri Proporsional” düyməsini sıxır.



{IV}

Komissiya sədri fotoaparatı əks etdirən düyməni sıxır.




{V}

Komissiya sədri “Çəkmək” düyməsini sıxır və aparat vasitəsilə protokolun fotosurətini çəkir.




{VI}

Komissiyanın sədri protokolun fotosurətini göndərmək üçün “Göndər” düyməsini sıxır.

Komissiya səsvermə nəticələrinin yekun protokolunun fotosurətlərini ictimaiyyətin məlumatlandırılması üçün asmağa borcludur. Məntəqə seçki komissiyası səsvermə nəticələrinin yekun protokolunun və dəyişiklik protokolunun (əgər varsa) fotosurətlərini komissiya üzvlərinin əlavə edilmiş fərqli fikirlərini (əgər varsa) tələb edildikdə dərhal səsvermədə iştirak etmək hüququ olan bütün şəxsə təhvil verir.

Səsvermə nəticələrinin yekun protokolunun və dəyişiklik protokolunun (əgər varsa) fotosurətlərini komissiyanın xüsusi möhürü ilə, komissiya sədrinin və komissiya katibinin imzaları ilə təsdiq edilməlidir. Qəbul edən şəxs səsvermə gününün qeydlər kitabına və qeydiyyat jurnalına imza atmaqla fotosurətlərin alınmasını təsdiq edir.

> Səsvermə nəticələrinin yekun protokolu və onun müəyyən edilmiş qaydada təsdiq edilmiş fotosurəti bərabər hüquqi qüvvəyə malikdir.

Səsvermə nəticələrinin yekun protokolu/dəyişiklik protokolu ilə bağlı komissiya üzvlərinin izahatları (əgər varsa), tələb edildikdən sonra 2 gün müddətində dairə seçki komissiyası tərəfindən tələb edilmə əsasında verilir.

Komissiyanın katibi yekun protokolun surətlərini verdikdən sonra qeydiyyat jurnalını və qeydlər kitabını bağlayır. Bu məqsədlə qeydiyyat jurnalında və qeydlər kitabında sonuncu yazıdan sonra komissiyanın katibi “Bağlıdır” yazısı yazır, tarixi, dəqiq vaxtını göstərir, komissiyanın sədrinin imzası ilə birlikdə və komissiyanın xüsusi möhürü ilə qeydi təsdiqləyir.

*Qeydlər kitabının bağlanması nümunəsi*

№ 112 საარჩევნო ოლქი | №112.07 საარჩევნო უბანი

შემაჯამებელი ოქმის ფოტოასლის მიღების დადასტურება

| № | სახელი, გვარი | სტატუსი | წარმდგენის (ორგანიზაციის) დასახელება | ხელმოწერა |
|---|---|---|---|---|
| 1 | ნიკა გელაშვილი | ადგილ. დამკვირვებელი | ააიპ „დემოკრატია ქენია" | ნ. გელაშვილი |
| 2 | ნუცა ყორიცაძე | მედია | ტელევიზია „ნათელი მზერა" | ნ. [illegible] |
| 3 | ვაჟილო ვაპანაძე | სუბიექტის წარმომადგენელი | პოლიტიკური პარტია 199 | ვ. [illegible] |
| | | | | |
| | | | ნ. ნინოშვილი | |
| | | | დ. დავითყლიანი | |
| | | | დახურულია 26.10.2024 22:00 სთ | |

## Seçki sənədlərinin, elektron aparatların və digər inventarın dairə seçki komissiyasına təhvil verilməsi

Məntəqə seçki komissiyası seçki sənədlərini, elektron aparatları və digər inventarın dairə seçki komissiyasına təhvil vermək üçün möhürləyir:

- ✔ qeydlər kitabını və onunla birlikdə:
  - ərizələri/şikayətləri (əgər varsa);
  - seçicilərin verifikasiya aparatlarından çap edilmiş ilkin hesabatları və aparatdan çap edilmiş yekun hesabatı;

- xüsusi elektron səs sayma aparatlarından çap edilmiş “sıfır çıxarışları” və aparatdan ilkin nəticələr haqqında konsolidasiya edilmiş çıxarışı

✔ məntəqə seçki komissiyasının xüsusi möhürünü.

| |
|---|
| Səsvermə nəticələrinin yekun protokolu və qeydiyyat jurnalı möhürlənmir. |

Qeydlər kitabının möhürlənmiş paketini komissiyanın sədri və komissiyanın katibi imzalayır. Komissiyanın xüsusi möhürü ilə möhürlənmiş paketi komissiyanın bütün iştirak edən üzvləri imzalayır.

Möhürləmə proseduru başa çatdıqdan sonra məntəqə seçki komissiyasının sədri və/və ya komissiyanın katibi dairə seçki komissiyasına aparır:

✔ səsvermə nəticələrinin yekun protokolunu, düzəliş protokolunu (əgər varsa) və fərqli fikiri əks etdirən sənədi (əgər varsa);

✔ qeydiyyat jurnalı və onunla birlikdə məntəqə komissiyası üzvlərinin/komissiya katibinin izahatları (əgər varsa);

✔ qeydlər kitabının möhürlənmiş paketi;

✔ elektron vasitələrdən istifadə etməklə keçirilən səsvermənin auditinin təsdiqinin doldurulmuş forması.

| |
|---|
| Seçki sənədlərinin hər bir növü təhvil verilərkən müvafiq təhvil-təslim aktı/aktları tərtib edilir və bunu səlahiyyətli şəxslər imzalayırlar. |

Məntəqə seçki komissiyasının sədri və ya komissiya sədrinin müavini digər möhürlənmiş sənədlərlə birlikdə təhvil-təslim aktı əsasında dairə seçki komissiyasının səlahiyyətli şəxsinə dairə seçki komissiyasının anbarında təhvil verməlidirlər:

✔ verifikasiya aparatından/aparatlarından çap edilmiş seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş möhürlənmiş qutuları;

✔ seçicilərin verifikasiya aparatları, xüsusi elektron səs sayma aparatları;

✔ planşeti

| |
|---|
| Verifikasiya aparatlarının, xüsusi elektron səs sayma aparatlarının və planşetin təhlükəsiz daşınması vacibdir. |

## Biliyin özünüqiymətləndirməsi üçün suallar

1. Səsvermə başa çatdığı zamanı (saat 20:00) növbədə duran seçicilər olduqda məntəqə seçki komissiyası necə hərəkət edir?
2. Seçicilərin verifikasiya aparatında verifikasiya prosesinin başa çatdırılması üçün məsul kimdir və hansı prosedura əməl olunur?
3. Daşınan seçki qutusu hansı məqsədlə və hansı prosedurla açılır?
4. Daşınan seçki qutusundan çıxarılan xüsusi çərçivə zərfində birdən çox seçki bülleteni aşkar edilərsə, nə baş verir?
5. Daşınan seçki qutusundan çıxarılmış seçki bülleteni xüsusi elektron səs sayma aparatı geri qaytararsa, nə baş verir?
6. Xüsusi elektron səs sayma aparatlarında səsvermə prosesinin başa çatdırılması üçün məsul kimdir və hansı prosedura əməl olunur?
7. Konsolidasiya edilmiş çıxarış nədir və orada göstərilən məlumatlar MSK-ya necə göndərilir?
8. Məntəqə seçki komissiyasının sədri sayıcıları necə müəyyən edir?
9. Məntəqə seçki komissiyasının sədri seçki bülletenlərinin hesablanması prosesində iştirak etmək hüququ olan seçki subyektlərinin nümayəndələrini necə müəyyən edir?
10. Qeydiyyatçıların yanında olan istifadə olunmamış seçki bülletenləri hansı prosedurla möhürlənir?
11. Nə baş verər, əgər:
    - ✔ daşınan seçki qutusunun üzərindəki möhürün bütövlüyü pozulmuş aşkar olunarsa?
    - ✔ əsas seçki qutusunun üzərindəki möhürün bütövlüyü pozulmuş aşkar olunarsa?
12. Müəyyən edilmiş nümunəvi seçki bülleteni hansı hallarda batil sayılır?
13. Hər bir seçki subyektinə aid olan seçki bülletenlərinin paketində hansı məlumatlar qeyd olunur?
14. Seçki sənədləri/inventar möhürlənərkən kim imza edir:
    - ✔ daşınan seçki qutusunun siyahısının möhürlənmiş paket zolağında?
    - ✔ seçki subyektinə məxsus seçki bülletenlərinin möhürlənmiş paketinin zolağında?
    - ✔ komissiyanın xüsusi möhürünün möhürlənmiş bağlama zolağında?
    - ✔ qeydlər kitabının möhürlənmiş paketinin zolağında?
15. Səsvermə nəticələrinin yekun protokolunu kim imzalayır?
16. Səsvermə nəticələrinin yekun protokolu hansı halda hüquqi qüvvəyə malik hesab edilir?
17. Səsvermə nəticələrinin yekun protokolunu doldurulması zamanı namizədlərə verilən səslərin sayının qrafasında məlumatları doldurarkən səhvə yol verildikdə nə baş verir?
18. Səsvermənin nəticələrinin yekun protokolu doldurulması zamanı protokolun tarixi/saatı daxil edilərkən səhvə yol verildikdə nə baş verir?
19. Məntəqə seçki komissiyası səsvermə nəticələrinin yekun protokolunun ictimailəşdirilməsini necə təmin edir?
20. Məntəqə seçki komissiyası seçki məntəqəsində olmaq hüququ olan şəxslərə yekun protokolun fotosurətini hansı qaydada verir?
21. Məntəqə seçki komissiyasından möhürlənmiş seçki sənədlərinin/inventarın və elektron aparatların dairə seçki komissiyasına təhvil verilməsinə kim cavabdehdir?

# 06
# Məntəqə seçki komissiyası səsvermə günü ərizə və şikayətlərə necə cavab verir

Məntəqə seçki komissiyası seçki qanunvericiliyinə dəqiq və ardıcıl riayət etməklə seçki mübahisələrinin qarşısını alır/cavab verir. Məntəqə seçki komissiyası, sədrin rəhbərliyi ilə səsvermə günün ərizələr/şikayətlərlə bağlı aşağıdakıları təmin edir:

- prosesin şəffaf və qərəzsiz aparılmasını
- maraqlı şəxslər üçün ərizələrin/şikayətlərin təqdim edilməsi və qeydiyyat prosedurunun izah edilməsini
- ərizələrin/şikayətlərin təqdim edən şəxslərlə etik ünsiyyəti
- ərizələr/şikayətlələ bağlı faktların, halların araşdırılması və müvafiq cavabın verilməsini

## Seçki günü ərizələrin/şikayətlərin təqdim edilməsi və qeydiyyatı

Seçki subyektinin məntəqə seçki komissiyasındakı nümayəndəsinə və yerli müşahidə təşkilatının müşahidəçisinə səsvermə və səslərin hesablanması prosedurlarının pozulması barədə ərizə/şikayətlə məntəqə seçki komissiyasına müraciət etmək hüququ verilir.

Seçki məntəqəsində səsvermə prosedurunun pozulması ilə bağlı ərizə/şikayət pozuntu aşkar edilən kimi səlahiyyətli şəxs tərəfindən səsvermə günü əsas seçki qutusu açılanadək saat 06:45-dən etibarən tərtib edilməlidir, lakin səslərin hesablanması və səsvermənin nəticələrinin yekunlaşdırılması prosedurları zamanı yol verilmiş pozuntuya dair (səsvermənin nəticələrinə yenidən baxılması və ya batil hesab edilməsi tələbi) ərizə/şikayət əsas seçki qutusunun açılmasından səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsinə kimi tərtib olunmalıdır.

Seçki subyektinin nümayəndəsinin, yerli müşahidə təşkilatının müşahidəçisinin səsvermə günün ərizə/şikayəti məntəqə seçki komissiyasının sədrinə, onun müavininə və ya komissiyanın katibinə vermək hüququ var. Komissiyanın katibi ərizəni/şikayəti qeydiyyat jurnalında və qeydlər kitabında qeydə alır, lakin ərizəçiyə/şikayətçiyə qəbul edilmiş müvafiq ərizənin/şikayətin tarixini, vaxtını və qeydiyyat nömrəsini göstərməklə arayış (öz imzası ilə) verir.

Səsvermə binasında olmaq hüququ olan şəxslər şikayətin qeydə alınması zamanı pozuntu aşkar etdikdə, məntəqə seçki komissiyası bu şikayətin qeydə alınması barədə qərar qəbul edir.

Seçki subyektinin nümayəndəsi/müşahidəçisinin səsvermə günü seçki prosedurları ilə bağlı iddia, şikayət və qeydlərini səsvermə günü qeydlər kitabının 10-cu və sonrakı səhifələrində qeyd etmək hüququ vardır. Belə halda şəxs qeydlər kitabında öz soyadını, adını və ünvanını göstərməyə borcludur (Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsinə uyğun olaraq).

> Heç kəsin səsvermə binasında olmaq hüququ olan şəxsin iddia, qeyd və ya şikayəti qeydlər kitabına daxil etməsinə mane olmağa hüququ yoxdur.

## Səsvermə günü ərizələrdə/şikayətlərdə xətanın aşkar edilməsi qaydası

Məntəqə seçki komissiyasının katibi, komissiyanın sədri və ya komissiyanın sədr müavini ərizə/şikayəti təqdim edəndə xəta  müəyyən etdikdə və onun doldurulması üçün ağlabatan müddət müəyyən edir, əgər ərizədə/şikayətdə aşağıdakılar qeyd olunmayıbsa,:

- ✔ ərizənin/şikayətin tərtib edildiyi tarix və vaxt;
- ✔ ərizəçinin/şikayətçinin adı, soyadı və qeydiyyat yeri;
- ✔ seçki məntəqəsinin nömrəsi;
- ✔ şahid olduqda - onun adı, soyadı və qeydiyyat yeri.

Ərizəçi/şikayətçi müəyyən edilmiş müddətdə analoji ərizə/şikayət təqdim etməklə qüsuru doldurmaq və ya yeni ərizə (burada xətanın aşkar edildiyi məlumatlar göstərilir) təqdim etmək hüququna malikdir. Komissiyanın katibi qeydiyyat jurnalında "Xəta" qeydi edir. Qeydin kənarında ərizəni/şikayəti təqdim edəni və komissiyanın müvafiq rəhbər şəxsi imzalayır.

> Xətanın doldurulması müddəti tərəflərin razılığı əsasında müəyyən edilir. Tərəflər arasında fikir ayrılığı yarandıqda ərizəni/şikayəti qəbul edən şəxs müddəti fərdi qaydada müəyyən edir.

Xəta doldurulduqda komissiyanın katibi, komissiyanın sədri və ya komissiya sədrinin müavini qeydiyyat jurnalında "Doldurulub" yazır və xətanın doldurulmasının dəqiq vaxtını və tarixini göstərir. Qeydin kənarında ərizənin/şikayətin təqdim edəni və komissiyanın müvafiq rəhbəri imzalayır.

> Göstərilən müddətdə xəta doldurulmazsa ərizə/şikayətə baxılmayacaq.

## Səsvermə günü ərizələrə/şikayətlərə cavab vermək

Məntəqə seçki komissiyasının sədri/komissiya ərizə/şikayətə dərhal müvafiq cavab verməyə və mövcud pozuntunu aradan qaldırmağa borcludur. Ərizədə/şikayətdə göstərilən pozuntu aradan qaldırıldıqda komissiyanın katibi səsvermə gününün qeydlər kitabına "pozuntu aradan qaldırılıb" yazır və dəqiq vaxtı göstərir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

კენჭისყრის პროცედურების დარღვევის შესახებ
განცხადების/საჩივრის რეგისტრაცია

| რეგის-ტრაცი-ის № | განცხადების/საჩივრის არსი | განცხადებაზე/საჩივარზე რეაგირება ზუსტი დროის მითითებით (დარღვევა აღმოფხვრილია) |
|---|---|---|
| 2 | [illegible] | [illegible] 17:00 საათი. |

Məntəqə seçki komissiyasının sədri/komissiyası pozuntunu aradan qaldırmadıqda və ya ərizəyə/şikayətə başqa formada cavab verməkdən imtina etdikdə, müşahidəçi/seçki subyektinin nümayəndəsi və ya həmin müşahidə təşkilatının digər müşahidəçisi/seçki subyektinin digəri nümayəndəsi seçki məntəqəsi açıldığı andan (saat 06:45-dən) əsas seçki qutusu açılanadək aşkar edilmiş pozuntular barədə dərhal müvafiq Dairə Seçki Komissiyasına şikayət vermək hüququna malikdir (dairə seçki komissiyası pozuntunun aradan qaldırılması üçün müvafiq tədbirlər görməyə borcludur).

Məntəqə seçki komissiyasının sədri/komissiya səslərin hesablanması və səsvermənin nəticələrinin yekunlaşdırma proseduru zamanı yol verilmiş pozuntuları aradan qaldırmadıqda və ya ərizəyə/şikayətə digər formada cavab verməkdən imtina etdikdə, müşahidəçi/seçki subyektinin nümayəndəsi və ya eyni müşahidə təşkilatının digər müşahidəçisi/seçki subyektinin digər nümayəndəsi məntəqə seçki komissiyasının/məntəqə seçki komissiyası sədrinin hərəkətindən 3 təqvim günü müddətində müvafiq dairə seçki komissiyasına (dairə seçki komissiyası ərizəyə/şikayətə qəbul etdiyindən 4 təqvim günü ərzində baxır) şikayət etmək hüququna malikdir.

Məntəqə seçki komissiyası təqdim edilmiş ərizəyə/şikayətə baxmayacaq və aşağıdakı hallarda ərizənin/şikayətin baxılmamış saxlanılması barədə qərar qəbul edir, əgər:

- ✔ ərizə/şikayət səlahiyyəti olmayan şəxs tərəfindən tərtib edilmişdir;
- ✔ ərizədə/şikayətdə pozuntunun mahiyyəti və onun törədildiyi vaxt göstərilmiyib;
- ✔ ərizə/şikayət qanunla müəyyən edilmiş müddət və qaydalar pozulmaqla verilmişdir;
- ✔ təqdim edilmiş ərizə/şikayətdəki xəta nəzərdə tutulmuş müddətdə doldurulmamışdır.

## Biliyin özünüqiymətləndirməsi üçün suallar

1. Səsvermə günü ərizə/şikayətlə kimin məntəqə seçki komissiyasına müraciət etmək hüququ var?
2. Məntəqə seçki komissiyasından kim və hansı hallarda ərizə/şikayətdəki xətanı müəyyən edir?
3. Məntəqə seçki komissiyası hansı hallarda səsvermə günü ərizəni/şikayəti baxılmamış qoyur?

# ƏLAVƏ N1

## Elektron aparatların yığılması haqqında məlumat sənədi

### Seçicilərin verifikasiya aparatlarının yığılması

Verifikasiya aparatının düzgün işləməsi üçün termal kağız müvafiq bölmədə düzgün istiqamətdə yerləşdirilməlidir.





Termal kağızın düzgün yerləşdirilməsini termal kağızın səthini hər hansı bir sərt əşya və ya dırnaqla cızmaqla yoxlamaq olar (səthdə iz qalmalıdır).

Hər bir verifikasiya aparatını enerji qaynağına qoşmaq üçün aparatın arxasındakı porta qida bloku və adapter kabeli qoşulmalıdır.
Adapter kabeli enerji qaynağına qoşulmalıdır (zəruri hallarda enerji qaynağına qoşulmaq üçün elektrik uzadıcı kabelindən istifadə olunur).


Verifikasiya aparatı


Qida bloku


Adapter kabeli


Elektrik uzadıcı kabeli

Enerji qaynağına qoşulduqdan sonra verifikasiya aparatı doldurulmağa başlayır.



Doldurma aparatın sağ tərəfində/kənarında olan işıqların yanıb-sönməsi ilə göstərilir.
İşıqların üstündəki kiçik düyməni sıxmaqla aparatın doldurulma səviyyəsi haqqında məlumat əldə edə bilərsiniz.

Aparatların bir-birinə qoşmaq (sinxronlaşdırmaq) üçün hər bir şəbəkə kabelinin bir ucu hər bir aparatın yan tərəfindəki müvafiq porta, şəbəkə kabelinin digər ucu isə huba (hub - aparatların bir-birinə qoşulmasını / sinxronizasiyasını təmin edir) birləşdirilir.


Şəbəkə kabeli


Hub


Şəbəkə kabeli

Hubı enerji qaynağına qoşmaq üçün:

✔ Hubın qida bloku huba qoşulmalıdır;

✔ Hubın qida bloku kəsilməz enerji qaynağına (UPS) qoşulmalıdır;

✔ Kəsilməz enerji qaynağı (UPS) enerji qaynağına qoşulmalıdır (zəruri hallarda enerji qaynağına qoşulmaq üçün elektrik uzadıcı kabelindən istifadə olunur).


Habın qida bloku



Kəsilməz enerji qaynağı (UPS)

Aparatlar elə yerləşdirilməlidir ki, naqillərlə mexaniki toxunduqda onların düzgün işləməsində problem yaratmasın.

## Xüsusi elektron səs sayma aparatlarının yığılması

Səslərin sayılması üzrə aparatın düzgün işləməsi üçün termal kağız müvafiq bölmədə düzgün istiqamətdə yerləşdirilməlidir.



Termal kağızın düzgün yerləşdirilməsini termal kağızın səthini hər hansı bir sərt əşya və ya dırnaqla cızmaqla yoxlamaq olar (səthdə iz qalmalıdır).

Hər bir səs sayma aparatın enerji qaynağına qoşmaq üçün:

✔ qida bloku və adapter kabeli aparatın arxasında olan porta qoşulmalıdır;

✔ adapter kabeli kəsilməz enerji qaynağına (UPS) qoşulmalıdır;

✔ kəsilməz enerji qaynağı (UPS) enerji qaynağına qoşulmalıdır (zəruri hallarda enerji qaynağına qoşulmaq üçün elektrik uzadıcı kabelindən istifadə olunur).



Səs sayma aparatı



Qida bloku



Adapter kabeli



Kəsilməz enerji qaynağı (UPS)

Enerji qaynağına qoşulduqdan sonra səs sayma aparatının arxasındakı lampa yanır.



Enerji qaynağının düzgün qoşulması aparatın arxasındakı yanan lampa ilə göstərilir.

Aparatların bir-birinə qoşulması (sinxronizasiya) üçün şəbəkə kabelinin bir ucu bir aparatın yan tərəfindəki müvafiq porta birləşdirilməlidir, lakin şəbəkə kabelinin digər ucu –ikinci aparatın yan tərəfindəki müvafiq porta birləşdirilməlidir (şəbəkə kabeli - məlumatların sinxronizasiyası üçün aparatların bir-birinə qoşulmasını təmin edir).



Şəbəkə kabeli

3 səs sayma aparatının yerləşdiriləcəyi seçki məntəqələrində aparatların bir-birinə qoşulması (sinxronizasiya) üçün hər üç aparatın şəbəkə kabelinin bir ucu aparatın yan tərəfindəki müvafiq portlara birləşdirilməlidir, lakin şəbəkə kabelinin digər ucu - huba (hub - məlumatların sinxronizasiyası üçün aparatların bir-birinə qoşulmasını təmin edir).



Şəbəkə kabeli Hub

Aparatlar elə yerləşdirilməlidir ki, naqillərlə mexaniki toxunduqda onların düzgün işləməsində problem yaratmasın.

# Əlavə N2

## Səsvermə prosesinin elektron vasitələrdən istifadə olunmadan davam etdirilməsi

Bu əlavədə aşağıdakı hallarda məntəqə seçki komissiyasının nəzərə almalı olduğu prosedur fərqləri və müvafiq qaydalar göstərilir:

- Səsvermə prosesi seçiciləri verifikasiya aparatlarından istifadə edilmədən davam edir;
- Səsvermə prosesi xüsusi elektron səs sayma aparatından istifadə edilmədən davam edir.

Səsvermə prosesinin elektron vasitələrdən istifadə etmədən davam etdirilməsi barədə qərar qəbul etməzdən əvvəl nəzərə alınmalı məsələlər

Səsvermə prosesinin gedişatı zamanı seçicilərin verifikasiyası və xüsusi elektron səs sayma aparatlarda texniki xəta aşkar edildikdə, məntəqə seçki komissiyasının sədri səsvermə prosesini müvəqqəti dayandırılması haqqında qərar qəbul edir və bu barədə dərhal dairə seçki komissiyasına məlumat verməyə borcludur. Texniki xəta aradan qaldırılan kimi səsvermə aparatın/aparatların vasitəsilə davam etdirilir.

Səsvermə prosesi seçicilərin verifikasiyası və səslərin hesablanması üçün birdən çox xüsusi elektron aparatdan istifadə edilməklə aparılıbsa və texniki xətaya görə yalnız bir hissəsi fəaliyyətini dayandırıbsa, bu halda səsvermə prosesi qalan fəaliyyətdə olan seçicilərin verifikasiyasından və xüsusi elektron səs sayma aparatı/aparatlarından istifadə etməklə davam edir.

Seçicilərin verifikasiyası/xüsusi electron səs sayma aparatları ilə səsvermənin davam etdirilməsi mümkün olmadıqda, məntəqə seçki komissiyasının katibi müvafiq aparatdan/aparatlardan istifadə etmədən səsvermənin davam etdirilməsi haqqında akt tərtib edir və qeydlər kitabının32-ci səhifədə müvafiq qeyd edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

კომისიის თავმჯდომარის გადაწყვეტილება კენჭისყრის შეჩერებისა და ხმის ელექტრონული მთვლელი აპარატის/აპარატების გამოყენების გარეშე კენჭისყრის გაგრძელების თაობაზე

| შეჩერების მიზეზი | დრო | ხელმოწერა |
|---|---|---|
| | : | |

კომისიის თავმჯდომარის გადაწყვეტილება კენჭისყრის შეჩერებისა და ამომრჩეველთა ელექტრონული რეგისტრაციის აპარატის/აპარატების გამოყენების გარეშე კენჭისყრის გაგრძელების თაობაზე

| შეჩერების მიზეზი | დრო | ხელმოწერა |
|---|---|---|
| | : | |

Seçicilərin yoxlama aparatlarından istifadə etmədən səsvermə prosesinin davam etdirilməsi

## Səsvermə prosesi

Verifikasiya aparatları olmadan seçicilərin səsvermədə iştirak xidmətinin həyata keçirilməsi üçün məntəqə seçki komissiyasının sədri səsvermə binasında iş şəraitinin müvafiq qaydada uyğunlaşdırılmasını təmin edir. Komissiyanın sədri:

- ☐ verifikasiya aparatından həmin vaxt səsvermədə iştirak edən seçicilərin sayını/fəaliyyətini (əgər hər hansı aparat texniki cəhətdən buna imkan verirsə) əks etdirən qəbzi/hesabatı çap edir və saxlamaq üçün komissiyanın katibinə təhvil verir.
- ☐ dairə seçki komissiyasının nümayəndəsinə verifikasiya aparatlarının qeydiyyatçıların masalarından götürülməsini və müəyyən edilmiş qaydada aparatlar üçün nəzərdə tutulmuş qutularda saxlanmasını tapşırır.
- ☐ seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf qutuların yarığını möhürləyir və onları ayrı saxlayır.
- ☐ zəruri hallarda qeydiyyatçıların sayının artırılması haqqında qərar qəbul edir və funksiyanı yerinə yetirmək üçün komissiya üzvünə/üzvlərinə həvalə edir.
- ☐ qeydiyyatçılara seçki komissiyası üçün nəzərdə tututlmuş seçicilərin siyahılarını (fotoşəkilli stolüstü siyahı) və qeydiyyatçının xətkeşlərini, qeydiyyatçılardan birinə həmçinin seçicilərin xüsusi siyahısını (əgər varsa) verir.
- ☐ qeydiyyatçılara tapşırır ki, onlara verilmiş siyahılar üzrə seçicilərin sıra nömrələrini və soyadlarını əlifba sırası ilə qeydiyyat masalarında asırlar.

**I. Səsvermə otağına daxil olarkən seçici axının tənzimləyicisi ilə işarələnmənin yoxlanılması prosedurundan keçir.**

Axının tənzimləyicisi komissiya üzvü:



- ✔ səsvermə binasına daxil olan seçicilərin axınını tənzimləyir;
- ✔ seçicidən şəxsiyyəti təsdiq edən sənədi (Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsi, Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi və ya Gürcüstan vətəndaşının pasportu) təqdim etməyi xahiş edir;
- ✔ ultrabənövşəyi lampa ilə seçicinin əlində işarənin olub-olmamasını yoxlayır.

Yoxlamanın nəticələrini nəzərə alaraq:

- ✔ İşarələnmənin yoxlanılması üçün xüsusi cihaz seçicidə artıq işarənin olmasını aşkar edərsə, onun səsvermədə iştirakı qadağan edilir. Axının tənzimləyicisi seçicinin səsvermə otağına daxil olmaqdan imtina etməsini izah edir və seçici haqqında məlumatı qeydlər kitabına daxil edilməsi üçün komissiyanın katibinə bildirir.
- ✔ Seçici səsvermədə iştirak etmə tələblərinə cavab verərsə, axın tənzimləyicisi seçicinin seçicilər siyahısında soyadının baş hərfinin aid olduğu qeydiyyat masasına getməsini göstərir və seçici üçün nəzərdə tutulmuş qeydiyyat masasında ikidən çox seçici olmadıqda onu səsvermə otağına buraxır.

**Seçicilərin qeydiyyatı prosedurunun təsviri.** Qeydiyyatçı seçicidən şəxsiyyəti təsdiq edən sənədi təqdim etməyi xahiş edir. Qeydiyyatçı şəxsiyyəti təsdiq edən sənədin etibarlılıq müddətini, Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi olduqda isə sənədin verilmə tarixini yoxlayır.

Seçici qüvvədə olma müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya Gürcüstan vətəndaşının etibarsız hesab edilən qeyri elektron şəxsiyyət vəsiqəsini təqdim etdikdə (27 iyul 2011-ci il tarixinədək verilmiş qeyri-elektron şəxsiyyət vəsiqəsi etibarsızdır) onun səsvermədə iştirakı etməsi qadağandır. Qeydiyyatçı seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edir və onun şəxsiyyəti təsdiq edən etibarlı sənəd təqdim etdiyi halda səsvermədə iştirakına icazə veriləcəyini bildirir.

Sənədin qüvvədə olma müddətini yoxladıqdan sonra qeydiyyatçı seçicinin təqdim etdiyi sənədə daxil edilmiş seçicinin qeydiyyat məlumatlarına və seçici siyahısındakı məlumatların uyğunluğunu yoxlayır. Aşağıda sadalanan məlumatlardan ən azı 3-ü müvafiq seçicilər siyahısındakı Gürcüstan vətəndaşının şəxsi nömrəsinə, cinsinə və şəklinə tam uyğun gələrsə, seçici səsvermədə iştirak edir:

- ad;
- soyad;
- doğum tarixi (nömrə, ay, il);
- ünvan (Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi və ya xaricdə qeydiyyat yerinin də daxil olduğu agentliyin məlumat bazasına əsasən).



Qeydiyyatçı təqdim edilmiş sənəddə və seçicilər siyahısında fotoşəkli ilə seçicinin üzü arasındakı uyğunluğu yoxlayır. Qeydiyyatçı uyğunsuzluğun olduğunu hesab edərsə, qeydiyyatçı bu dərslik təlimatların 30-cu səhifəsində göstərilən qaydalara uyğun hərəkət etməlidir.

Seçicilər siyahısında seçici haqqında məlumatlarının uyğunluğu təsdiq edildikdə, qeydiyyatçı seçicinin sağ əlinin baş barmağının və ya şəhadət barmağının dırnağını (göstərilən hərəkət yerinə yetirmək mümkün olmadıqda – sağ əlin digər barmaqlarına və bu da mümkün deyilsə, eyni şəkildə sol əlinə) işarələyir.

İşarələnmə prosedurundan keçməkdən imtina edildikdə, seçicinin səsvermədə iştirak etmək hüququ yoxdur və qeydiyyatçı ona seçki məntəqəsini tərk etməyi izah edir.

İşarələnmə prosedurundan sonra seçicilərin qeydiyyatçısı komissiyasının üzvü seçicilərin vahid siyahısının müvafiq qrafasına imza atır və seçiciyə siyahıya imza atmaqla seçki bülleteni aldığını təsdiq etməyi tapşırır.



Səsvermə prosesi zamanı seçici seçki siyahısında digər seçicinin soyadının yanındakı qrafada imza atdığı aşkar edilərsə, bu halda soyadının yanında imza olan seçici həmin qrafada imza atmalıdır. Qeydiyyatçı yuxarıda qeyd olunanlarla bağlı izahat yazmalıdır (vahid seçicilər siyahısında seçicinin sıra nömrəsi, adı və soyadı göstərilməklə).

**Seçiciyə seçki bülleteni verilməsi proseduru.** Qeydiyyatçı seçicilərin qeydiyyatı prosedurunu başa vurduqdan sonra seçiciyə seçki bülleteninin doldurulması və xüsusi çərçivə zərfindən istifadə qaydalarını izah edir.

“Səs vermək üçün seçki bülletenində istədiyiniz yalnız bir subyektin qarşısındakı dairəni rəngləyin. Seçimi gizlətmək üçün seçki bülletenini qatlamayın və doldurulmuş bülleteni xüsusi çərçivə zərfinə qoymayın”.

Seçki bülleteni doldurduqdan və xüsusi çərçivə zərfindən istifadə qaydalarını izah etdikdən sonar qeydiyyatçı seçki bülletenini seçki subyektlərinin siyahısını tam əhatə etməsi üçün xüsusi çərçivə zərfinə yerləşdirir.

Qeydiyyatçı seçiciyə xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülleteninin yuxarı tərəfindəki sınaq dairəsini rəngləməyi tapşırır.



*Xüsusi çərçivə zərfinə yerləşdirilmişr seçki bülleteninin yuxarı tərəfində yerləşdirilmiş sınaq dairəsi*

Seçki bülletenin üzərində sınaq dairəsini rənglədikdən sonar qeydiyyatçı seçiciyə xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülletenini verir və ona izah edir ki, seçki bülleteni xüsusi çərçivə zərfindən istifadə etməklə səslərin sayılması üçün xüsusi elektron aparatına elə yerləşdirilməlidir ki, seçki bülleteninin tərəfi,harda ki, sınaq dairəsi yerləşdirilib aşağıda olsun. Bundan sonra qeydiyyatçı seçiciyə gizli səsvermə kabinəsinə keçməyi tapşırır.

**II. Seçici seçki bülleteni və səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə zərfini aldıqdan sonra gizli səsvermə kabinəsinə daxil olur.**

Seçici xüsusi markerdən istifadə edərək seçki bülleteni doldurur və onu xüsusi çərçivə zərfinə yerləşdirir.

Gizli səsvermə kabinəsində seçki bülleteni doldurularkən başqa şəxsin olması, foto və video çəkilişi qadağandır.

Seçki bülletenini müstəqil şəkildə doldura bilməyən seçici, seçki məntəqəsində olan hər hansı bir şəxsi aşağıdakılar istisna olmaqla gizli səsvermə kabinəsində ona kömək etmək üçün dəvət etmək hüququ vardır:

a) seçki komissiyasının üzvü;
b) namizəd;
c) seçki subyektinin nümayəndəsi;
d) müşahidəçi;
e) mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi.

Seçicinin seçki bülleteni və ya xüsusi çərçivə zərfi korlandısa, o, bu barədə komissiyanın sədrinə məlumat verməlidir. Komissiya sədrinin tapşırığı ilə qeydiyyatçı korlanmış seçki bülleteni/xüsusi çərçivə zərfini seçici üçün yenisi ilə əvəz etməyə borcludur.

Komissiyanın sədri seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə qatlayır ki, seçki subyektlərini görmək mümkün olmasın, bükülmüş seçki bülleteni metal bağlayıcı ilə bağlayır, küncünü kəsir, “korlanmış” yazır və imzalayır. Komissiyanın sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

**III. Seçici xüsusi çərçivə zərfinə yerləşdirilmiş seçki bülleteni ilə əsas seçki qutusunun yanına gedir.**
Seçki qutusunun və xüsusi elektron səs sayma aparatının müşahidəçi komissiyasının üzvü seçiciyə seçki bülletenin aparata yerləşdirilməsi qaydasını izah edir:



“Seçki bülleteni xüsusi çərçivə zərf vasitəsi ilə aparata elə qoyun ki, bülletenin sınaq dairəsi olan tərəfi aşağı olsun.
Çərçivə zərfini yüngülcə tutun ki, aparat seçki bülleteni asanlıqla qəbul edə bilsin.
Aparatın ekranında “Səsiniz qəbul edildi” bildirişi görünənə qədər gözləyin və yalnız bundan sonra seçki məntəqəsini tərk edin”.

Seçici seçki bülleteni xüsusi çərçivə zərf vasitəsilə əsas seçki qutusunda quraşdırılmış aparata yerləşdirir. Seçici seçki bülleteni xüsusi çərçivə-zərf vasitəsilə aparata yerləşdirə bilmədikdə, ona seçki qutusunun və xüsusi elektron səs sayma aparatının müşahidə komissiyasının üzvü və kömək edə bilər.



*Səsvermə bülleteninin xüsusi elektron səs sayma aparatında yerləşdirilməsi*




*Seçki bülletenin əsas seçki qutusuna yerləşdirilməsini təsdiq edən bildiriş*

Xüsusi elektron səs sayma aparatı seçki bülletenini qəbul etməyib və geri qaytararsa, onu yenidən xüsusi elektron səs sayma aparatına yerləşdirmək mümkündür. Seçki bülleteni yenidən geri qaytarılarsa, korlanmış hesab olunacaq. Komissiya sədrinin tapşırığı ilə qeydiyyatçı seçiciyə korlanmış seçki bülleteni yenisi ilə əvəz etməyə borcludur.

Komissiyanın sədri seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə qatlayır ki, seçki subyektlərini görmək mümkün olmasın, bükülmüş seçki bülleteni metal bağlayıcı ilə bağlayır, küncünü kəsir, “korlanmış” yazır və imzalayır. Komissiyanın sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

Seçici bülletenini əsas seçki qutusuna yrləşdirdikdən sonra seçici xüsusi çərçivə zərfi onun üçün nəzərdə tutulmuş masanın üzərinə qoyur və seçki məntəqəsini tərk edir. Xüsusi çərçivə zərflər seçicilərin qeydiyyatçısı komissiya üzvlərinə verilir.

## Seçicilərin şəxsi məlumatlarının mühafizəsinin təmin edilməsi

Səsvermə binasında olmaq hüququ olan şəxslərə seçicilərin masa üstü siyahısında olan şəxsi məlumatların işlənilməsi (o cümlədən fotovideo çəkilməsi, toplanması, qeydə alınması, saxlanması), istifadə edilməsi, açıqlanması, ötürülməsi və/və ya yayılması qadağandır. Qeyd olunan qadağa, seçicinin şəxsi məlumatları ilə bağlı hərəkətlərin Gürcüstanın üzvi qanunu "Gürcüstanın Seçki Məcəlləsi" və MSK-nın hüquqi aktları ilə nəzərdə tutulmuş məntəqə seçki komissiyasının səlahiyyətlərinin həyata keçirilməsi üçün zəruri olduğu hallar istisna olmaqla, məntəqə seçki komissiyasının üzvlərinə də şamil edilir.

## Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin qeydiyyatı

Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayı (seçici fəallığı) saat 10:00, 12:00, 15:00, 17:00-da müəyyən edilir. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin yekun sayı barədə məlumatlar səsvermə prosesi başa çatdıqdan sonra müəyyən edilir.

Səsvermə prosesi saat 20:00-da başa çatır, əgər bu zaman səsvermədə iştirak etmək üçün növbəyə duran seçicilər olduqda istisna olur. Növbəyə duran sonuncu qeydə alınmış seçici səsini verən kimi səsvermə başa çatmış elan edilir.

Seçicilərin verifikasiya aparatlarından istifadə edilmədən səsvermə prosesini davam etdirərkən səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını müəyyən etmək məqsədi ilə, məntəqə seçki komissiyasının sədri verifikasiya aparatlarını qutulara qablaşdırmazdan əvvəl verifikasiya aparatından həm vaxtda seçicilərin sayını/fəaliyyətini əks etdən qəbzi/hesabatı çap edir. Heç bir yoxlama aparatından qəbzi/hesabatı çap etmək mümkün olmadıqda, komissiyanın sədri seçicilərin sayının qeydə alınması üçün nəzərdə tutulmuş müvafiq vaxtda seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf möhürlənmiş qutuları bir dəfə açır, onlara yerləşdirilmiş qəbzlərin sayını hesablayır. Komissiyanın katibi qeyd olunan məlumatları qeyd edir. Bundan sonra komissiya sədri qəbzləri yenidən qeyri-şəffaf qutulara yerləşdirir, möhürləyir və ayrıca saxlayır.

Növbəti mərhələdə səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayı məntəqə seçki komissiyası üçün nəzərdə tutulmuş seçicilərin siyahılarındakı imzalara uyğun olaraq müəyyən edilir, bunu da komissiya sədrinin tapşırığına əsasən qeydiyyatçılar səsvermə prosesinə mane olmadan sayırlar. Seçicilərin siyahılarında hesablanmış imzaların sayı seçicilərin verifikasiyasını təsdiq edən qəbzləri hesablanması nəticəsində əldə edilən məlumatlara əlavə edilir.



Qeydiyyatçılar hesablanmış məlumatların düzgünlüyünü yoxlamaq üçün seçicilərin siyahılarındakı imzaların sayından əlavə, onlar tərəfindən verilmiş seçki bülletenlərinin sayı (komissiyanın sədri üçün verilmiş korlanmış seçki bülletenlərinin sayı daxil olmaqla) barədə komissiyanın sədrinə məlumat verməlidirlər.

Verilmiş seçki bülletenlərinin sayını komissiyanın sədrindən alınmış seçki bülletenlərin sayı ilə qeydiyyatçıda qalan seçki bülletenlərin sayına müqayisə etdikdə müəyyən etmək olar.

Komissiyanın sədri məlumatların düzgünlüyünü yoxlayır:

| Verilmiş seçki bülletenlərinin sayından | − | Korlanmış seçki bülletenlərinin sayını | = | Seçici imzalarının sayı |
|---|---|---|---|---|

Məlumatlar arasında fərq aşkar edildikdə, seçicilərin qeydiyyatçısı dərhal izahat yazmalıdır (onda əks olunan məlumatlar səsverməda/seçkilərdə iştirak edən seçicilərin sayının müəyyən edilməsi və səsvermənin nəticələrinin yekun protokolunun tərtib edilməsi məqsədləri üçün nəzərə alınır).

Məntəqə seçki komissiyasının sədri seçicilərin sayının qeydiyyatı üçün nəzərdə tutulmuş müvafiq vaxtda hesablanmış səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını planşet vasitəsilə MSK-ya göndərir (bax: səhifə 42, sxem N5 - seçicilərin sayı (fəaliyyəti) haqqında məlumatın MSK-ya göndərilməsi prosesin təsviri).

Məntəqə seçki komissiyasının katibi səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını saat 12:00 və 17:00-da olan vəziyyəti, habelə səsvermə prosesi başa çatdıqdan sonra hesablanmış seçicilərin yekun sayını səsvermənin nəticələrinin nümayiş protokolunda və qeydlər kitabında göstərir.

## Səsvermə prosesinin başa çatması

Saat 20:00-da səsvermə prosesi başa çatır və seçki məntəqəsi bağlanır.

Saat 20:00-dək növbədə duran seçicilərin, səslərin hesablanması zamanı səsvermə binasında olan komissiya üzvlərinin, habelə səsvermə binasında olmaq hüququ olan digər şəxslərin qeydiyyatı qaydasına bu dərslik təlimatın 46-ci səhifəsinə baxın.

Verifikasiya aparatları olmadan səsvermə keçirildiyi halda, səsvermə başa çatdıqdan dərhal sonra məntəqə seçki komissiyasının sədri və üzvləri səsvermənin nəticələrinin yekunlaşdırılması üçün hazırlığa başlayırlar. Bu məqsədlə aşağıdakı prosedurları ardıcıl olaraq həyata keçirirlər:

| | |
|---|---|
| ☐ Səsvermə bülletenlərinin daşınan seçki qutusundan əsas seçki qutusuna elektron səs sayma aparatları vasitəsilə yerləşdirilməsi. | səh. 48-49 |
| ☐ Səsvermənin ilkin nəticələrinin elektron səs sayma aparatları vasitəsilə əldə edilməsi. | səh. 49-54 |
| ☐ Seçki məntəqəsinin səslərin hesablanması proseduru üçün hazırlanması və sayıcıların müəyyən edilməsi. | səh. 54-55 |
| ☐ Əsas seçki qutusunu açmazdan əvvəl seçki sənədlərinin möhürlənməsi.<br>Qeyd: Bu dərslik təlimatın 56-ci və 57-cı səhifələrində verilmiş möhürlənmiş seçki sənədlərinə əlavə olaraq, komissiyanın katibi ayrı-ayrı paketlərə yerləşdirir:<br>✔ seçicilərin vahid siyahısını;<br>✔ seçicilərin xüsusi siyahısını (əgər varsa).<br>Komissiyanın katibi hər bir paketdə seçki dairəsinin adını və nömrəsini, seçki məntəqəsinin adını və nömrəsini, seçki sənədlərinin növünü göstərir. Möhürlənmiş paketləri möhürlənmə zolağında sayıcılar və komissiyanın sədri imzalayırlar. | səh. 55-56 |
| ☐ Əsas seçki qutusunun açılması, seçki bülletenlərin sayılması/möhürlənməsi. | səh. 56-57 |
| ☐ Səsvermənin nəticələrini yekun protokolunun tərtibi və açıqlanması edilməsi. | səh. 57-62 |
| ☐ Qeydiyyat jurnalının bağlanması, qeydlər kitabının bağlanması/möhürlənməsi, komissiyanın xüsusi möhürünün möhürlənməsi.<br>Qeyd: Verifikasiya aparatından çap edilmiş yekun hesabatın möhürlənməsi ilə bağlı olan, bu dərslik təlimatın 63-ci səhifəsindəki qayda, qüvvədə olmur, əgər səsvermə prosesi verifikasiya aparatı olmadan davam edərsə. | səh. 62-63 |
| ☐ Seçki sənədlərinin, elektron aparatlarının və digər inventarın dairə seçki komissiyasına verilməsi. | səh. 63 |

# Səsvermə prosesinin xüsusi elektron səs sayma aparatlarından istifadə edilmədən davam etdirilməsi

## Səsvermə prosesi

Xüsusi elektron səs sayma aparatı olmadıqda seçicilər üçün səsvermədə iştirak etməsi xidmətinin həyata keçirilməsi üçün məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququ olan şəxslərin iştirakı ilə əsas səsvermə qutulardan aparatları açır.

Komissiyanın sədri dairə seçki komissiyasının nümayəndəsinə xüsusi elektron səs sayma aparatları müəyyən edilmiş qaydada aparatlar üçün nəzərdə tutulmuş qutularda saxlamağı tapşırır.



*Seçki bülleteni yerləşdirmək üçün yarığ*

Seçicinin seçki bülleteni, xüsusi zərf/çərçivə-zərf olmadan, seçki bülleteni yerləşdirmək üçün xüsusi yarığ vasitəsilə birbaşa əsas seçki qutusuna yerləşdirmək imkanı var.

Xüsusi elektron səs sayma aparatları olmadan səsvermə prosesində seçici üçün yalnız seçki bülletenin əsas seçki qutusuna yerləşdirilmə proseduru dəyişir, yani gizli səsvermə kabinəsindən çıxan seçici seçki bülletenini bükülmüş halda (xüsusi zərf/çərçivə-zərf olmadan) əsas seçki qutusuna yerləşdirməlidir.

Seçicinin səsvermə binasına daxil olmasına icazə verilməsi qaydasına və qeydiyyatçı tərəfindən seçiciyə göstəriləcək xidmətə (verifikasiya aparatlarından istifadə etməklə qeydiyyat, seçki bülletenin doldurulması qaydasının izahı) bu dərslik təlimatın 29-34-cü səhifələrində baxın.

Əsas seçki qutusunun yanında dayanan səlahiyyətli komissiya üzvü seçiciyə seçki bülletenin əsas seçki qutusuna yerləşdirilməsi qaydasını izah edir:

"Seçki bülletenini gizlilik prinsipinə riayət etməklə əsas seçki qutusuna bükülmüş vəziyyətdə yerləşdirin".

## Səsvermə prosesinin başa çatması

Səsvermə xüsusi elektron səs sayma aparatları olmadan keçirildikdə, səsvermə başa çatdıqdan dərhal sonra (saat 20:00-da başa çatır və ya həmin vaxtda növbədə duran sonuncu qeydə alınmış seçici tərəfindən səsvermə başa çatdıqdan dərhal sonra) məntəqə seçki komissiyasının sədri və üzvləri səsvermənin nəticələrinin yekunlaşdırılması üçün hazırlığa başlayırlar. Bu məqsədlə aşağıdakı prosedurlar ardıcıl olaraq həyata keçirlər:

| | |
|---|---|
| ☐ Verifikasiya aparatlarında verifikasiya prosesinin başa çatması. | səh. 47-48 |
| ☐ Daşınan seçki qutusundan seçki bülletenlərin xüsusi yarığ vasitəsilə əsas seçki qutusuna yerləşdirilməsi və başa çatdıqdan dərhal sonra əsas seçki qutularının yarığlarının möhürlənməsi.<br>Qeyd: Daşınan seçki qutusunun açılması zamanı möhürlərin bütövlüyünün yoxlanılması proseduru, xüsusi çərçivə zərfində birdən çox seçki bülleteni aşkar edildikdə görüləcək tədbirlər bu dərslik təlimatın göstərilən səhifələrində əks olunan qaydalara uyğun olaraq dəyişdirilmədən həyata keçirilir. | səh 48-49 |
| ☐ Səsvermə məntəqəsinin səslərin hesablanması proseduruna hazırlanması və sayıcıların müəyyən edilməsi. | səh. 54-55 |
| ☐ Əsas seçki qutusunu açmazdan əvvəl seçki sənədlərinin möhürlənməsi. | səh. 55-56 |
| ☐ Əsas seçki qutusunun açılması, seçki bülletenlərin sayılması/möhürlənməsi.<br>Qeyd:<br>✔ Bu dərslik təlimatın 57-cı səhifəsində göstərilən seçki bülletenlərinin batil hesab edilmə əsaslarından başqa, müəyyən edilmiş nümunəsi seçki bülleteni başqa seçki məntəqəsi üçün nəzərdə tutulduğu halda seçki bülleteni batil sayılır (belə seçki bülletenləri ayrı paketə qablaşdırılır və möhürlənir, onların sayı səsvermənin nəticələrinin yekun protokolunda göstərilmir və yalnız səsvermə gününün qeydlər kitabında qeyd olunur).<br>✔ Seçki qutusunda naməlum nümunəli seçki bülleteni aşkar edilərsə, belə seçki bülleteni ayrıca saxlanılır. | səh. 56-57 |
| ☐ Səsvermənin nəticələrinin yekun protokolunun tərtibi və açıqlanması. | səh. 57-62 |
| ☐ Qeydiyyat jurnalının bağlanması, qeydlər kitabının bağlanması/möhürlənməsi, komissiyanın xüsusi möhürünün möhürlənməsi.<br>Səslərin elektron sayilması üzrə aparatın ilkin nəticələr haqqında konsolidasiya edilmiş çıxarışın möhürlənməsi ilə bağlı, bu dərslik təlimatın 63-ci səhifəsindəki qayda, qüvvədə olmur, əgər səsvermə prosesi qeyd olunan aparatlar olmadan davam edərsə. | səh. 62-63 |
| ☐ Seçki sənədlərinin, elektron aparatlarının və digər inventarın dairə seçki komissiyasına verilməsi. | səh. 63 |

# Əlavə N3

## Məntəqə Seçki Komissiyasının həyata keçirəcəyi əsas tədbirlərin təqvimi

| Sentyabr | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ertəsi | Çərşənbə axşamı | Çərşənbə | Cümə axşamı | Cümə | Şənbə | Bazar |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | | | | | | |

**26 sentyabr (səsvermə gününə qədər 30-cu gün):**

- ☐ Yeni yaradılmış məntəqə seçki komissiyası fəaliyyətə başlayır.
- ☐ Məntəqə seçki komissiyasına MSK tərəfindən təsdiq edilmiş seçicilərin vahid siyahısının ictimai məlumat üçün olan versiyası təqdim ediləcək.
- ☐ Məntəqə seçki komissiyası seçicilərin vahid siyahısının ictimai məlumat üçün olan versiyasını (divar siyahısı - fotoşəkilsiz) məntəqə seçki komissiyasının binasında görünən yerə asır.
- ☐ Məntəqə seçki komissiyası seçicilərin kartlarını paylamağa başlayır (ilkin müddət).
- ☐ Müşahidəçilərin, seçki subyektinin nümayəndələrinin və seçicinin seçicilərin siyahısında qeyri-dəqiqlik aşkar edildikdə, məntəqə seçki komissiyasına ərizə ilə müraciət etmək və seçicilər haqqında məlumatlarda/seçicilərin vahid siyahısında dəyişiklik edilməsini (ilkin müddət) tələb etmək hüququ vardır. Məntəqə seçki komissiyası daxil olmuş ərizələri (əlavə edilmiş sənədlər - əgər varsa) dərhal dairə seçki komissiyasına verir.
- ☐ Sağlamlıq vəziyyətinə görə səsvermə binasına gedə bilməyən, yaxud seçki məntəqəsinin ərazisində yerləşir, lakin gediş-gəliş çətin olan yerdə olan seçicinin daşınan seçki qutusu ilə səsvermə xidmətindən istifadə etmək (ilkin müddət) üçün məntəqə seçki komissiyasına müraciət etmək hüququ vardır. Məntəqə seçki komissiyası daşınan seçki qutusunun siyahısına daxil olunası seçicilər haqqında məlumatı dərhal səsvermə binasında görünən yerə asır.
- ☐ Seçicinin məntəqə seçki komissiyasına müraciət etmək və uyğunlaşdırılmış seçki məntəqəsi seçicilərinin xüsusi siyahısına (ilkin müddət) daxil edilməsini xahiş etmək hüququ vardır.

| Oktyabr | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Bazar ertəsi** | **Çərşənbə axşamı** | **Çərşənbə** | **Cümə axşamı** | **Cümə** | **Şənbə** | **Bazar** |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 səsvermə günü | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

### 6 oktyabr (səsvermə gününə qədər 20-ci gün):

- Məntəqə seçki komissiyası seçicilərin kartını paylanmasını başa çatdırır (son tarix).

### 8 oktyabr (səsvermə gününə qədər 18-ci gün):

- Müşahidəçilər, seçki subyektinin nümayəndələri və seçicilər seçicilər siyahısında qeyri-dəqiqlik aşkar edildikdə, məntəqə seçki komissiyasına ərizə ilə müraciət etmək və seçicilər haqqında məlumatlarda/ seçicilərin vahid siyahısında dəyişikliklər daxil etməyi (son tarix) tələb etmək hüququna malikdir. Məntəqə seçki komissiyası daxil olmuş ərizələri (əlavə edilmiş sənədlərlə - əgər varsa) dərhal dairə seçki komissiyasına verir.

### 15 oktyabr (səsvermə gününə qədər 11-ci gün):

- Təkərli kürsü ilə hərəkət edən seçicinin məntəqə seçki komissiyasına müraciət etmək və uyğunlaşdırılmış seçki məntəqələrinin seçicilərinin xüsusi siyahısına daxil edilməsini (son tarix) xahiş etmək hüququ vardır.
- Təkərli kürsü ilə hərəkət edən seçici məntəqə seçki komissiyasına müraciət etdikdə, məntəqə seçki komissiyası seçici haqqında yuxarı dairə seçki komissiyasına məlumat verməyə borcludur.
- Sağlamlıq vəziyyətinə görə səsvermə binasına gedə bilməyən, yaxud seçki məntəqəsinin ərazisində yerləşir, lakin gediş-gəliş çətin olan yerdə olan seçicinin daşınan seçki qutusu ilə səsvermə xidmətindən istifadə etmək (son tarix) üçün məntəqə seçki komissiyasına müraciət etmək hüququ vardır. Məntəqə seçki komissiyası daşınan seçki qutusunun siyahısına daxil olunası seçicilər haqqında məlumatı dərhal səsvermə binasında görünən yerə asır.

### 16 oktyabr (səsvermə gününə qədər 10-cu gün):

- Dairə seçki komissiyası uyğunlaşdırılmış seçki məntəqələrinin seçicilərinin xüsusi siyahısını müəyyən edir və sərəncamla təsdiq edir və müvafiq məntəqə seçki komissiyasına verir.
- Məntəqə seçki komissiyası uyğunlaşdırılmış seçki məntəqələrinin seçicilərinin xüsusi siyahısının ictimai məlumat üçün olan versiyasını (divar siyahısı) dərhal məntəqə seçki komissiyasının binalarında görünən yerə asır.
- Məntəqə seçki komissiyasının üzvləri, seçki subyektlərinin nümayəndələri və müşahidəçilər səsin daşınan seçki qutusu vasitəsilə verilməsinin tələb edilməsinin əsaslılığını yoxlamaq və bu seçicilərin daşınan seçki qutusunun siyahısına daxil edilməsinin məqsədəuyğunluğu məsələsi (son tarix) barədə məntəqə seçki komissiyasına müraciət etmək hüququna malikdirlər. Qeyd olunan məsələ ilə bağlı qərarı məntəqə seçki komissiyası qəbul edir.

## 19 oktyabr (səsvermə gününə qədər 7-ci gün):

- ☐ Məntəqə seçki komissiyasının sədri partiyalar tərəfindən təyin edilmiş məntəqə seçki komissiyasının üzvləri arasından püşkatma yolu ilə daşınacaq seçki qutusunu götürən komissiya üzvlərini/xüsusi qrupun üzvlərini (son tarix) seçir.

## 24 oktyabr (səsvermə gününə qədər 2-ci gün):

- ☐ Yekun, dəqiqləşdirilmiş siyahıların ictimai məlumat üçün olan versiyaları (divar siyahısı fotoşəkilsiz) məntəqə seçki komissiyasına verilir. Divar siyahısının öncəsi götürülür və komissiya eyni yerə dəqiqləşdirilmiş versiyanı asır.
- ☐ Məntəqə seçki komissiyası seçki məntəqəsinin ərazisində qeydə alınmış və seçicilərin vahid siyahısına daxil edilmiş seçicilərə seçicilərin kartlarını verir (son tarix).

## 25 oktyabr (səsvermədən bir gün əvvəl):

- ☐ Məntəqə seçki komissiyasına bütün lazımi inventar, seçki elektron aparatlar, sənədlər və seçki materialları verilir (son tarix).
- ☐ Məntəqə seçki komissiyası səsvermə binasını təşkil edir.

## 26 oktyabr (səsvermə günü):

- ☐ Saat 06:45 - seçki məntəqəsi açılır.
- ☐ Saat 08:00-dan - səsvermə başlayır.
- ☐ Saat 09:00-dan - daşınan seçki qutusu ilə səsvermə prosesi başlayır.
- ☐ Saat 10:00-dan (saat 12:00, 15:00, 17:00 və 20:00-da) - səsvermədə/seçkilərdə iştirak edən seçicilərin ümumi sayı müəyyən edilir.
- ☐ Saat 19:00 - daşınan seçki qutusu ilə səsvermə prosesi başa çatır.
- ☐ Saat 20:00 - səsvermə prosesi başa çatır. Seçki məntəqəsi bağlanır.
- ☐ Saat 20:00-dan - səsvermənin nəticələrinin yekunlaşdırılması proseduru başlayır.